# AŞIQ ALI

# ƏSƏRLƏRİ

"AVRASİYA PRESS"
BAKI-2006



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Bu kitab "**Aşıq Alı. Şerlər**" (Bakı, Azərnəşr, 1975) və "Aşıq Alı. Şerlər" (Bakı, Yazıçı, 1982) nəşrləri əsasında təkrar nəşrə hazırlanmışdır.*

Tərtib edəni və
ön sözün müəllifi: **Hüseyn İsmayılov**

**894.3611-dc22**
**AZE**
**Aşıq Alı. Əsərləri**. Bakı, "Avrasiya press", 2006, 192 səh.

Kitaba böyük el sənətkarı aşıq Alının ictimai-əxlaqi, mənəvi-psixoloji mündəricəli əsərləri - gəraylıları, qoşmaları, divaniləri, təcnisləri, habelə ona həsr olunmuş üç rəvayət-dastan daxil edilmişdir.

ISBN10 9952-421-82-4
ISBN13 978-9952-421-82-8

© AVRASİYA PRESS, 2006



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## ÖN SÖZ

Azərbaycan mədəniyyətində zəngin ideya-estetik keyfiyyəti ilə seçilən aşıq sənəti keçdiyi tarixi inkişaf yolunda kifayət qədər böyük sənətkarlar yetişdirmişdir. Belə korifey sənətkarların yetişdiyi aşıq mühitləri içərisində digər mühitlər üçün genetik baza statusunda olan Göyçənin xüsusi yeri vardır. Kökləri və qaynaqları dünyagörüş kimi əski türk inamlarına (əcdad kultuna, tanrıçılığa və islamın içində yaranan türk sufi təriqətlərinə), musiqi sənəti kimi xalq-professional musiqisinə, ədəbiyyat kimi el şairliyinə bağlanan aşıq sənəti onun Göyçədə öz ilkinliyini və təbiiliyini daha çox qorumaqla yanaşı, həm də bütövlükdə Azərbaycan folklor arealında xüsusi seçilən zirvə məqamına yüksəlib. Təbii ki, bunu hər şeydən öncə təbiətin saflığı və cəmiyyətin səmimiliyi, inamın və dinin kamilliyi, ədəbiyyat və musiqi ənənəsinin zənginliyi şərtləndirib.

Göyçə mahalı əsrlər boyu Azərbaycan xalqının saz və söz məbədgahlarından biri olmuş, onun yetişdirdiyi istedadlı sənətkarlar poeziyamızın iftixarına çevrilmişlər. Göyçə saz və söz sənətinin hansı əsrdə yaranması haqqında qəti və dəqiq mülahizə söyləmək çətin olsa da, bu sənətin son 5-6 əsr ərzində daşıyıcısı olan görkəmli şəxsiyyətlərin adlarını sıralamaq mümkündür. Oxşar sənət hadisəsi kimi ozan sənətinin Göyçədə çox qədim zamandan mövcud olduğunu sübut edən faktlar və dəlillər də məhdud kəmiyyətdə deyildir; bir tərəfdən Göyçədə Ozanlar kəndinin mövcudluğunu, digər tərəfdən isə Ozan Cəlil, Ozan Heydər, Ozan İbrahim kimi orta çağ Oğuz sənətçilərinin yaddaşlarda saxlanması faktı Göyçədə sənət ənənəsinin məzmunca dəyişsə də, formaca fasiləsizliyindən xəbər verir. Göyçədə müasir tipli aşıq sənəti Tanrı sevgisi ilə, mənəvi kamilləşmə və ruhi saflaşma yolu ilə övliya, pir məqamına yüksəlmiş təriqət başçısı, mürşidlər mürşidi Seyid Hüseyn (Miskin Abdal) babadan və onun müqəddəs ocağından qaynaqlanır.

"Göyçə aşıqlarının səsi uzun zamanlar Bəsrə, Bağdad, Hələb, Tehran, Buxara üfüqlərində gəzib-dolaşmış, hər yerdə sonsuz hörmət və məhəbbətlə qarşılanmışdır. Göyçə aşıq əməyi Azərbaycan aşıq sənətini və ümumən aşıq ozan sənətini bütöv bir ardıcıllıqla təkmilləşdirmiş, onu yeni-yeni saz-söz tapıntıları ilə zənginləşdirmişdir".[1]

Göyçədə çoxsaylı ustad aşıqlar səviyyəsində qəlibləşmiş, kanonik standartların ciddi şəkildə gözləndiyi saz və söz ənənəsi mövcud olmuşdur. Bu ənənə XIX əsrdə Ağ Aşıq (Allahverdi), Aşıq Alı və Aşıq Ələsgər kimi

---

[1] M.Təhməzov (Elli). Ustad. "Sovet Ermənistanı" qəz., 17 noyabr 1981,№l38.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

vergili şəxsiyyətlərin, qutsal simaların sənət təcrübəsində və ədəbi irsində daha da möhkəmlənib.

XIX əsr bütövlükdə Azərbaycan tarixində mürəkkəb bir dövrdür. Yaranışından azad yaşayan türk insanı bu əsrdə işğala məruz qalıb; türk eli dağıdılıb, türk xalqı yağı əlində qul edilib, türk mədəniyyət və mənəviyyatı ağır məhrumiyyətlərə düçar edilib və nəticələri bu gün də müşahidə edilən mədəni-mənəvi, dini-ruhani deqradasiyaya uğradılıb.

Müstəmləkə rejiminin doğurduğu ağır sosial şərait cəmiyyətin mənəviyyatında sarsıdıcı izlər buraxıb. Bu çətin şərait qədim Ağ Hunların varisi Göyçə Oğuzlarının, Qərbi azərbaycanlıların da həyatında öz təsirlərini göstərib.

Qərbi Azərbaycanın, o sıradan Göyçə mahalının "haylaşdırılması" prosesi də bu dövrdən başlanır və rus imperiyasının türkə qarşı nifrət siyasətinin, qeyri-mədəni, qeyri-intellektual rəqabət müstəvisində aparılan antitürk kampaniyasının nəticəsi kimi reallaşır. Azərbaycanda qeyri-milli idarəçilik cəmiyyətin bütün səviyyələrində öz eybəcər nəticələrini büruzə verir. Azərbaycanın Şərqdən ayrılması da, İslamın "mürtəceləşməsi" də, Avropaya meyllənmə də bu dövrə təsadüf edir.

Eyni zamanda Azərbaycan milli şüurunun oyanması və milli azadlıq hərəkatının ilkin rüşeymlərinin yaranması da XIX əsr Azərbaycan reallığının faktıdır. İmperiyanın şiddətləndirdiyi sosial-mədəni və dini-ruhani fikir və duyğuların realizasiyasını da sürətləndirmiş olur. Çünki sosial və mənəvi sıxıntıların doğurduğu ağrı hökmən sənət və ədəbi fəaliyyət sistemində öz geniş ifadəsini tapmalı idi. Əsasən mənəvi-ruhani emosiyaların hiperbolik ifadəsi daha çox sosial rifahda və sosial düşkünlükdə reallaşır. Azadlıq ideyası və azadlıq mücadiləsi bir tərəfdən yad rejimə silahlı müqavimət göstərən Nəbi, Kərəm, Dəli Alı və bu kimi türk igidlərinin mübarizəsində geniş vüsət almış qaçaqçılıq hərəkatında, digər tərəfdən isə türk ruhunun azadlığını qoruyan, onu məhvdən xilas edən Ağ Aşığın, Aşıq Alının, Aşıq Ələsgərin saz və sözdə reallaşan dini-ruhani və estetik informasiyasında yaşam hüququnu təmin edirdi. XIX əsr Göyçə aşıq mühitinin görkəmli nümayəndəsi Aşıq Alının yaşadığı tarixi reallığın ümumi mənzərəsi belə idi.

Aşıq Alı XIX əsrin başlanğıcında, təxminən, 1801-ci ildə Göyçə mahalının Qızılvəng kəndində, sadə və yoxsul bir ailədə doğulmuşdur. Atası Mirzə kişi oğlunun dərrakəli və həssas bir uşaq olduğunu çox tez hiss etmiş və onu oxutmağı qərara almışdı. Alı mollaxanada təhsil aldığı müddətdə bir an belə sazı, aşıqların cövlan etdiyi məclisləri unuda bilməmiş, gizli oxuduğu aşıq mahnıları, gözəl və məlahətli səsi haqqında el-oba, qohum-əqrəba xəbər tutmuş və onların təşviqi ilə Mirzə kişi oğlunu Ağ Aşığa şəyird vermişdir. Hələ ilk günlərindən şəyirdinin fitri istedada malik olduğunu hiss edən Ağ Aşıq ona böyük həssaslıqla yanaşmış, az bir müddətdə Alıya bütün saz havalarını öyrədərək ona sənət yollarında müstəqil addımlar atmağı məsləhət



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

görmüşdür. Qüdrətli saz ustasının yanında keçən illər səmərəsiz qalmamış, Alının sədası tezliklə Qızılvəngdən, Göyçənin hüdudlarından çox-çox uzaqlara yayılmışdır.

Aşıq Alının həyatı ilə bağlı əldə olan məlumatlar təxminən yuxarıdakıları təkrarlayır. Məsələn, folklorşünas alim M.Həkimov yazır. "Tədqiqatçılar bu böyük saz-söz sərrafının 1800-1801-ci ildə Göycə mahalının Qızılvəng kəndində yoxsul kəndli Mirzə kişinin kasıb komasında dünyaya göz açdığını, ailəyə səadət gətirdiyini söyləyirlər".[1] Mürsəl Həkimovun verdiyi bilgidən Aşıq Alının anasının adının Fatma, həyat yoldaşının adının Bəsti olduğu aydınlaşır[2].

İ.Ələsgər də Aşıq Alını XIX əsrdə yetişmiş məşhur aşıqlardan sayır: "O, təxminən, 1800-cü ildə Göyçə mahalının Qızılvəng kəndində dünyaya göz açmışdı. Onun atası Mirzə əkinçiliklə məşğul olan kasıb bir kəndli imiş. Alı cavan vaxtlarından saza-sözə maraq göstərmiş, aşıq olmaq üçün Göyçənin Kərkibaş kəndində yaşayan Ağ Aşığa bir neçə il şəyirdlik eləmiş və bu sənətə yiyələnmişdir. O da özündən sonrakı birçox aşıqlara müqəddəs saz sənətinin sirlərini, incəliklərini öyrətmiş, kamil sənətkar kimi püxtələşməsində mühüm rol oynamışdır. Məşhur Aşıq Ələsgər də Aşıq Alının yetişdirdiyi şəyirdlərdəndir. [3] V.Vəliyevin "Azərbaycan folkloru" kitabında qeyd etdiyinə görə, Aşıq Alı Şəmkirli Aşıq Hüseynin müasiri olmusdur. O, 1801-ci ildə anadan olmuş, 1911-ci ildə vəfat etrmşdir. Bundan başqa, Aşıq Alının 1894-cü ildən sonra kor yaşadığı göstərilir[4].

Aşıq Ələsgərlə bağlı tədqiqatlarda onun ustadı ilə deyişməsi əhvalatı müxtəlif variantlarda verilsə də, Aşıq Alı haqqında məhdud məlumatları bir qədər genişləndirir. Folklorşünas H.Əlizadənin yazdığına görə Aşıq Ələsgər ustadı Aşıq Alı ilə toy, nişan məclislərinə gedəndə bəzən onun dediklərinə qulaq asmaz, öz şeirlərini oxuyarmış. Ələsgərin bu hərəkəti ustadının xoşuna gəlməzmiş, bu hərəkəti tərgitmək üçün ona nəsihətlər edərmiş. Bir gün yenə böyük bir toy məclisində ustadla şəyird arasında söz olur. Aşıq Alının sözü Ələsgərə dəyir. Ələsgər acıqlanır. Ustadı ilə dəyişməyi qərara alır. Məclis iki tərəfə ayrılır: bir tərəf Aşıq Alını, o biri tərəf Aşıq Ələsgəri müdafiə edir. Ustad-şəyird bir-birilə deyişir, aralarında çox hərbə-zorbalar, ustadnamələr, divanilər, təcnislər və dodaqdəyməzlər deyilir. Nəhayət, Ələsgər bədahətən məşhur və indiyə qədər heç bir aşıq tərəfindən qabağı söylənməmiş, "A yağa-

[1] M.Həkimov. Aşıq Alının sazlı, sözlü dünyası (Anadan olmasının 180-ci ildönümü qarşısında). "Sovet Ermanistanı" qəz., 1981.

[2] Yenə orada.

[3] Sazlı-sözlü Göyçə (Toplayanı, tərtib edəni və ön sözün müəllifi İ.Ələsgər). B., 1999, s. 16.

[4] V.Vəliyev. Azərbaycan folkloru. B., 1985, s.201.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yağa" rədifli təcnisini söyləyir. Aşıq Alı Aşıq Ələsgərə cavab verə bilmir, məclisi buraxıb gedir. Bu hadisədən sonra Ələsgər ustadından ayrılır, özü müstəqil bir sənətkar olaraq aşıqlığa başlayır. Ələsgər ustadını bağlaması nəticəsində geniş kütlə arasında daha böyük şöhrət qazanır. Onun yanına yaxın-uzaq yerlərdən şəyirdlər gəlir.[1]

Kitabın son nəşrində (1963-cü il nəşri nəzərdə tutulur - H.İ.) isə həmin əhvalat aşağıdakı kimi verilmişdir: "Aşıq Alı Ələsgəri tam yetirib hazırladıqdan sonra bir toy məclisində onunla deyişir, el icində hörmətini qaldırıb şöhrətləndirmək məqsədilə məğlub olmuş bir aşıq kimi öz sazını da ona təhvil vermək istəyir. Ələsgər isə onun bu xeyirxah hərəkətilə razılaşmayaraq:

Bir şəyird ki, ustadına kəm baxa,
Onun gözlərinə ağ damar, damar.

təcnisini deyir".[2]

Əhvalatın hər iki variantı "Azərbaycan şifahi xalq ədəbiyyatı" dərsliklərində təkrarlanır.[3] Başqa bir rəvayətdə isə Aşıq Alı ilə Ələsgər arasında üç gün deyişmə getdiyindən danışılır. Bu deyişmənin səbəbi Göycə mahalında aşıqların çoxalması idi.

Həqiqi aşıqları meydana çıxarmaq, aşıqlıq sənətindən xəbərdar olmayanlara birdəfəlik saz götürməyə icazə verməmək məqsədi ilə bir növ imtahan keçirilir. Aşıqları imtahan edən isə Aşıq Alı olur. Bütün aşıqlar imtahandan keçirilir, o məclisdə yalnız Ələsgər iştirak etmir. Aşıq Alıdan soruşurlar ki, siz şəyirdlərinizdən kimə üstünlük verirsiniz? Aşıq Alı Ələsgərin adını çəkir. Ələsgəri məclisə dəvət edirlər. Ustad ilə şəyird olduqca ehtiyatla, hörmətlə deyişirlər. Onların deyişməsi yalnız sənətkarlıq, şeir texnikasını bilmək yolu ilə gedir. Deyişmənin qıfılbəndindən istifadə olunmur, dini tapmacalar işlədilmir. Aşıq Alı "Görəydim" rədifli bir qoşma deyirsə, Ələsgər də həmin rədifli qoşma ilə ona cavab verir. Məclis qızışır, şairlər coşur, qoşmadan gəraylıya, gəraylıdan müxəmməsə və təcnisə keçirlər, bu zaman Ələsgər özü də bilmədən vaxtilə Qurbani, sonra isə Abbas Tufarqanlı tərəfindən yaradılan, "Şərxata" adı ilə məşhur olan bir təcnis deyir. Aşıq Alı onun təcnisinə cavab verə bilmir, öz sazını şəyirdinə verir və onun alnından öpür. Bundan sonra Ələsgərin şöhrəti bütün Azərbaycana yayılır.[4]

---

[1] Aşıq Ələsgər (Toplayanı H.Əlizadə). B., 1937, s.5-6; P.Əfəndiyev. Azərbaycan şifahi xalq ədəbiyyatı. B., 1981, s.213-214.

[2] P.Əfəndiyev. Göstərilən əsəri, s.214.

[3] P.Əfəndiyev. Göstərilən əsəri. s.213-214; İ.Babayev, P.Əfəndiyev. Azərbaycan şifahi xalq ədəbiyyatı. B., 1970, s. 188-189.

[4] V.Vəliyev. Göstərilən əsəri, s.218.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aşıq Alının həyatı və aşıqlıq fəaliyyəti ilə bağlı məlumat verə bilən qaynaqlardan biri də folklorlaşmış şəkildə gəlib çatmış "Aşıq Alının Türkiyə səfəri"dir. Klassik məhəbbət dastanı tipi ilə "aşıq rəvayəti" arasında orta mövqedə dayanan və daha çox mətn strukturu, süjet və motivlər səviyyəsində birinciyə meyl edən (dastanda "buta motivi" iştirak etmir) bu dastan bioqrafik informasiya kontekstində aşıq haqqında yaddaşlarda saxlanan bilgilərlə səsləşir.

Əslində aşıq haqqında həm dastanda, həm də hafizələrdə qorunmuş məlumatın hər ikisi eyni bir "mənbə"dən - aşıq ənənəsində yaşayan, ustad-şəyird şəcərəsində ötürülən ümumi yaddaş fondundan qaynaqlanır. Çünki konkret tarixi şəxsiyyəti tərənnüm edən folklor əsəri həmin şəxs tərəfindən yaradıla bilməz; ona görə də dastanın Alının şəyirdləri tərəfindən yaradıldığını ehtimal etmək olar. Belə halda dastanın "aşıq bioqrafiyası" etibarlı mənbə sayıla bilər. Həm də nəzərdən qaçırmayaq ki, Göyçə aşıq mühitinin spesifik cəhətlərindən biri də dəqiq və aydın sənət şəcərəsinin mövcudluğudur.

Göyçənin ustad aşığı Aşıq Hacıdan yazıya alınmış "Aşıq Alının Türkiyə səfəri" dastanını folklor örtüyündən çıxarsaq, onda mətn informasiyasının qısa məzmunu aşağıdakı kimi olacaq: Aşıq Alı Göyçə mahalının Qızılvəng kəndindən yoxsul Mirzə (Göyçə dialektində "İmirzə") kişinin oğludur. Həmin mahalın Çamırlı (Göyçə dialektində "Camırrı") kəndindən Niftalı adlı varlı bir kişinin Bəsti adlı qızı ilə evlənmək istəyir. Lakin xeyir işin reallaşması üçün lazım olan "zəruri minimum" səviyyəsində maliyyə vəsaiti olmadığından məşğul olduğu sənətdən (aşıqlıqdan) istifadə etməklə pul qazanmaq məcburiyyətində qalır. Bundan ötrü o, Naxçıvana və oradan da Türkiyəyə gedir. Müxtəlif çətinliklərlə üzləşirsə də, nəhayət, tələb olunandan da artıq vəsait əldə etməyə nail olur, vətənə qayıdır və sevgilisinə qovuşur.[1]

Dastanın mətn strukturu, səfər-sınaq-uğur modelində reallaşır. "Pul-para qazanmaq motivi"nin polisemantik funksiyalarının təhlilini dərinləşdirmədən qeyd edim ki, bu motiv geniş mənada sənətkar subyekti və mühit münasibətlərinin çeşidli spesifik əlamətlərini aydınlaşdırır.

Buradan məlum olur ki: 1) Aşıq Alının ailəsi yoxsuldur; 2) Azərbaycan əhalisi yoxsuldur, çünki pul qazanmaq üçün El Osmana (deyilişdə Alosmana, Türkiyəyə) getmək lazımdır; Azərbaycanın müstəmləkə şəraitində yaşaması əhalini müflisləşdirib. Ən başlıcası isə bu motiv aşıq sənətinin "sənətçilik mərhələsini" işarələyir; yəni aşığın fəaliyyət sferası məclislərə gedərək pul-para qazanmaqla məhdudlaşır.

Bu sosial kontekst Ələsgər haqqında rəvayətlərdə də qabarıq şəkildə təzahür edir. Qeyd olunan motivin informasiya ehtiyatından o da məlum olur ki,

---

[1] Azərbaycan folkloru antologiyası, III Kilab. Göyçə folkloru (Toplayanı, tərtib edəni və ön sözün müəllifi H.İsmayılov). B., 2000, s.446-480.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

aşıq rəvayətindən dastanlaşmağa doğru gedən bu mətnin formalaşma mərhələsi də Azərbaycanın müstəmləkə olduğu dövrə (1828-1918) təsadüf edir. Ustad fenomeninin "mifləşdirilməsi", folklorlaşdırılması ustada ədəb-ərkan təlimi ilə işləyən Göyçəli şəyirdin (məsələn, Ələsgərin) minnətdarlığının ifadəsi kimi də reallaşa bilərdi.

Dastana "sənətçi-aşığ"ın mətn faktı prizmasından baxıldıqda, "buta motivi"nin iştirak etməməsinin səbəbi də aydın şəkildə görünür. Çünki aşığın sənətçiyə çevrilməsi funksiya səviyyəsində sakral missiyanın profanlaşması ilə müşayiət olunaraq haqq aşıqlığından keyfiyyətcə fərqli bir hadisə idi. Mətndə süjetin invariant sxemi saxlansa da, hadisəvi informasiyanın sosiallaşması müşahidə olunur.

Dastanda təhkiyəçi subyektinin təhlili bəzi məqamlara aydınlıq gətirir. Belə ki, dastan ənənəvi şəkildə üç ustadnamə (Aşıq Musa, Aşıq Ələsgər, Qul Allahqulu) ilə başlanır və duvaqqapma ilə bitir. Ustadnamələrdən sonra ifaçı aşıq "bəli, mənim əzizdərim, sizə hardan xəbər verim, Göyçə mahalının Qızılvəng kəndinnən. Kimnən, Aşıq Alıdan"[1] məlumatını bildirəndən sonra, təhkiyəçi kimi Aşıq Alının özü çıxış edir: "Cavan vaxtımda orda-burda söhbət eliyirdilər ki, Aşıx Alı gələcəkdə gözəl sənətkar olajax. Allah heş kimi kasıv eləməsin. O zamannar elə kasıvıydıx ki, oğru içəri girsəydi, bircə süpürgədən başqa əlinə bir şey keçməzdi. O vaxtın pulu bir abbasım varıydı. Kəndin içinə çıxdım ki, mal öldürüf alışma eliyiflər. İki girvəngə ət aldım. Gətirdim evə, dədəm doğradı, anam tökdü qazana, qoydu ocağın üstünə. Kasıvın evində yemək olanda ev gülür, eşik gülür. Öydə bir ala pişiyimiz varıydı. O da sevindiyindən tufara hoppanıf, yerə düşürdü. Dədəmnən anamın söhbəti də bir-birinə yaman xoş gəlirdi".[2]

Təhkiyə Aşıq Alının dilindən verilir və "ana, mənim coravımı, ayağımın məstini gəti. Sazımı götürüm, gedim. Mən də öz payımı düzəldim gətirim" mürəkkəb sintaktik bütövündə (MSB) tamamlanır.[3] Və beləliklə, mütəmadi olaraq Alı dastana təhkiyəçi kimi daxil edilir: "Düzü, qorxuf çəkinsəm də, yolumnan dönmədim. Bir azdan at məni endirdi həmin kəndə".[4] Təhkiyə səviyyəsində baş verən intensiv dəyişmələr bir tərəfdən türk epik ənənəsindən (məsələn, "Dədə Qorqud soylamış" və "Ozan aydır" ifadələrinə diqqət et), digər tərəfdən isə əhvalat və rəvayətin, hadisə və süjetin, tarixi faktın və folklorun kontominasiyasından qaynaqlanır.

---

[1] Yenə orada, s.448.

[2] Yenə orada, s.448.

[3] Yenə orada, s.450.

[4] Yenə orada, s.451.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Görünür, dastanın mətn substratı oxşar hadisədən, real əhvalatdan yaranıb. Aşıq Durxan, Aşıq Yığval, Əsmər xanım, qalyan-qorçu Əsəd, Mehdixan, Zilan qaçaqları, fraqmental şəkildə keçən Xudaverdi, Mustafa və s. adların konkret şəxsiyyətləri nəzərdə tutub-tutmadığını dəqiq söyləmək çətindir.

Təbii ki, dastan informasiyasının bütün elementləri folklor qəlibində cıxış etdiyindən onun real tarix kimi anlaşılması doğru deyil. Amma bununla yanaşı, burada tarixin də "payı" yox deyildir. Dastanda Aşıq Alının dilindən söylənən şeirlər əksəriyyət etibarilə sufi mahiyyətlidir:

Aşıq Alı təvəkküldü pirinə,
Sığınmışam o Kərrari-Kərimə.

Mərifətdən kamal alan, ay aşıq,
Şəriəti nəynən elərsən aşkar?

Şahlar şahı, özün yetiş haraya,
Düşmən bu günümdə ayaq almasın və s.

Deyişmə səhnələrində İslamdan, Qurandan, Təriqətdən (Ələvi təriqəti, çünki "Kərrari-Kərim" Həzrət Əlinin adlarındandır) geniş şəkildə istifadə olunur.

Dastanda adı keçən yer adlarının Göyçə aşıqlarının fəaliyyət sferası çərçivəsində olduğunu söyləmək mümkündür. Təbii ki, bu çevrənin mərkəzində aşığın doğma yurdu ulu Göyçə dayanır:

Camalın şövqündən dilim oldu təng,
Çayda balıq olar, dəryada nəhəng,
Mahalım Göyçədi, kəndim Qızılvəng,
Aşıq Alı birdi, birə-bir gərək.

Və ya:
Zərzivil, Xan Keyti, Daşkət baxarı,
Ağ sürülər Sarı yaldan yuxarı.
Gözəllər seyr edər o yaylaqları,
Yaylaq, bizim yaylaqlara bənzərsən.

Deyər Aşıq Alı das Gözəldərə,
Şəqayiq-çiçəkli xoş Gözəldərə.
Əyricə, Verst dağı, Baş Gözəldərə,
Oylaq, bizim oylaqlara bənzərsən.

Və yaxud:
Aşıq Alı insanata sirridi,
Tozun qalxıb İrəvanı bürüdü,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Axşam üstü bir tərəfin yeridi,
Basdın Axuranı, pir Ağrı dağı.

Aşıq Alı haqqında folklor məlumatının saxlandığı "Aşıx Alının Türkiyə səfəri" dastanı ustad sənətkarın həyatından fraqmental bəhs etsə də, sənət dünyası haqqında geniş təsəvvür yarada bilir. Alının dastandakı aşıq obrazı haqq aşığıdır. Bu, toy səhnəsində, xüsusilə aydın şəkildə müşahidə olunur. O, sufi aşıqdır, Ələvi təriqətinə mənsubdur. Amma onun təriqətdəki yeri dəqiq bilinmir.

"Böyük bir ədəbi irs qoyub gedən Aşıq Alı vaxtında axtarılıb tədqiq olunmadığından külliyyatı it-bata düşmüş, şeirlərinin çoxu təhrif olunmuş, bəzən də başqalarının adına getmişdir. Təsadüfi deyil ki, Alı irsinə ilkin üz tutanlardan Hümbət Əlizadə 30-cu illərdə çap etdirdiyi "Aşıqlar" kitabında Göyçəli Aşıq Alının yaradıcılığından çox az nümunələr qaldığına təəssüflənirdi".[1]

Aşıq Alı irsinin öyrənilməsində Hüseyn Arifin ciddi səyləri olub. Xüsusilə, "Aşıq Alını axtarıram" məqaləsindən sonra bu sahədə dönüş yaranıb. Hüseyn Arifin axtarışları nəticəsində böyük sənətkarın hafizələrdə yaşayan 54 şeiri yazıya alındı və 1975-ci ildə "Aşıq Alı" adlı kitabçada nəşr olundu.[2] Bu nümunələr bir daha çeşidlənərək aşığın 180 illik yubileyi ərəfəsində çapa hazırlandı və 1982-ci ildə yenidən nəşr olundu. Kitabın uğurlu cəhəti kimi təcnislərin nəşri xüsusi qeyd olunur.

Aşıq Alının öyrənilməsində onun ustadı Ağ Aşığın həyatı və fəaliyyətini araşdıran tədqiqatların da mühüm rolu vardır. Belə ki, Ə.Şamilov Kosacanlı (Şərur) Ağ Aşıqla, Kərkibaşlı Ağ Aşığı bir-birindən ayırmaqla Aşıq Alının ustadı haqqında məsələyə aydınlıq gətirmişdir.[3]

Ağ Aşığın nəvəsi Allahverdinin söyləməsinə görə, şəyirdləri içərisində ən çox sevdiyi və məclislərə özü ilə apardığı Aşıq Alı imiş. Aşıq Alı olduqca həyalı, az danışan, ustad yolu gözləyən istedadlı şəyird imiş. Ağ Aşığın "Koroğlu", "Misri", "Bozuğu" havacatlarına ancaq Aşıq Alı qabaq oxuyarmış.[4]

Qeyd edim ki, Alı irsinin toplanmasında, müəyyənləşdirilməsində ciddi problemlər vardır. Bu, bir tərəfdən obyektiv olaraq zaman baxımından söz yaddaşının hafizələrdən silinməsi, söz ehtiyatı daşıyan folklor subyektlərinin (informatorların) azalması və sənət nümunələrinin müəllif subyektinin müəyyənləşdirilməsindəki çətinliklərlə bağlıdırsa, digər tərəfdən subyektiv faktorla şərtlənən şəxsi maraq çərçivəsində reallaşan süni mətn tərtibi, mətn saxtalaşdırılması və qondarma "sənət nümunələri"nin nəşri ilə əlaqəlidir.

---

[1] T.Göyçəli. Göstərilən əsəri, s.38

[2] Aşıq Alı. Tərtib edəni H.Hüseynzadə. B., 1975.

[3] Ə.Şamilov. Aşıq Alının ustadı kimdir? "Sovet Naxçıvanı" qəz., 27 aprcl 1983; Yenə onun. Bir daha Ağ Aşıq haqqında. "Oğuz eli" qəz., 14 yanvar 1993.

[4] Ustad aşıqlar. Tərtib edənlər: P.Əfəndiyev, M.Həkimov, N.Məmmodova. B., 1983, s.51.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aşıq Alı şəxsiyyəti və sənət irsi haqqında saxta məlumat daşıyan kitabların nəşri AMEA Ədəbiyyat İnstitutunda keçirilən xüsusi müzakirənin mövzusu olmuş, sözügedən kitabın ədəbiyyat kataloqundan çıxarılması ilə bağlı qərar qəbul olunmuşdur.

Qeyd edim ki, folklor mətni, o sıradan aşıq şeiri semantik strukturun alt qatında türk dünya modelinin üfüqi və şaquli strukturunu işarələyir. Türk düşüncəsinin modelləşdirici sistemi ilə işləyən spesifik sxemdə reallaşır. Bundan başqa, aşıq şeirinin ənənədə sabitləşmiş leksik fondu və metaforik sisteminin mümkün çərçivəsi mövcuddur. Ona görə də təbii və süni folklor mətninin müəyyənləşdirilməsi tamamilə mümkündür. Alının adına yazılan saxta mətnlər isə o dərəcədə səviyyəsiz düzəldilib ki, ümumiyyətlə və hər hansı şəkildə təhlil obyekti olmağa layiq deyil. Çünki o şeirlərdə nə türk ruhu, nə Alı nəfəsi duyulur, nə də onlar Göyçə poeziyasına xas olan poetik nümunələrlə səsləşə bilməyən çox yöndəmsiz cızma-qaralardan başqa bir şey deyil.

Aşıq Alının ədəbi irsi məhdud kəmiyyətdə gəlib çatıb. Amma bununla belə, Alının poeziyası təbiiliyi, dilin, fikrin və sənətin imkanlarının sadə formullarda çox mükəmməl şəkildə təzahür etdiyi möhtəşəm sənət faktıdır. Aşıq şeirinin bəzi şəkillərinin də Aşıq Alı tərəfindən yaradıldığı ehtimal olunur.

Aşıq Alı eyni zamanda musiqi yaradıcılığı və bəstəkar fəaliyyəti ilə də geniş şöhrət qazanıb. Onun yaratdığı saz havalarına "Göyçə şərili", "Göyçəgülü", "Ağır şərili", "Göyçə qaytağı", "Qəhrəmanı", "El bayatısı" ("Köç bayatı"), "Gilənar" aid edilir.[1]

Aşıq Alı "Koroğlu aşığı" kimi məşhur olmuş, "Koroğlu"nun klassik ifa tərzinin də ondan qalması ehtimal olunur.

Aşıq Alının ədəbi irsinin sağ qalmış nümunələrinin nəşr olunduğu etibarlı mənbələrdən biri İ.Ələsgərin tərtib etdiyi "Sazlı-sözlü Göyçə" kitabıdır. Kitabda Aşıq Alının "Ağrı dağı", "Bənzərsən", "Bu gün", "Dedi", "Dolandırır", "Düşər", "Düzələ bilməz", "İstər könlüm", "Keçdi", "Qızların", "Qoca dünya çoxun yola salıbdı", "Nə qaldı", "Oldu getdi", "Özgələrdən bizə xata yetişməz" qoşmaları, "Ay ağ almasın", "Dalı dayansın", "Başa-baş", "Dal dala" təcnisləri, "Gözlə, gözlə sən", "Qırmızı", "Verir" divaniləri təqdim edilib.[2]

Azərbaycan şifahi xalq ədəbiyyatını araşdıran tədqiqatçılar bu və ya başqa şəkildə Aşıq Alı irsinə müraciət ediblər. H.Əlizadə, H.Arif, M.Həkimov, Q.Namazov, V.Vəliyev, E.Məmmədli və b. Aşıq Alının sənət dünyasından qismən də olsa bəhs ediblər.[3]

---

[1] M.Həkimov. Azərbaycan aşıq ədəbiyyatı. B., 1983.

[2] Sazlı-sözlü Göycə. B., 1999, s.16-27.

[3] H.Hüseynzadə. Aşıq Alını axtarıram. "Elm və həyat" jur.,№ 2, 1968; Q.Namazov. Azərbaycan aşıq sənəti. B., 1984; E.Məmmədli. Təcnis sənətkarlığı. B., 1988 və b.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Təbii ki, Alı poeziyasından yaddaşlarda saxlanan bu tipli nümunələr məhdud sayda deyildir. Amma onların toplanması, yazıya alınması və həm də məhz həmin sənətkara mənsubluğunu təyin edən poetik-üslubi elementlərin aşkarlanması ilə mətnin müəllif subyektinin müəyyənləşdirilməsi üçün ciddi folklorşünas fəaliyyəti lazımdır.

Nəşr olunmuş mətnlərdə və fraqmental da olsa Aşıq Alıdan bəhs edən araşdırmalarda mətn faktının müxtəlif səviyyəli qüsurluluğu nəzərə çarpır. Göyçə dialektinə və Göycə folklor mühitinə yaxından bələd olanlar yüksək təşəkküllü Göyçə aşıq poeziyasının ümumi şəkildə olsa da, səciyyəvi cəhətlərini müşahidə edə bilirlər. Məsələn, Aşıq Alının adına tərtib olunmuş saxta mətnləri göycəli alimlər də, sənətçilər də birmənalı səkildə rədd etdilər. Çünki Azərbaycan şeir sənətinin Göyçədə zəngin ənənəsi, tarixən formalaşmış kifayət qədər mükəmməl ədəbi mühiti və məktəbi mövcuddur.

Bu mühitin nümayəndələri Turanı da, İranı da sənət səviyyəsində fəth edib:

Nə qədər dolandım Turan elini,
Yenə öz torpağım yadıma düşdü.
Sarınər yaylağı, Göyçə mahalı,
Öz gözəl oylağım yadıma düşdü,

deyən Aşıq Alı sənət və estetik mücadilənin qlobal məkan çevrəsində Göyçənin mərkəzdə dayandığına da işarə vurur. Göyçə Azərbaycan türkcəsinin ən saf və ən təmiz poetik maksimumunun reallaşdığı sənət mühiti kimi seçildiyindən bu mühitin aşığına, el şairinə və ümumiyyətlə, sənət və ədəbiyyat adamına hər hansı qeyri-mükəmməllik, folklorun sınaq imtahanından "keçməmiş" örnəklər qəbuledilməzdir.

"Azərbaycan aşıqları və el şairləri" kitabında verilən örnəklər ("Yalan oldu", "Musa bəy" gəraylıları, "Gedirəm", "Qaldı", "Dolandırır", "Deyərsən", "Bənzərsən", "Getdi", "Gərək", "Gedirəm", "Nə qaldı?", "Dedi", "Ağrı dağı", "Çatarmı?" qoşmaları, "Almasın" təcnisi) Aşıq Alının gerçək sənət dünyasını əks etdirə bilir. Həmin qaynağın verdiyi bilgiyə görə, Aşıq Alının qoşma, gəraylı, təcnis, müxəmməs, divani və s. onlarca şeiri, "Aşıq Alı və Əsmər", "Aşıq Alının Türkiyə səfəri" adlı iki dastanı vardır.[1]

Aşıq Alının ədəbi irsi məhdud kəmiyyətdə gəlib çatsa da, onun Azərbaycan aşıq sənətinin ən böyük nümayəndələrindən biri olması şübhəsizdir. O həm aşıq havalarını, həm də aşıq şerini zənginləşdirmiş xüsusi seçilən sənətkar kimi məşhurdur. Aşıq Alı şəxsiyyət kimi kifayət qədər kamil

---

[1] Azərbaycan aşıqları və el şairləri. 2 cilddə. I cild. (Tərtib edəni Ə.Axundov). B,, 1983.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

insan, haqqı və ədaləti təbliğ edən ürfan sahibi (arif), sufi bir şair, qeyri-adi istedaddır. O, sözünü sənətin çətin yollarında sınamış, sazın, sözün və fikrin elə mükəmməl sintezini yaratmışdır ki, bunu yalnız haqq vergisi ilə mükafatlanmış şəxsiyyətlər təqdim edə bilərdilər.

Ustad sənətkar Aşıq Alının sənət dünyasından yadigar qalan ədəbi nümunələr məhdud kəmiyyətdə gəlib çatsa da, forma və məzmun mükəmməlliyi baxımından kifayət qədər dolğun informasiyalar verməkdədir. Müxtəlif məqsədlərlə tərtib olunmuş saxta mətnlər isə Göyçədə formalaşmış yüksək təşəkküllü musiqi və poeziya ənənəsinin məlum nümunələri ilə müqayisədə, mətn strukturunda işarələnmiş türk poetik sisteminə uyğunsuzluqda, saflığını və sağlamlığını mühafizəkar şəkildə qorumuş Azərbaycan türkcəsinin Göyçə dialektini ifadə etməməsində və başqa parametrlər və kriteriyalar üzrə aşkarlanır. Aşıq Alı irsini öyrənən tədqiqatçılar nəzərdən qaçırmamalıdırlar ki, Aşıq Alının gəlib çatmış gerçək sənət nümunələri H.Arifin toplayıb nəşr etdiyi kiçik həcmli kitabçadan ibarətdir; təhlil məhz bu mətnlər üzərində aparılmalıdır. Sonradan qeydə alınan mətnlər isə Aşıq Alının və onun birbaşa sənət və mənəvi varisi Dədə Ələsgərin poeziyası, poetik nəfəsi, ruhu və dili ilə müqayisədə müəyyənləşdirilməlidir. Çünki Aşıq Alının ən böyük əsəri elə Ələsgərin özüdür.

Qeyd etdiyimiz bu tipli aspektlər ən yeni tədqiqatlarda belə müşahidə olunmur. Yeni elmi informasiya verməyən bəsit və elmi-nəzəri, xüsusilə kulturoloji baxımdan sənət özəllikləri aşkarlaya bilməyən tədqiqatlar təqdim olunur.[1]

Aşıq Alı gözəl şeirlərin, misilsiz saz havalarının yaradıcısı olan istedadlı sənətkardır. Onun əzəmətli və möhtəşəm poetik dühası insan gözəlliyini, mənəvi harmoniya və ahəngdarlığı mükəmməl sənət nümunəsində təqdim etməklə bütövlükdə onun irsi ilə tanış hər kəsdə yüksək emosional duyğular oyadır:

Süsənli, sünbüllü, tər bənövşəli,
Yaylaq, bizim yaylaqlara bənzərsən.
İçən ölməz sənin kövsər suyundan,
Bulaq, bizim bulaqlara bənzərsən.

Əyricə, Verst dağı, Xankird baxarı,
Ağ sürülər Sarıyaldan yuxarı.
Gözəllər seyr edər o oylaqları,
Oylaq, bizim oylaqlara bənzərsən.

---

[1] N.Cabiroğlu. Aşıq Alının lirikası. "Azərbaycan" jur., 2002, №3.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aşıq Alı deyər, üç gözəl dərə,
Çiçəkli, şaqaylı, xoş gözəl dərə.
Əyricə, Verst dağı, Baş Gözəldərə,
Üç dağ, bizim üç dağlara bənzərsən.

Təsvir etdiyi hər hansı bir hadisəni öz poetik nəfəsinin odu ilə isindirən, onu sənətin heyrətamiz dili ilə əks etdirən Aşıq Alı insan qəlbini ən ülvi duyğular qucağında əsrarəngiz gözəlliklər aləminə aparır, onu yüksək estetik ideallar, nəcib hisslərlə zənginləşdirir. İnsan qəlbinin dərinliklərinə nüfuz etməyi bacaran, onun hissiyyatının, lirik duyğularının canlı poetik tablosunu yaratmağa qadir olan Aşıq Alı səmimi insan hisslərini böyük məharətlə qələmə alır. Bəşəri duyğuların təbii, real mənzərəsini yaradır:

Bir nişan istədim gül üzlü yardan,
Dirsəyin göstərdi: alısan, - dedi.
Dedim: ay qız, köcdüm, səndən əl çəkdim,
Əlbət bir yadına salısan, - dedi.

Dedim: ay bəxtəvər, bu nə büsatdı?
Dedi: nəzər eylə, gör nə sifətdi.
Dedim: çeşmim yaşı yeri islatdı,
Verrəm dəsmalımı, silisən, - dedi.

Dedim: ay qız, qəmnən dəftər bağlaram,
Dedi: baxma, nişanını saxlaram.
Dedim: həsrətindən ilnən ağlaram,
Qorxma, yaxın vaxtda gülüsən, - dedi,

Dedim: ay qız, nə gözəldi şamama,
Dedi: dərmə, ömrün yetər tamama.
Dedim: ay qız, əl uzadım butama,
Özünü nüfuzdan salısan, - dedi.

Dedim: xəstələrin can dərmanısan,
Dedi: aşiqlərin kərəm kanısan,
Dedim: ay qız, mənim adım tanısan?
Əzəldən bilirəm, Alısan, - dedi.

Folklorşünas M.Həkimov "Aşıq Alının sazlı-sözlü dünyası" adlı yazısında ulu sənətkarın yaddaşlarda yaşayan fiziki portretini də təqdim edir: "Dədə sənətkarı şəxsən görənlərdən Mir Hüseyn baba, Adil baba, Məsim baba, Murad baba, Cahan nənə və başqaları söyləyirlər ki, Aşıq Alının boyu iki metrdən uca idi. Enlikürəkli, sarışın, qumral gözlü adam idi. Olduqca



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

məlahətli səsi vardı. Ən çox təcnis, divani oxumağı sevərdi. Olduqca şirin ləfzi ilə dastan söyləmək qabiliyyətinə malik idi. Məclis aparanda, eldə-obada ədəb-ərkanına söz ola bilməzdi. Yersiz danışmağı sevməzdi. Qocaların aşığa verdiyi bu şahidlik xasiyyətnamələri onun poetik yaradıcılığında da çox aydınlıqla görünür".[1]

M. Həkimovun yazdığına görə, Aşıq Alının öz dəsti-xətti ilə yazdığı üç kitab əlyazması şeirləri və ustadı Ağ Aşıqdan yazdığı bir kitab əlyazması 1938-ci ilə kimi Kəlbəcərdə "Dilsuz və Xəzangül" dastanının müəllifi Aşıq Nəbinin şəxsi arxivində saxlanmışdır. Anlaşılmazlıq üzündən həmin nadir nüsxələr bir çox əlyazmaları kimi 1938-ci ildə yandırılmışdır. M.Həkimov onu da qeyd edir ki, "hazırda əldə olunan şeirlər və aşığın səfərnamələri, əsasən, Aşıq Alının qocalıq illərində həmsöhbətləri olan Aşıq Həmid, Aşıq Şirin və başqalarının o vaxt yazıya aldıqları əlyazmalardan götürülmüşdür".[2] Göyçə mahalını kəndbəkənd gəzmiş folklorşünas, Aşıq Alının 20-dən çox şəyirdi olduğunu da yaşlı adamların yaddaşından yazıya köçürmüşdür. Onlardan Aşıq Ələsgər, Aşıq Mehdi, Aşıq Məhəmməd, Aşıq Hümmət, Aşıq Alşan, Aşıq Məhərrəmin adlarını çəkir. Adı keçən tədqiqatda göstərilir ki, Aşıq Alı böyük təcnis ustası kimi məşhur olduğundan ona el arasında "Təcnis Alı", "Loğman Alı", "Dədə Alı", "Şıx Alı" da deyərmişlər.[3]

Lakin tanınmış folklorşünas alimin bu qeydləri Alı ilə bağlı reallıqları əks etdirmir. Bu məlumatlar Alıya aid məlum və məşhur üzdəniraq cızma-qaraları sırımaq istəyənlərin uydurmalarından qaynaqlanmaqdadır.

Öz şəyirdinin fitri istedada malik olduğunu duyan Ağ Aşıq ona böyük həssaslıqla yanaşmış, az bir müddətdə Alıya bütün saz havalarını öyrədərək, ona sənət yollarında müstəqil addımlar atmağı rəva görmüşdür.

Qüdrətli saz ustasının yanında keçən illər səmərəsiz qalmır. Alının sədası tezliklə doğma Qızılvəngdən keçib Göyçənin hüdudlarından çox-çox uzaqlara yayıldı. Doğma Göyçənin füsunkar gözəllikləri, sevən bir qəlbin alovlu çırpıntıları gənc aşığın könül rübabını dilə gətirən ilk poetik duyğulardır:

Bir nişan istədim gülüzlü yardan,
Dirsəyin göstərdi: alısan, - dedi.
Dedim: ay qız, köçdüm, sənnən əl çəkdim,
Əlbət bir yadına salısan, - dedi.

Canlı xalq dilinin sərrast ifadələri ilə yoğrulmuş bu misralarda biz coşqun bir poetik ülviyyətlə yanaşı, böyük məharətlə rəsm edilmiş səmimi bir mənə-

---

[1] Xalqımızın deyimləri və duyumları (Toplayanı və tərtib edəni M.Həkimov). B., 1986, s.58-59.

[2] Yenə orada, s.59.

[3] Yenə orada, s.60-62.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

viyyat tablosu ilə qarşılaşır, hisslərin təmizliyinə, onların sadə və əzəmətli poetik ifadəsinə heyran qalırıq.

Sənətkarın yaradıcılığında ictimai motivlər getdikcə güclənməyə başlayır. O, cəmiyyətdə hökm sürən bərabərsizliyə qarşı öz etiraz səsini ucaldan müdrik bir el sənətkarı kimi çıxış edir:

Ay ağalar, gəlin sizə söyləyim,
Yəqin bu dünyanı pul dolandırır.
Kəsilib məhəbbət, qalmayıb hörmət,
Dövlətli dalınca mal dolandırır.

Yoxsulluq Alının taleyinə elə bir acı damğa vurmuşdu ki, el sənətkarı bunu ömrünün son gününə qədər unuda bilmədi. Bu hadisə boyük bir ürək ağrısı, qəlb yanğısı ilə onun yaradıcılığında, sazının tellərindən qopan həzin melodiyalarda yaşadı, sənətkar üçün əbədi mövzuya çevrildi. Deyilənlərə görə, öz nişanlısına qovuşmaq üçün başlıq verə bilməyən Aşıq Alı qürbətə yollanmış, illərlə kəndlərdə, obalarda qəlbində vətən həsrəti, gözlərində sevgilisinin canlı surəti məclislər aparmış, qazandığı hər qəpik-quruş onun arzuları üçün qol-qanad olmuşdur:

Nə qədər dolandım Turan elini,
Yenə öz torpağım yadıma düşdü.
Sarınər yaylağı, Göyçə mahalı,
Öz gözəl oylağım yadıma düşdü.

Gəlib xəyalımdan keçdi o çağlar;
Yay fəsli atlanıb gələn qonaqlar.
O güllü-çiçəkli alışan dağlar,
O Qiblə bulağım yadıma düşdü.

Qızıl dağı, Məciddinin oylağı,
Doğma yurdun doğma odu, ocağı.
Alının köksündə hicranın dağı,
O qaymaq dodağım yadıma düşdü.

Öz sevgilisinə iki ilədək gələcəyinə söz verən Aşıq Alının həmin müddətdə qayıtması mümkün olmur. Qürbətdə həmyerlilərindən birinə rast gələn Aşıq Alı vədə verilən vaxtda gələ bilməyəcəyini sifariş etmiş, "Deyinən" rədifli qoşmasını yazıb ona vermişdir ki, sevgilisinə, qohum-əqrəbasına çatdırsın. Lakin dərdli aşığın:

Qasid, gedər olsan bizim ellərə,
Bu naməni o canana deyinən.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qohum-qardaş, dost-müsahib olanlar,
Göz dikməsin başqa yana deyinən -

deyə Alosmandan doğma yurda, dövrün sıxıntılarından yana düşdüyü qürbət eldən xəbər göndərir. Yanıqlı sifariş və ürək dağlayan fəryadı nə sevgilisinə, nə də qohum-əqrəbasına çatdırılmadı. Bundan istifadə edən düşmənlər Aşıq Alının ölməsi haqqında müxtəlif şayiələr uydurdular. Bu xəbərdən sonra ata-anası öz qızını, yəni Aşıq Alının sevgilisini zorla başqasına ərə getməyə məcbur eləmişdi. Lakin dastanda da təsvir edildiyi kimi, aşıq doğma vətəninə sevgilisinin toyunun başlandığı gün gəlib çatmış, hər şey arzuolunan sonluqla başa çatmışdır. Qeyd edim ki, məlumatların götürüldüyü "Aşıq Alının Türkiyə səfəri" dastanı bəzi mənbələrdə göstərildiyindən fərqli olaraq iki deyil, bir dastandır, "Aşıq Alı və Əsmər xanım" isə onun variantıdır.

Azərbaycan aşıq sənətinin və poeziyasının inkişafında əvəzsiz xidmətləri olmuş Aşıq Alının zəngin ədəbi irsi az öyrənilmiş, onun yaradıcılığının çox kiçik bir hissəsi nəşr olunmuşdur. Alının hələ nə qədər naməlum əsəri, könüllərdə, ürəklərdə yaşayan, lakin işıq üzü görməyən qoşmaları, təcnisləri, təsnifləri, bayatıları, gəraylıları, ustadnamə və deyişmələri folklor araşdırıcılarının yolunu gözləyir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# GƏRAYLILAR



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**OLDU**

Yar yanında günahkaram,
Doğru sözüm yalan oldu.
Yeriş etdi qəm ləşkəri,
Könlüm şəhri talan oldu.

Bax bu qaşa, bax bu gözə,
Yandı bağrım döndü közə,
Keçən sözü çəkmə üzə,
Keçən keçdi, olan oldu.

Aşıq Alı sənə qurban,
Gəl eyləmə bağrımı qan,
Əldən uçdu tülək tərlan,
Sar da kəklik alan oldu.

**QOYNUNDA-QOYNUNDA**

Ellər köçər, məskən salar
Dağlar qoynunda-qoynunda.
Ana, bala layla deyər,
Çağlar qoynunda-qoynunda.

Yaradanmı qərar qoyub?
Bağrımın başını oyub?
Çoxlarını ağlar qoyub
Dağlar qoynunda-qoynunda.

Alı deyər barlı bağlar;
Yarım görcək yanar, ağlar.
Sinəsini çarpaz dağlar,
Saxlar qoynunda-qoynunda.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## UZAQ YOLLARA-YOLLARA

Badi-səba, ərzim budur,
Dəymə tellərə-tellərə.
Seyraqub gözü tutulub,
Düşsün əllərə-əllərə.

Qarşıdakı sarı laçın,
Fələk qoymur qəddim açım.
Gəl səni götürüm, qaçım
Bizim ellərə-ellərə.

Alı deyər bir gül əkdim,
Gülün çox cəfasın çəkdim.
Qürbət eldə gözüm dikdim
Uzaq yollara-yollara.

## OLMUR

Bizim elin gözəlinin
Camalından doymaq olmur.
Boy-buxunu can alandı,
Ləbləri tək qaymaq olmur.

Əydi budaq bar əlindən,
Dağ zinhardı qar əlindən,
Eşq badəsin yar əlindən
Alsan, yerə qoymaq olmur.

Bir söz dedim yada, qandı.
Bu məkanda qada-qandı,
Sevmək nədi? - Qadağandı;
El-obaya yaymaq olmur.

Aralıyam sirdaşımdan,
Həbibimdi ilk yaşımdan,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Səxa süzür göz-qaşından,
Qeyrisinə uymaq olmur.

Bir əlif yaz, qoy məddini,
Dağıtsan qəmin səddini,
Alı aşdı dərd həddini,
Sana çəkib saymaq olmur.

**DAĞLAR QOYNUNDA-QOYNUNDA**

Tənha qaldı nazlı yarım,
Dağlar qoynunda-qoynunda.
Cüt şamama peymanını,
Bağlar qoynunda-qoynunda.

Peşkəş olmaz nar gələnə,
Meyvə qalmaz qar gələnə.
Amanatı yar gələnə
Saxlar qoynunda-qoynunda.

El yox bizim ellər kimi,
Sadiq siyah tellər kimi,
Yarsız sular-sellər kimi,
Çağlar qoynunda-qoynunda.

Alını yarı şad eylər,
Bir kəs birini ad eylər,
Bülbül gülsüz fəryad eylər,
Bağlar qoynunda-qoynunda.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**YALVARA-YALVARA**

Yad olanda yar peymana,
Qaldım yalvara-yalvara.
Keçən günü xəyalına
Saldım yalvara-yalvara.

Sonaları gölə çəkdim,
Cananımı dilə çəkdim,
Telli sazı zilə çəkdim,
Çaldım yalvara-yalvara.

Bəyaz sinə, şəhla gözü,
Görən kimsə çətin dözü.
Alı deyər bir "hə" sözü
Aldım yalvara-yalvara.

**DÜŞÜBDÜ**

Nədən belə, nazlı yarım,
Dərd ucalıb, dəm düşübdü.
Nalan oldun nədən belə,
Yanağına nəm düşübdü.

Şəhla gözün fənər edim,
Sönən qəlbin yanar edim,
Gətir candan kənar edim,
Can evinə qəm düşübdü.

Gəl baxma Alı oynuna,
Bir əlim salım boynuna,
Birini də al qoynuna,
Ləb, ləb üstə kəm düşübdü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**TƏBRİZ GÖZƏLİ**

Bir mişginab, bir mavəra,
Gördüm Təbriz gözəlini.
Qıya baxdı aldı canım,
Qoydu eşqin təməlini.

Qəmzəsi cismimi yarır,
Gedəndə ruhum aparır,
Duranda qəlbim qoparır,
Baxanda bağrım dəlini.

Xəzan olmaz o tər ləçək,
Boyu bəstə, üzü göyçək.
Görüb cünun oldum gerçək
Dil-dodağı məzəlini.

Şəninə qəsir yaparam,
Nə qüssə, nə qəm taparam.
Fərhad olub dağ çaparam,
Gər ola anam gəlini.

Od qaladı can içində,
Dedi: Alı, yan içində,
Qafil gördüm dan içində,
Deyəmmədim deməlini.

**ÖLÜRƏM**

Əlac eylə dərdimə, gəl,
Mahi-tabanım, ölürəm.
Sinə sədəf, ləbi əsəl,
Şəkər zabanım ölürəm.

Əhvalımın al xəbərin –
Ahım ümman, dərdim dərin.
Cahanda yox bərabərin,
Bilsin cahanım ölürəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Alının çeşmi-çırağı,
Tərk etmir qəlbim fərağı,
Təbiblərdən al sorağı,
Qönçə dahanım, ölürəm.

**OLDU**

Cəfa çəkdim yar yolunda,
Heyif, eşqim hədər oldu.
Yar firqəti üzdü canım,
Ömrüm ah-vay, kədər oldu.

Cəhd eylədi bir neçələr,
Ömrümə hicran seçələr.
Yol verməyin dar küçələr,
Yar atlanıb gedər oldu.

Cüda düşər, keçər dağlar,
Gülsüz qalar bizim bağlar.
Alı tənha qalar, ağlar,
Dərdim dağlar qədər oldu.

**EYLƏSİN**

Peymanında qalan yarı,
Xaliq müdam var eyləsin.
Baxt ulduzu şölələnsin,
Haqqı ona yar eyləsin.

Dağ, dağ olmaz, qarsız ola,
Bağ, bağ olmaz, barsız ola.
Bir gözəl ki, arsız ola,
Dövran onu xar eyləsin.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Zənən bəddisə ərinə,
Məzarın qazdır dərinə;
Qoyma Alının sərinə,
Bu dünyanı dar eyləsin.

**SƏNƏ**

Leylü-nəhar fərağından,
Yetmir naləm bəyəm, sənə?
Ərz etməyə pünhan sözüm
İmkanım yox deyəm sənə.

Elimin tərlan tavarı,
Ömrümün ilkin nubarı,
Qoyma qala intizarı,
Sanma yad kimsəyəm sənə.

Səmanın ayaz sabahı,
Sevən qəlbin yox günahı, -
Olsan Alı səcdəgahı –
Xanəmdə baş əyəm sənə.

**OLDU**

Dəhrdə cəfa əlindən,
Əlif qəddim kaman oldu.
Əhdə bivəfa əlindən,
Hər gün haray, aman oldu.

Şah başında tac yaşadı,
Rəncbər əkdi, ac yaşadı;
Xoş sözə möhtac yaşadı,
Nə insaf, nə iman oldu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Alı sözün dedi üzə,
Kül üfürdü dövran gözə.
Fələk sitəm etdi bizə,
Əhvalımız yaman oldu.

**DÖVRAN**

Eli-elə saldı yadlar,
Matəm oldu elə dövran.
Uydu ağıldan kasadlar,
Düşdü fitnə-felə dövran.

Arif olan, qəmin artdı,
Piran imdaddan kasaddı,
Nə dövrandı, nə həyatdı,
Viran qalsın belə dövran.

Molla, mömün olub ası,
Qur mərəkə, saxla yası.
Cövlan, ötən qəm dəryası,
Qafil düşdü selə dövran.

Güllə atır hər bir naşı,
Oldu qəlbim qəm yoldaşı.
Qopur fəryad addımbaşı,
Dönüb siyah telə dövran.

Alı zəlil, yox hünəri,
Nə fitnədi - var xəbəri.
Qəm-qüssəyə dözmür səri,
Necə etsin elə dövran?!



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**BİRİSİN**

Biri nanu-nəmək tapmaz,
Gəzər qaymaq, bal birisin.
Gah növrəsti növrəst tapar,
Gah da tapar çal birisin.

Tuş olanda əqli kəmə,
Bil, düşərsən dərdi-qəmə;
Özünü zinhar eləmə,
Boşa onu, al birisin.

Bir yaxşını yaman tapdı,
Bir nadanı qanan tapdı,
Bir qananı cavan tapdı, -
Tapdı əhli-hal birisin.

Biri yedi, giryan gəzdi,
Biri tapmaz, hər yan gəzdi,
Biri daim üryan gəzdi,
Qucar tirmə-şal birisin.

Birini mürvət ucaltdı,
Birini qeyrət ucaltdı,
Birini sənət ucaltdı,
Xoşhal etdi mal birisin.

Şadnak gördüm, sonu vaydı,
Ömür gördüm, qışı yaydı,
Gözəl gördüm, hüsnü zaydı,
Gördüm mah-camal birisin.

Aşıq Alı belə yazdı:
Şan-şöhrəti telli sazdı.
Bir rəqib çox, yüz dost azdı,
Demə gözdən sal birisin.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**QAZANAR**

Cəm eyləyib xəsis malı,
Bəhrəsini yad qazanar.
Aqibətdən deyil halı,
Yeməz, içməz, şad qazanar.

Dövran keçsə boran, qarda,
Səxa əhli qalmaz darda.
İnsafsızı görmə varda,
Hörmət əhli ad qazanır.

Dağlar bəlli vüqarından,
Alı qəlbi qubarından,
Ehsan eylər öz varından,
Dəhanında dad qazanar.

**ELLƏRDİ**

Dolananda yad diyarı,
Müdam sorağım ellərdi.
Qəmli qəlbim novbahardı,
Qürurlu dağım ellərdi.

Gül dərdim, gülə bənd oldum,
Bir tuti dilə bənd oldum,
Gəşt etdim, elə bənd oldum,
Eşqim, marağım ellərdi.

Bu Alıyla qada yetə,
Cəm olarlar - səda yetə.
İgidləri dada yetə,
Zağlı yarağım ellərdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# QOŞMALAR



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**SÖZ OLDU**

Fələk mənə cövr eylədi dünyada,
Yaxşı günüm yaman gündən az oldu.
Bəydən nəmər aldım, ağadan ənam,
Müxtəsəri, qazandığım bez oldu.

Mən xabi-qəflətdə yatıb qalmadım,
Nakəs adamlarla ülfət qılmadım.
Mülkə, vara, zərrə tamah salmadım,
Çox gördüm zər-ziba bir gün toz oldu.

Cavanlığım qeybə çıxdı əlimdən,
Həlqə oldu gündən-günə belimdən.
Yaxın, uzaq incimədi dilimdən,
Şükür həqqə, əməllərim düz oldu.

Bir mürğ tək leylü -nəhar hey uçdum,
Bilənlərdən bilmədiyim soruşdum.
Müxənnətlə, bimürvətlə vuruşdum,
Nakəslərin dərdi artıb yüz oldu.

Gəlib gedir yaxşılar da, yaman da,
Qu tükündə, saman üstə yatan da.
Aşıq Alı, nə qazandın cahanda?..
Səndən qalan qatar-qatar söz oldu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**BU GÜN**

Dərs alanlar gəlib məndən dərs alsın,
Sinəmin dəftərin açıram bu gün.
Bir quş idim, dayanmışdım yuvada,
Dövr edib havada uçuram bu gün.

Necə oldu atam, necoldu anam?
Dağıldı hasarım, pozuldu binam.
Yüklənibdir qəflə, qatır, barxanam,
Bu yurddan o yurda köçürəm bu gün.

Aşıq Alı mindi şəcərdən atı,
Oxundu üzümə əcəl baratı.
Qıldan çox nazikdir, qılıncdan iti,
Sırat körpüsündən keçirəm bu gün.

**NƏ QALDI**

Gəşt eylədim, bu dünyanı dolandım,
Əllini aşırdım, yüzə nə qaldı?
Ayaq getdi, əl gətirdi, diş yedi,
Baxmaqdan savayı gözə nə qaldı?

Ölüm haqdı, çıxmaq olmaz əmirdən,
İpək tora halqa salma dəmirdən;
Aydır, gündür gəlib gedir ömürdən,
Tələsirik, görən yaza nə qaldı?

Lənət gəlsin pis arvadın pirinə,
Cəhd eylər ki, ərin sala dərinə.
Yetən söyər mazarratın goruna,
İrəhmət yaxşıya, pisə nə qaldı?

Bilmək olmaz təqdir yazan yazım,
Biri elmin arar, biri nazını.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bilmirəm ömrümün çoxu-azını,
Doxsana yetmişəm, yüzə nə qaldı?

Eşiyə çıxıram, hava məğşuşdu,
Gəzdiyim oylaqlar yadıma düşdü;
Bir gün deyəcəklər Alı da köçdü,
Sındı telli sazı, təzənə qaldı?

**GETDİ**

Ay həzarat, gəlin sizə söyləyim,
Axdı eynim yaşı çay oldu getdi.
Nə ağa, nə nökər, nə bəy, nə paşa,
Hamsı bir-birinə tay oldu getdi.

Kimi ay qabağa cığa tel düzər,
Kimi qaş altından gözlərin süzər.
Kimi yeyib, içib, sallanıb gəzər,
Kiminin axırı vay oldu getdi.

Aşıq Alı, dərdi canda saxlaram,
Bağrım başın çalın-çarpaz dağlaram,
Gecə-gündüz nalə çəkib ağlaram,
Hayıf, gözlərimə zay oldu getdi.

**DÜŞƏR**

Ərzəyin yaylağı, Gözəl oylağı,
Bir zaman yadıma Başdıbel düşər.
Ovqanın yaylağı, Şahmar bulağı,
Ağmanqal, Mıxtökən, Alagöl düşər.

Yaxşı olar bu dağların havası,
Yaylamağa gəlir gözəllər xası.
Zərzibil, Daşkörpü, Gəlin qayası,
İstisudan bəri bizim el düşər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ləli-gövhər bu dağların tayıdı,
Xublar gəlib orda yaylar, qayıdı.
Bərkimin, Ağrının, Arpa çayıdı,
Bir zaman ellərə gəlhagəl düşər.

Zülm əlindən köçürdülər bineyi.
Tik pilləkəndədir köçün ileyi.
Qaraxal, Ağ manqal, Dəniz Güneyi
Qalxıb qonar ellər, Cada yol düşər.

Alı söylər yarın qaşı gözündən,
Dindirəndə dür tökülər sözündən,
Uçdu könlüm quşu dağlar gəzindən,
Ay qabaq üstündən siyah tel düşər.

**İÇƏCƏK**

Qoca dünya çoxun yola salıbdı,
Köçən köçüb, köçməyənlər köçəcək.
Qafil, içmə bu gün əcəl şərabın,
İçən içib, içməyənlər içəcək.

Necoldu var üçün qanlar tökənlər?
Əziz canın al qumaşa bükənlər,
Unutmasın şərmü-xəta əkənlər,
Biçən biçib, biçməyənlər biçəcək.

Yazıq Alı, nə tez düşdün həvəsdən,
Sərraf olan seçər qızılı misdən,
Arif olan kəslər, yaxşını pisdən
Seçən seçib, seçməyənlər seçəcək.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**BİLMƏZ**

Çoxu aşıqlığa iqdam eylədi,
Əlində çaldığı saz ola bilməz.
İstəyir ki, matahım xırd edə,
Hərifi dəhanda düz ola bilməz.

Qulluq eyləməyən ustad pirinə
Nədən bilməm özün salar dərinə?!
Ala qarğa düşsə su kəmərinə,
Silkinər, çalxanar, qaz ola bilməz.

Göyçə mahalımdı, Alıdır adım;
Ümidim, pənahım, mənim imdadım.
Atəşliyəm, səni yandırar odum,
Eşq əhlində atəş az ola bilməz.

**OLMADI**

Nə həkim, nə loğman, nə cərrah qaldı,
Mənim bu dərdimi bilən olmadı.
Qohumdan, qardaşdan, dost-müsahibdən,
Bağlandı yolları, gələn olmadı.

Alçaqlı-ucalı dağlar görmüşəm,
Süsənli, sünbüllü bağlar görmüşəm,
Dünyaya gələni ağlar görmüşəm,
Dili deyib, üzü gülən olmadı.

Görüm xarab olsun belə zamana,
Dərdü-möhnət məni gətdi amana,
Axdı eynim yaşı döndü ümmana,
Ağlar Aşıq Alı, silən olmadı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**DOLANDIRIR**

Ay ağalar, gəlin sizə söyləyim,
Yəqin bu dünyanı pul dolandırır.
Kəsilib məhəbbət, qalmayıb hörmət,
Dövlətli dalınca mal dolandırır.

O dünyanın şərbətindən içməyən,
Körpü salıb üstən karvan keçməyən,
Evdə arvadına sözü keçməyən,
Kənddə köyxa olub el dolandırır.

Aşıq Alı, halın oldu pərişan,
Ağ üzündə xalları var hər nişan,
Binamus qohumdan, namuslu düşman
Öldürsə, qəbrimdə gül dolandırır.

**KEÇDİ**

Ötüşdü zimistan, gəldi nobahar,
Yetirdi qərinə, sənələr keçdi.
Dəli könül gündə yüz xəyal eylər,
Dolandı ruzigar, havalar keçdi.

Mən sana nə deyim, ey şahi-şonqar,
Ağlımı apardı bir çeşmi-xumar.
Könlümə olmadı bir münasib yar,
Gəldi məlakələr, sonalar keçdi.

Yazıq Alı, pürğəm səni bürüdü,
Eynim yaşı sel-sel oldu, yeridi.
Qürbət eldə yazıq canım çürüdü,
Neçə çərşənbələr, cumalar keçdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**DEDİ**

Bir nişan istədim gülüzlü yardan,
Dirsəyin göstərdi: alısan, - dedi.
Dedim: ay qız, köçdüm, sənnən əl çəkdim,
Əlbət bir yadına salısan, - dedi.

Dedim: ay bəxtəvər, bu nə büsatdı?
Dedi: nəzər eylə, gör nə sifətdi.
Dedim: çeşmim yaşı yeri islatdı,
Verrəm dəsmalımı, silisən, - dedi.

Dedim: ay qız, qəmnən dəftər bağlaram,
Dedi: baxma nişanını saxlaram.
Dedim: həsrətindən, ilnən ağlaram,
Qorxma, yaxın vaxtda gülüsən, - dedi.

Dedim: ay qız, nə gözəldir şamama,
Dedi: dərmə, ömrün yetər tamama.
Dedim: ay qız, əl uzadım butama,
Özünü nüfuzdan salısan, - dedi.

Dedim: xəstələrin can dərmanısan,
Dedi: aşiqlərin kərəm kanısan.
Dedim: ay qız, mənim adım tanısan,
Əzəldən bilirəm Alısan, - dedi.

**BƏNZƏRSƏN**

Süsənli, sünbüllü, tər bənövşəli,
Yaylaq, bizim yaylaqlara bənzərsən.
İçən ölməz sənin kövsər suyundan,
Bulaq, bizim bulaqlara bənzərsən.

Əyricə, Verst dağı, Xankirt baxarı,
Ağ sürülər Sarıyaldan yuxarı.
Gözəllər seyr elər o oylaqları,
Oylaq, bizim oylaqlara bənzərsən.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Cənnət olur bizim yerin bu çağı,
Ağ lavaşı, kərə yağı, qaymağı,
Qızlar dəstələnib gəzər oylağı
Oylaq, bizim oylaqlara bənzərsən.

Aşıq Alı deyər, üç gözəl dərə:
Çiçəkli, Şaqaylı, Xoş gözəl dərə,
Əyricə, Verst dağı, Baş Gözəldərə,
Üç dağ, bizim üç dağlara bənzərsən.

**QIZLARIN**

Axşamdan yağan qar yağdı, bağladı;
Kəsildi bulaqdan yolu qızların.
Səhər tezdən çeşmə üstə varanda
Üşüyər ayağı, eli qızların.

Səhəngin doldurub qoyar görkəndə,
Nə ki gözəllər var yığılıb kəndə.
Kəmərin bağlayıb gərdən çəkəndə
Əyrəmçədən keçər beli qızların.

Aşıq Alı vəsfin söyləyər saza,
Həmişə müştaqdır şahin şahbaza,
Başlayanda kəklik kimi avaza
Şəkərdən şirindir dili qızların.

**KÖNÜL**

Bahar fəsli, yaz ayları gələndə,
Uca sərt dağlardan qar istər könül.
Gözəllər sallanıb sıra vuranda
Xəstəyəm, onlardan nar istər könül.

Bu dünyada mərdimazar çox olub,
Mərd iyidin gözü, könlü tox olub.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qonşu yox istəyən özü yox olub,
Onunçün elləri var istər könül.

Mən gələli xeyli qəddin ucalıb,
Sənin dərdin məni çöllərə salıb,
Fikr etmə ki, Aşıq Alı qocalıb –
Gen tuman, çəpgəni dar istər könül.

**SƏNİN**

Bahar-yazda qızılgüllər açılır,
Behiştə bənzəyir bu bağın sənin.
Uzaqdan eşidib səsin anladım,
Çıxıbdır hər yana sorağın sənin.

Oğrun-oğrun daldalardan baxarsan,
Gərdəninə həmayıllar taxarsan,
Durna kimi seyrangaha çıxarsan,
Hərdən ətir verir buxağın sənin.

İnnabı ləblərin şərbəti-loğman,
Gəzdir, dərdlilərə sən eylə dərman.
Bir zaman gəlmişdim mən sizə mehman,
Bəzənmiş al-yaşıl otağın sənin.

Siyah zülfün dal gərdənə dolaşır,
Xırda qızlar sağ-solunda boylaşır,
Gülgəz bədən ağ libasa yaraşır,
Aləmi yandırır fərağın sənin.

Alı deyər: gördüm dünya ləzzətin,
Bu sazın, söhbətin, xoş hekayətin,
İzzətin, şövkətin, bu mərifətin
Hər yerdə söyləyər dodağın sənin.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**AĞRI DAĞI**

Havalanıb ərş üzünə qalxıbsan,
Dağların sultanı nər Ağrı dağı.
Payızın, baharın olub zimistan,
Səndən əskik olmaz qar, Ağrı dağı.

Ətəyində xan atlanar, xan düşər,
Ləşkər vurar mahallara qan düşər.
Hər dağdan irəli sənə gün düşər,
Səhər ağaranda dan, Ağrı dağı.

Səkkiz irzivandır cənnətin bağı,
Neçə qapısı var, neçə otağı.
Nuh gəmisi, peyğəmbərin bulağı,
Səndə hər nişanə var, Ağrı dağı.

Aşıq Alı insanatın sirridi,
Tozun qalxıb İrəvanı bürüdü.
Axşam üstü bir tərəfin yeridi,
Basdın Axuranı pir Ağrı dağı.

**İNCİMƏSİN**

Dedim, könül, nə düşübsən həvəsdən,
Şamama dərərəm, tağ inciməsin.
Bu fani dünyadan bir köç eylərəm,
Aran qəmgin olub, dağ inciməsin.

Bağban oldum öz könlümün bağına,
Təbib dərman edə sinəm dağına.
Uçurdum bülbülü dostun bağına,
Oxusun bülbüllər, bağ inciməsin.

Alıyam, gileyim nadan əlindən,
Yarımçıq qalandan, nadan əlindən,
Bir güldür, almışam nadan əlindən,
Yarpaq titrəməsin, şax inciməsin.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**GEDƏK**

Qohum-qardaş yenə düşdü yadıma,
Dedim könül bir səfərim var, gedək.
Heç görmədim əhdə peyman olanı,
Nadan qurdu tərlan üçün tor, gedək.

Onu gördüm atdım dərdi, vərəmi,
Mübarək dəstindən aldım salamı,
Götürdüm əlimə dəftər-qələmi,
Könlüm istər o dağlardan qar, gedək.

Alı təkdi, qürbət eldə dolanır,
Oğrun-oğrun yar oduna qalanır,
Ağ əllərə toy xınası bulanır,
Xoryad üzdü güllü bağdan nar, gedək.

**OLMADI**

Bayram oldu küllü aləm bəzəndi,
Heç mənim halımı bilən olmadı.
Dost dostu çağırdı, qohum qohumu,
Mən qəribi yada salan olmadı.

Al geydi sallandı xublar dəstəsi,
Kəklik tək dağlara düşdü sədası,
Hicran xəstəsiyəm, qəm şikəstəsi,
Heç yanıma gedib gələn olmadı.

Kimi dostnan gəzdi, kimi yoldaşnan,
Aşıq Alı qaldı gözü qan-yaşnan,
Analar oğulnan, bacı qardaşnan...
Heç mənim halıma qalan olmadı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**GƏRƏK**

Yaxşı yerdə düşdün mənim cəngimə,
Cəngimdən çıxmağa bir hünər gərək.
Maya dura bilmoz nər qabağında,
Meydana girməyə nərə nər gərək.

Saxla dilin, özün üçün qadağa,
Əlimdən gedərsən arana, dağa.
Şahin kimi göydə qanad açmağa,
Havada süzməyə balü-pər gərək.

Camalın şövqündən dilim oldu təng,
Çayda balıq olar, dəryada nəhəng.
Mahalım Göyçədi, kəndim Qızılvəng,
Aşıq Alı birdir, birə-bir gərək.

**DEYİNƏN**

Qasid, gedər olsan bizim ellərə,
Bu naməni o canana deyinən.
Qohum-qardaş, dost-müsahib olanlar,
Göz dikməsin başqa yana deyinən.

Durub o yollara varandan sonra,
Sən bizim elləri görəndən sonra,
Bu dilsiz naməni verəndən sonra,
Dilcavabı yana-yana deyinən.

Bülbüləm qonmaram qeyri güllərə,
Yarım el verməsin özgə əllərə,
Aşıq Alı düşdü tozlu yollara,
Yolum düşdü Alosmana deyinən.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**YADIMA DÜŞDÜ**

Nə qədər dolandım Turan elini
Yenə öz torpağım yadıma düşdü.
Sarınər yaylağı, Göyçə mahalı,
Öz gözəl oylağım yadıma düşdü.

Gəlib xəyalımdan keçdi o çağlar,
Yay fəsli atlanıb gələn qonaqlar.
O güllü, çiçəkli alışan dağlar,
O Qiblə bulağım yadıma düşdü.

Qızıl dağı, Məciddinin oylağı,
Doğma yurdun doğma odu, ocağı.
Alının köksündə hicranın dağı,
O qaymaq dodağım yadıma düşdü.

**KOR AŞIQ ALI**

Çəkmə xəcaləti, unutma arı,
Saxla bu sinədə ar, Aşıq Alı.
Bir zaman aqildim başda əyləşən,
İndi də ayaqda kor Aşıq Alı.

Bədəsil şəyirdlər çəkibdir dağı,
Yetirdim peyvəsti, bəslədim bağı.
Ömrümün, günümün soldu növrağı,
Nə saz oldu, nə də tar, Aşıq Alı.

Bəlkə də beləymiş yazım əzəldən,
Qəm yedim aşnadan, yardan, gözəldən.
Tülək tərlan kimi uçmuşam əldən,
Qismətim ah-aman, zar, Aşıq Alı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**YAVAŞ-YAVAŞ**

Möhnəti-zəmanə, fani dünyada,
Yol tutub dağlara gəl yavaş-yavaş.
Kərəm də Əslinin dərdini çəkdi,
Əsli də deyirdi gül yavaş-yavaş.

Bəzirganam matahım var, alan yox.
Ürəyimdə atəşim var, yanan yox.
Dərd əhlidir, əhli-dildən qanan yox,
Ürək coşar, deyər dil yavaş-yavaş.

Rüstəm qəhrəmanı, Zalı deyirəm,
Səxavətdə Hatəm kanı deyirəm,
Deyər Aşıq Alı, anı deyirəm,
Düşəcək qorxuya, bil, yavaş-yavaş.

**DEYİRƏM**

Mənim dostum, keçən günü yada sal,
Sən gəlginən bizim elə deyirəm.
Bir gün olar tərəqqidən düşərsən,
Uğrayarsan tənəzzülə deyirəm.

Gedər cavanlığın, düşkün olarsan,
Tayından-tuşundan seçkin olarsan,
Lalə kimi səhralarda qalarsan,
Eşit nəsihətim, üzə deyirəm.

Alının yanında heç olmaz sözün,
Cırılar ipəyin, tərk olar bezin,
Daldadan baxmaqdan soğular gözün,
Yandırma kababı, közə deyirəm.



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

**VƏTƏNİMDƏ**

Könül tələb edir, ürək atlanır,
Gəşt eylə, dünyanı gəz vətənimdə.
Zəhmət çəkən bu dərdlərə qatlanır,
Coşur ürəyimdə söz, vətənimdə.

Qürbət vətəndəyəm, bilinməz yurdum,
Həkimlər, loğmanlar bilmirlər dərdim.
Alagöl yaylağı, vəfalı yurdum,
Alırdım əlimə saz vətənimdə.

Alıyam, söz deyib, yaza bilmərəm,
Şad olub, qürbətdə gəzə bilmərəm,
Hərcayı sözlərə dözə bilmərəm,
Alışsam, yanmaram öz vətənimdə.

**TƏK-TƏK**

Bir şəyird ki, ustadına kəm baxar,
Mövlam etsin ona nasağı tək-tək.
Qohumdan xəcalət, eldən şərməndə,
Dili cüda etsin uzağı tək-tək.

Qətrəsi xəyatı, bədəni dürdən,
Xudam xəlq eyləyib bir qətrə nurdan.
Fincanlar bəzənib ləli-gövhərdən
Qaynayır zülaldan bulağı tək-tək.

Aşıq Alı eylər canı sadağa,
Neçə min məleykə dönmədi bağa,
Behiştin meyvəsi başdan-ayağa
Yetişdi Səncərin budağı tək-tək.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**GÖRMƏDİM**

Viranə bağlara mən oldum bağban,
Almasın, heyvasın, narın görmədim.
Bivəfa sözündən çox cəfa çəkdim,
Bəslədim budağın, barın görmədim.

Vəfasız fələkdə etibar olmaz,
Ağlayan kimsədə giridar olmaz,
Hər sevən kimsədə düz ilqar olmaz,
Çoxu çox danışdı, karın görmədim.

Alıyam, mətləbim veribdi xudam,
Bütün ölkələrə yayılıb sədam.
Hərcayı gözəli məhv olsun tamam,
Namusun, qeyrətin, arın görmədim.

**BAX**

Bu dünyanı mən tərcümə eylədim,
Bu çərxi-gərdişin yollarına bax.
Satıcılar yalan yerə and içir,
Ortada oynayan dillərinə bax.

İnanmayın boyaqçının dilinə,
Cövhər, aşqar - yaman qatır lilinə.
Baxmayın hacınm yoğun şalına,
Gedib evlərində günlərinə bax.

Dövlətlilər əzrayılsız can alır,
Pulun sələminə ot, saman alır,
Əvvəlcə beş verib, sonra on alır,
Qiyamət günündə hallarına bax.

Bənnalar da divar çəkir hər yana,
Axşamacan danışırlar əfsana.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nəccarlardan var yaxşısı bir dənə, -
Zoddu İbrahimin kamalına bax.

Əllaf ilə baqqal nə işlər görür?..
Haqqını düz alıb yarımçıq verir.
Bir arşında yarım çərək qol vurur,
Sən onların fəndi-fellərinə bax.

Gör neyləyir qalayçıyla, dəmirçi,
Xalqın evin yıxdı papaqçı, kürkçü.
Arvadları soyur pinəçi, çərçi,
Sövdadakı qilü-qallarına bax.

Nalbənd də çəkici çox döyür nala,
Tayı düz almamış salmayır yola.
Tez-tez mıxa çalır, haqqı bol ola
Üzünə tüpürür, yallarına bax.

Dəyirmançı neylər, söyləyim sənə,
On yol şahad alıb doymayır yenə.
Altından ling qoyur, üstdən dəndanə,
Qabaqdan paylayır, dallarına bax.

Pirim Şahi-Mərdan, Heydəri-kərrar
Dadıma yetişsin Əhmədi-muxtar.
Aşıq Alı üzü qara günahkar,
Cəhənnəm odunun küllərinə bax.

**İSTƏRƏM**

Elçi bəylər, xətrin məndən qalmasın,
Bu adətlə elin işin istərəm.
Əbrudan, atlasdan, ipəkdən, şaldan,
Xara parçaların başın istərəm.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gətir başlığına üççə min manat,
Üç qızıl bilərzik, bir qızıl saat.
Bircə "hə" sözünə iki köhlən at,
İpək heybə, yəhər qaşın istərəm.

İki dəvə gətir yanında köşək,
Gələn töhfələr də olduqca qəşəng.
Ətliyinə gətir 25 şişək,
Kabab çəkmək üçün leşin istərəm.

Put yarım çay gətir, iki put şəkər
Samavar qaynasın hər axşam, səhər.
On beş gün kef çəkək burda sərasər,
Qısır inək səndən beşin istərəm.

Mən Alıyam budur sözümün yeyi,
Çağırram toyuma rəyyəti, bəyi.
On beş put yağ gətir, qırx beş put düyü,
El yeməyə əppək, aşın istərəm.

**BƏSDİ**

Sən şəms, mən kənarında sitarə,
Rüsxət ver sərinə dolanım, Bəsdi.
Can fəda eylərəm, ey mahiparə,
Budur sərmayədən olanım, Bəsdi.

Kərəməm, Əslisiz giryan neylərəm?
Məcnunam, dəştidə üryan neylərəm?
Nainsaf, halıma bir yan, neylərəm?
Sənsən canı verib, alanım, Bəsdi.

İqbalım dadıma yetmədi bir an,
Sitəmindən oldu can evi viran,
İstərsən gəzərəm İranı, Turan
Qürbət diyarlara yollanım, Bəsdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Umma mərhəməti qəni daradan,
Əgər sevirsənsə çıxaq aradan.
Kərəm hasil olar nadir çaradan,
Tərsinə odlara qalanım, Bəsdi.

Dəhri-cəfə çoxlarını tovladı,
Uydu baban rəsulları qovladı,
Alı sənlə bir diyarın övladı,
Qoyma yad ellərə calanım, Bəsdi.

**OLA BİLMƏZ**

Gözəllər şahıdı nazlı nigarım,
Heç kim bu Bəsdiyə tay ola bilməz.
Xilqətinə xudasından verilən,
Bundan qeyrə cəlil pay ola bilməz.

Buğdayıya qara dedin, a zalım!
Bir an görməyəndə pozulur halım.
Odu pəri nisbət şəmsi-camalım,
Nisbətinə ulduz, ay ola bilməz.

Şəms oldum aləmə aqil sözümlə,
Ucalmışam, cəfalara dözümlə.
Nainsaf, seyr eylə yarı gözümlə,
Hilal qaşı kimi yay ola bilməz.

Kənaram qüssədən başdan-binadan,
Cəlil xilqət törər cəmil anadan.
Alı gövhər sərrafıdı, a nadan,
İnşallah, cəfası zay ola bilməz.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**YETİŞDİM**

Min cövrü-cəfayla yarıma çatdım,
Ömrümə nəqş olan sana yetişdim.
İqbalımı xab evindən oyatdım,
Vəsli-yarla bir zamana yetişdim.

İlqarına sadiq yarıma əhsən,
Yaraşır şəninə yüz dastan desən.
Hicran anlarıydı ömürdən kəsən,
Vəsli-yarla mən amana yetişdim.

Sərvi qəddi, gül camalı tamaşa,
Şəhla göz yaraşır o hilal qaşa.
Təkrarsız xəlq olub ayaqdan başa,
Kamallı kamilə cana yetişdim.

Bəstidi Alının həyat növrağı,
Bəyaz sinəsidi cənnətin bağı,
Açıldı üzümə vüsal otağı,
Sanki taxtı-Süleymana yetişdim.

**GƏTİRMƏ**

Məcnunun məskəni səri-kuy olar,
Səcdəgaha sən divana gətirmə.
Əhdə vəfalıyam, peymana mərdəm,
Min bəhanə qaibana gətirmə.

Əl götürməz gözüm gözlə savaşdan,
Geyin əndamına aldan, qumaşdan.
Bir seyrə çıx laləzarı o başdan,
Pünhan gəzib, məni cana gətirmə.

Tənə gəlməz pərvanəyə yanmaqdan,
Al canımı, qurtar məni dannaqdan.
Sədaqətdə Alı çıxıb sınaqdan,
Əbəs yerə imtahana gətirmə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**GEDİRƏM**

Çox-çox salam-dua qohum, qardaşa,
Biləsiniz Alosmana gedirəm.
Bir mətləb istədim şahlar şahınnan,
Sığınmışam o sübhana, gedirəm.

Sinəmdə alışır qəmim, ataşım.
Düşəndə yadıma dostum, sirdaşım.
Yolumu gözləsin yarım, yoldaşım,
Sizə verib bir nişanə gedirəm.

Aşıq Alı gəzir İrannan Turan,
Mənim uğuruma açıxdı hər yan.
Mənə sirdaş olub Aşıq Duraxan,
Yoldaş olub gövhər-kana gedirəm.

**KÖNÜL**

Bəd gəldi ruzigar, döndü zamana,
Baxmaynan yaxşıya, yamana, könül,
O vaxt bənna idin bürc hasarında,
İndi də yatıbsan nə xanə, könül?

Kəsildi məhəbbət, hörmət azaldı,
Uşaq da, böyüklə üzbəüz oldu,
Tərk oldu mərd iyid, qurğu pozuldu,
Zaya getdi ilqar kamana, könül.

Hanı ağ sürülər, daşqınlı sellər,
Əcəb tamaşalı sonalı göllər!
Səddi qəhrəmana bənzəyən ellər,
Qərq oldu dəryaya, ümmana, könül.



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

**BİLİNMƏZ**

Ay ağalar, gəlin sizə söyləyim,
Nanəcibin düz ilqarı bilinməz.
Xəsis gec-tez öz varını itirər,
Onun namus, qeyrət, an bilinməz.

Can yanmasa gözdən axan yaş olmaz,
Qohum-qardaş çətin vaxtı yad olmaz,
Dostu büdrəyənin qəlbi şad olmaz,
Kisəvar insanın varı bilinməz.

Dostumun dostuna sayıl olmuşam,
Təmiz gözəllərə mayıl olmuşam,
Çəkdiyim zillətə qayıl olmuşam,
Bivəfa gözəlin yan bilinməz.

Mən istərəm gözəlləri şad olsun,
Dodaq nazik, incə belli, dad olsun,
Xoşxasiyət, gülər üzlü, ad olsun,
Əl uzatsan onun narı bilinməz.

Aşıq Alı, hər cəfaya dözübsən,
Həm ucanı, həm alçağı görübsən,
Bu fani dünyadan əlin üzübsən
Fələk bivəfadı, barı bilinməz.

**DÜŞƏRSƏN**

Kəndin laf eyliyib aşığam demə,
Sən də olar bir gün dara düşərsən,
Nə gəzirsən çöl-biyaban, səhrada?
Dağlarda borana, qara düşərsən.

Gəl özün özünə verməginən boy,
Özgə qabınnan ye, öz qabınnan doy.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qırxıb yal-quyruğun eylərəm bir day,
Yal-quyruğu qırxıq hara düşərsən.
Ustadam, Alıyam, tanısan məni,
Dürün mədəniyəm, gövhərin kanı,
Bir kərə götürüb ataram səni,
Gedib cəhənnəmdə nara düşərsən.

**GÖZƏLDİ**

Gözəllər səfinə səcdə eylərəm,
Cümlədən birisi necə gözəldir.
İltimas eylərəm rübəndin ata,
Mahi-münəvvərsə, gecə gözəldi.

Boyu sürahidi, özü baxtavar,
Tapmazsan tayını aləmi axtar.
Peymanda yarandı faili-muxtar,
Yaxşını-yamandan seçə, gözəldi.

Viran etmə könlü, savabdı hörsən,
Yarım Alının gözüylə görsən.
And-aman içənə özün deyərsən,
Yanında Züleyxa, bica gözəldi.

**VERMƏRƏM SƏNİ**

Başına döndüyüm, a nazlı dilbər,
Cismidə min cana verməərəm səni.
Aləmin malını cəm eyləsələr,
Çəksələr bir yana verməərəm səni.

Boyun sürahıdi, əndamın şüşə,
Sorağın mahaldan-mahala düşə,
Fərhada, Şirinə yüz möhlət keçə,
Behişti-qılmana verməərəm səni.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dağlarda maralsan, düzlərdə ceyran,
Dərələz, Naxçıvan boyuna heyran.
Nə Gəncə, Qarabağ, Şamaxı-Şirvan,
Küllü-Gürcüstana verməzəm səni.

İqbalda Sənanı, Xumarı seçək,
Peymanda Kərəmi, Əslini seçək.
İmana, ilqara bahəm and içək,
Taxtı-Süleymana verməzəm səni.

Alı qurban o qamətə, o boya,
Baxdıqca çöhrəndən çətin ki, doya.
Tehrana, Təbrizə, Mərəndə, Xoya,
Tamam ol İrana verməzəm səni.

**DÜŞMÜŞƏM**

Əziz mehribanım, gözümün nuru
Beyqəfildən bir balaya düşmüşəm.
Qəza yazdı, qədər gördü işini,
Alışıb ataşa, nara düşmüşəm.

İtirdim irahı, gəzdim düzünü,
Mən görmüşəm nainsafın yüzünü,
Gəl sənə söylüyüm sözün düzünü,
Ah çəkibən ahu-zara düşmüşəm.

Alıyam, sərimnən gedib xəyalım,
Nə loğman tapmadım, nə də ki, alim,
Mən sənə neylədim, a qəddar zalım,
Məcnun olub dağa, daşa düşmüşəm?



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

**BƏSDİ**

Nabina eynimə nəzər eyləyib,
Duyuram, ahəstə ağlama, Bəsdi.
Çarəsiz dərdimə çarə olmadı,
Yas tutub qaralar bağlama, Bəsdi.

Nadan olub, fərəh umma fələkdən,
Al əhlidi, əl götürməz kələkdən,
Kənar etdi məni arzu-diləkdən,
Dağ üstən sinəmi dağlama, Bəsdi.

Alı bülbül oldu, dünya - qəfəsi,
Çərxi-cəfadardan kəsilər səsi,
Zənguledə yerin verməz özgəsi,
Daşqın çaylar kimi çağlama, Bəsdi.

**MƏNİM**

Dost-həmdəmim yetən kimi vətənə,
Gör bir gözləyirmi yolum yar mənim?
Söylə o canana qoy inciməsin,
Yolumu tutubdu boran, qar mənim.

Yerim pünhan, yurdum pünhan, qərib mən,
Didərgin düşmüşəm nə vaxtdır seldən.
Dərdimi özün de, göz yaşım eldən,
Sinəmə dağ çəkib yağılar mənim.

Hicran dəryasında üz, Aşıq Alı,
Bu da bir səfərdi gəz, Aşıq Alı,
Fələyin qəhridi döz, Aşıq Alı,
Vaxt olar möhnətim dağılar mənim.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**İTİBDİ**

Bülbül fəğan eylər hey gələr səsi,
Güllər solub, o bağbanlar itibdi.
Oxuyub qumru tək kəklik ləhcəli,
Mən gördüyüm nər cavanlar itibdi.

Oxumamış mən əbcədi bilirəm,
Dərya kimi təlatümə gəlirəm,
Bey peyğəmbər, əlif Allah qanıram,
Dil tərk olub, yol-ərkanlar itibdi.

Göydə bir quş vardı adı dolaşıq,
Nitqi yoxdu, sözün söylər dolaşıq,
Hər saz çalan deyir: mənəm də aşıq,
Alı kimi çox insanlar itibdi.

**AY İLƏ-İLƏ**
(*dodaqdəyməz*)

Səhər çağı səyyad gəzər səhrada,
İllər ayrısıdır, nazlı yar gələ.
Qəza-qədərindən, ay yazıq ana,
Qalarsan intizar ay ilə-ilə.

Yetişcəyin nazlı yarın yanına,
İstəyər ki, qanın qatsın qanına,
Naşı səyyad gəlsə tərlan yanına,
Tez çaşar xəyalı ay ilə-ilə.

Aşıq Alı, dastan eylə dilində,
Həyatında, sənətində əlində.
Qəza gəlsə səni alsa əlində
Dil aşkar eyləyər ay ilə-ilə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**AY EYLƏR QIJ-QIJ**
(*dodaqdəyməz*)

Yağar leysan, dağlar qarı əridər,
Sel gələr dərədən ay eylər qıj-qıj.
Çaylar axar sellər, selə qarışar,
Səslənər, çağlayar ay eylər qıj-qıj.

Leylinin sinəsi ha qaşa dəyər,
Aşığın sinəsi ataşa dəyər,
Daşar sellər, sular ha daşa dəyər,
Qayalar dil açar ay eylər qıj-qıj.

Alı deyər sel gətirər lil qalar,
Axar Araz, dalğalanar, lil qalar,
Yel əsəndə dəryalarda dalğalar
Çalxanar, qaynayar, ay eylər qıj-qıj.

**KEÇİBDİ**

Dağlar sinəsindən, yaylaq yolundan,
Neçə-neçə pasibanlar keçibdi.
Arxada ləşkəri, başında əyan,
Neçə sultan, neçə xanlar keçibdi.

Ən uca zirvədi dağların başı,
Heç kəs aparmadı zəri, daş-qaşı.
Gələnin, gedənin neçədi yaşı,
Neçə illər, nə zamanlar keçibdi.

Çox fatehlər burdan salıb izini,
İsgəndərdən bəri sayım yüzünü.
Çox aqillər burda deyib sözünü,
Nə cah-calal, nə insanlar keçibdi.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məğribdən məşriqə hökүm verənlər,
Gəldi-getdi Merac evin görənlər.
Neçə həbibullah, neçə ərənlər,
Neçə-neçə Süleymanlar keçibdi.

Səhərin sübhündə səba yelində,
Niqabı üzündə, yaqut telində,
Köhlən at döşündə, naqan belində,
Bəyaz buxaq necə canlar keçibdi.

Loğman köçdü ehtiyacı dərmanda,
Ər oğlu ər gördüm başı fərmanda.
Cəng eylədi səri qaldı meydanda,
Dadi-fəryad, ah-amanlar keçibdi.

Açıldı neçəsi, soldu neçəsi,
Boşaldı neçəsi, doldu neçəsi,
Qan eylədi qanlı qaldı neçəsi,
Alınmamış neçə qanlar keçibdi.

Şamınan köçəni səhər görmüşəm,
Neçə zülüm, neçə qəhər görmüşəm,
Neçə diyar, neçə şəhər görmüşəm,
Aşıq Alı biyabanlar keçibdi.

**EYLƏMƏ**

Vüsalını hər il yubatdın, ey dil,
Zülmü yara, çeşmi-çıraq eyləmə.
İlqarımda xəlil, kalamım dəlil,
Arama pəjmürdə varaq eyləmə.

Əhvalındı dəmli, dolan həmdəmli,
Ləbindi məlhəmli, əqlin ələmli,
Gözlərim də nəmli, rüzgarım qəmli,
Mah camalın məndən iraq eyləmə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gözəllərin xam, dövran sultanı,
Kəramətin kanı, etmə üsyanı,
Tərk edib məkanı, tutaram kanı,
Bihudə arama, soraq eyləmə.

Diyarım xanımı, alma canımı,
Sevənin zalımı, gör imanımı,
Alıb kamanımı, axıt qanımı,
Mərhəmətin məndən uzaq eyləmə.

Sən ey hilal qaşlı, Alı sirdaşdı,
Qəm həddini aşdı, huşum dolaşdı.
Məramın araşdı, bu nə talaşdı,
Ömrümü qəm-qüssə, fəraq eyləmə.

**BƏSDİ**

Cana gəldim bu hicrandan, hicrətdən,
Nəhayət, son həddə çatmışam,
Bəsdi. Əl-aman eylərəm səfil dövrandan,
O qürbət güzarı atmışam, Bəsdi.

Bəşər deyil, məlakəsən surətdən,
Nə incidin, nə usandın firqətdən,
Xəyalda görürdüm səni qürbətdən,
Gecəni gündüzə qatmışam, Bəsdi.

Əməlimdə var peymana dəlalət,
Sən məndən sadiqsən, ey mahi tələt,
Yubandım, yanında qaldım xəcalət,
Nə dincəlib, nə də yatmışam, Bəsdi.

Ara qəlb evini, aşikar baxın,
Sədaqət ləşkəri eylədi axın.
Ara uzaq oldu, könülsə yaxın,
Sanki günahlara batmışam, Bəsdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Alının iqbalı yeyindi, yeyin,
Yoxdur qəm-qüssəsi, aləmə deyin.
Eşitməyim nazlı yarın gileyin,
Dəm alıb qəmləri satmışam, Bəsdi.

**BİLİN SİZ**

Qohum-qardaş, dost-müsahib yanında,
Günahkaram, günahkara bilin siz.
Bülbül fəğan eylər öz gülşənində,
Qızılgül həmdəmdi xara bilin siz.

Sinəm yara oldu dağı-düyündən,
Könlüm ayrılmadı öz miskinindən.
Kişi də dönərmi öz dediyindən?
Sinəm oldu para-para bilin siz.

Aşıq Alı deyər sözün aşkara,
Heç vaxt güvənmədim dövlətə-vara.
Düz oldum dostluğa, əhdə, ilqara,
Mənim bu dərdimə çara bilin siz.

**GÖRMÜŞƏM**

Qəriblikdə gəzdim diyarbadiyar,
Əzəl-əvvəl İrəvanı görmüşəm.
Ürəyimdə min bir dürlü dərdim var,
Araz kimi nur ümmanı görmüşəm.

Türkiyədən keçdim Sarıqamışa,
Ərzurumdan aşdım yetişdim Muşa,
Türkiyəni gəzdim mən başdan-başa,
Həm yaxşını, həm yamanı görmüşəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yaxşılıq edənə eylik dedilər,
Yamanlıq edənə kötlük dedilər.
Orda bir şəhərə bəylik dedilər,
Qarsı gəzib, Qağızmanı görmüşəm.

Deyər sözlərini bu Aşıq Alı,
Mən fağır olmuşam başı bəlalı.
Hər yerdə dərd çəkib olmuşam halı,
Hər mahalı, hər bir yanı görmüşəm.

**AĞLAMA**

Aylar-illər mən yolunu gözlədim,
Düz ilqarlı Bəsti xanım, ağlama.
Yandırdın sən məni kabab eylədin,
Sənə qurban şirin canım, ağlama.

Bu dünyada belə olubdu adət,
Varlılar yoxsula verir əziyyət.
Bizə də bir qapı açılar əlbət,
Varım-yoxum, din-imanım, ağlama.

Mən Aşıq Alıyam, illər ayrısı,
Məcnun tək gəzirəm çöllər ayrısı.
Bülbüləm, bağlar tək güllər ayrısı,
Ey munisim, mehribanım, ağlama.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**DÖNÜBDÜ**

Pozuldu dövranım, nəs gəldi ilim,
Mən gördüyüm o zəmanə dönübdü.
Uçubdu bülbülüm, boş qalıb gülüm,
Bahar-yazım zimistana dönübdü.

Solubdu bağçamın gülü, şəbnəmi,
Bürüyüb sinəmi möhnətin qəmi.
Yavaş-yavaş çatır ayrılıq dəmi,
Dərdim artıb bir ümmana dönübdü.

Talanıb dövlətim, tükənib varım,
Arif məclisində görünmür yerim.
Ərşə çəkilibdi yuxum, qərarım,
Rəxti-xabım şahmarana dönübdü.

Etibar qalmayıb qohum-qardaşda,
Günah çoxdur eli qatan əyyaşda.
Mərdlər batindədi, gədalar başda,
Bəxti qalxıb Temir xana dönübdü.

Fələyin felindən olmadım halı,
Gətirdi başıma min qilü-qalı.
Mahalım Göyçədi, öz adım Alı,
Qapı-bacam dəyirmana dönübdü.

**DÜŞƏR**

Ovlanın yaylağı, Gözəl ovlağı,
Baharda ellərə gəlhagəl düşər.
Əyricə yaylağı, Qızlar bulağı,
Bir zaman könlümə Alagöl düşər.

Çox xoş gəlir bu dağların havası,
Yaylamağa gəlir gözəllər xası,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Zərzivil, Daşkörpü, Gəlin qayası,
İstisudan bəri bizim el düşər.

Ləli-gövhər bu dağların tayıdı,
Xublar gəlir yaylayıban qayıdı.
Zəngi axandı, qüdrət payıdı,
Sonalar meylinə bizim göl düşər.

Mən müştağam yarın ala gözünə,
Şirin söhbətinə, şəkər sözünə.
Gözəllər çıxanda dağlar gəzinə,
Qələmqaş üstünə cığa tel düşər.

Tez-tez ruzigarın dəyişər halı,
Dağılar könlümün dərdi, məlalı,
Bir gün eşidərsən, ay Aşıq Alı,
Dəniz güneyindən Cada yol düşər.

**OLDU**

Qafil gördüm Ərzurumun elini,
Bizim yerlər gözlərimdə cəm oldu.
Çox çətin ki, bu sevdadan qayıdam,
Yüküm hicran oldu, nəfim qəm oldu.

Munis buldum bir sevdanın qəhrini,
Boyladım dəryanı, keçdim nəhrini.
Alosmanın gəzdim cəmi şəhrini,
Mənim kimi eldən düşkün kim oldu?

Bu ayrılıq məni çəkdi amana,
Görüm viran qalsın çərxi-zamana,
Aşıq Alı həsrət qaldı canana,
Seryaqub kuyində dəmhadəm oldu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**DÜŞƏR**

Bu dünyanın get-gəlini qananın,
Ölçər, biçər ürəyinə xal düşər.
Cahil uyar bir fitnənin felinə,
Şux gözəlin qismətinə çal düşər.

Qurtarmadıq padşahın bacından,
Gözü doymaz öz taxtından-tacından,
Müxənnətin, seryaqubun ucundan,
Bu gözəl ellərə qalmaqal düşər.

Özü öz halını anlamayan kəs,
Alı üçün libas biçir dəsbədəs.
Müxənnətə qənim olar müxənnəs,
Əhli-hal əhlinə, əhli-hal düşər.

**İNCİMƏRƏM**

Mərifətli, qabliyətli yar olsa,
Alsam da qoynuma il, incimərəm.
Qızılgülün ətrafında xar olsa,
Axıtsan eynimnən sel, incimərəm.

Məqsədini yaxşı-yaman qanıram,
Həsrətinnən alışıram, yanıram,
Əsil gözəlləri mən də tanıram,
Saxlasın yanında el, incimərəm.

Alıyam, sinəmdə olubdu yara,
Mayılam könlümü bağladam yara.
Yetirin cərraha, o loğman yara,
Ölsəm də yanında, bil, incimərəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**GÖZƏLDİR**

Təşrif buyur, gedən, bizim ellərə,
Zülal suyu, çeşmələri gözəldir.
Qız-gəlinlər gül-bənövşə dərəndə,
Şümşad bilək, bəyaz əllər gözəldir.

Dik piləkən sarı yalnan o dağlar,
Həsrət çəkir çeşmələrin qan ağlar,
Sərasər qaynayır çeşmə-bulaqlar,
Dəhana dəyəndə dadı gözəldir.

Baş açmadım müxənnətin felinnən,
Fitnə-fəsadınnan, şirin dilinnən,
Mən Alıyam, cüda düşdüm elimnən,-
Əlvan-əlvan çiçəkləri gözəldir.

**ƏLİF-ƏLİFƏ**

İbtida xəlq oldu külli-kainat,
Oxudum dərsimi əlif-əlifə.
Sirri haq yanında eylə aşikar,
Xişminən buyurur əlif-əlifə.

Divanə deməyin yazıq Məcnuna,
Bulunmaz, dərdimə tapılmaz dava,
Demərəm cərraha həkim-loğmana,
Qaşların yay kimi əlif-əlifə.

Alıyam, qurbanam haqqın özünə,
Onun göndərdiyi haqqı-sözünə.
Tab gətirmək olmaz eşqin gözünə
Əbcətdən dərs aldım əlif-əlifə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**AĞLARAM**

Səni xəstə gördüm qəlbim qan oldu,
Ayıl bu qəflətdən, ellər, ağlaram.
Ox dəydi sinəmə, yaram deşildi,
Tökərəm didəmnən sellər, ağlaram.

Coşanda ürəyim aşırdım dağlar,
Düşəndə yadıma o keçən çağlar,
Bu günü görəndə dostlarım ağlar,
Tutulub dizlərim, bellər, ağlaram.

Alıyam, dərdimi yetirdim yüzə,
Gəzirdim səhrada, enmişəm düzə,
Bir gözəl istərəm gözümlə süzə,
Deyirəm sözləri dillər, ağlaram.

**ƏZBƏR-ƏZBƏRİ**

İbtida əlifdən dərsim almışam,
Oxudum dərsimi əzbər-əzbəri.
Sən yetiş dadıma, ya sirri-xuda,
Sənsən ərşin-kürsün əzbər-əzbəri.

Yaratdı dünyanı külli-kainat,
Darda qalanlara o verir nicat.
Xişminən xeybəri eylədi bərbad,
Çağırram dilimdə əzbər-əzbəri.

Mehdiyi-peyğəmbər, sahibi-zaman,
Sən yetiş dadıma on iki imam.
Aşıq Alı deyər: ya şahi-Mərdan,
Oxudum dərsimi əzbər-əzbəri.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**YETİŞDİ**

Bu dünyada heç şad olub gülmədim,
Hər vaxt işim ahu-zara yetişdi.
Mənsur cəhd elədi murada yetə,
Axırda Hələbdə dara yetişdi.

Ağladım gözlərim qan ilə doldu,
Dost-müsahib tamam mənnən yad oldu,
Bağ pozuldu, xəzan oldu, gül soldu,
Bülbül öldü, qönçə xara yetişdi.

Sarvan ollam, qəm ovsarı çəkərəm,
Hicrana müştaam, dərdə nökərəm,
Ah çəkərəm, verəm yükün tökərəm,
Görən deyər Alı vara yetişdi.

**MƏNƏM**

Əsli-Kərəm çoxlarına misaldı,
Əyyub tək sinəsi yaralı mənəm.
Necə dərd çəkmiyim, fəğan etmiyim?
Elimnən-günümnən aralı mənəm.

Dörd kitabdı yazılıbdı minayə,
Min nəsihət, min dəlil var, min ayə.
Yazıq canım qurban dedim Minayə,
Yüz dərdlə, ələmlə yaralı mənəm.

Yaradanım yaradıbdı günahkar,
Ömür boyu zülüm verib nə ki var.
Alıyam, dərdimə yoxdu xiridar,
Günahkar-günahkar yaralı mənəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**BİRİSİN**

Apardın ağlımı, ay mələkzada,
Söyləsən dərdimin yara birisin.
Təbib gəldi, neştər vurdu yarama,
Loğman gəlsə söylə yara birisin.

Qaf qəhardan dərsim aldım mən də hey.
Kaf kafərdi bu dünyada, sən də hey.
Təbib gəlsə dərman qaldı səndə hey,
Sən bilirsən bu dərdimin birisin.

Alıyam, çağırram gözəl Allahı,
Dilimdən tərk etmə simi billahı
Əliyyi-mürtəza şahların şahı
Şahi-Mərdan açar dərdim birisin.

**QURBANDI**

Əhdi-peymanında dayanan yarın,
Şəninə Minada quzu qurbandı.
Ellər səna etsə qeyrət, arına,
Min sərrafın söhbət, sözü qurbandı.

Dağların nərgizi, çölün lalasi,
Saqilər əlində mey piyalası,
Ceyranın, cüyürün körpə balası,
Ormanda maralın gözü qurbandı.

Əhdi-peyman ara eşqin yolunda,
Olmaya qəlb qara, eşqin yolunda,
Bir vəfalı yara eşqin yolunda
Bivəfa aşiqin yüzü qurbandı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## YAZDIM

İçdim mərd əlindən eşqin badəsin,
Bais oldu canda marağa, yazdım.
Canan eşqi can evinə düşəndə,
Düşdüm diyar-diyar sorağa, yazdım.

Biri qıya baxdı, saldı ataşa,
Biri süzdü məni ayaqdan-başa,
Biri məhbub oldu, döndü sirdaşa,
Biri şəstin çəkdi darağa, yazdım.

Biri saldı məni qafil inada,
Biri cəlil oldu həmdü-sənada.
Biri əyal atıb uyandı yada,
Biri sirr verəndə qırağa, yazdım.

İqbal rast olanda vəfalı yara,
Vəsfini söylədim lalə rüxsara.
Birini görəndə əsil mahpara,
Birini bir çeşmi-çırağa yazdım.

Əlim üzüləndə ata-anadan,
Alı qəmnak oldu başdan-binadan.
Vəsfi aparmadı dəhri-fənadan,
Nə vardı sinəmdə varağa yazdım.

## SORUŞMA

Qasid, yarım məni səndən sorarsa,
Söylə, Məcnun çıxdı dağa, soruşma.
Sorğu-sual çox dərinə vararsa,
De ahından odlar yağa, soruşma.

Dilim tutmaz bimürvəti soruşam,
Baxçasından cüda düşən bir quşam.
Ucbatından qəhərlənib uçmuşam,
Tənha qondu de budağa, soruşma.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Alı neynər bülqarı görəndə,
Tərlan oylağında sarı görəndə,
Bülbül gül üstündə xarı görəndə
Əsla dönməz bir də bağa, soruşma.

**GETDİ**

Yarsız yenə qan ağlarım dəmadəm,
Kəsilibdi səbri-qararım, getdi.
Bir kimsənə əlac etməz dərdimə,
Yoxdu, ləbi-məlhəm maralım, getdi.

Ahi əfqanımda kara gəlmədi,
Neçə tor qurdumsa, tora gəlmədi,
Salıbdı cismimi nara, gəlmədi,
Sədaqət oxundan yaralım getdi.

Düşdü Məcnunundan aralı Leyli,
Kərəm oda yandı, Əslidə meyli.
Alı giryan qaldı, yardan gileyli,
Köç etdi ceyranım, maralım getdi.

**DƏRİNDİ**

Elə müəmmadır aşıq sənəti,
Bir isimdə dörd hikməti dərindi.
Şairdir, məzəkar, sazan, xoş avaz,
Fəth eylə cəmini bəhrə dər indi.

Bu məqamda əhsənlər var, minnət var,
Bir dərgahdı, içrə zülmət, cənnət var,
Firudin var, suluddin var, sünnət var,
Al matahın taybataydı dər indi.

Aşiq oldun aqillərdən elm ara,
Arif məclisində gələrsən kara.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hər hikmət söylənsə tapmasan çara,
Çulğayar qəlbini dərdi-sər indi.

Huşyar ol, alim var hikmətli söylər,
Elmi dayaz aşıq naçardı, neylər?
Məclis küdrət çəkər, qəlbini teylər,
Bunu dərk etməzin əqli sərindi.

Yetmiş iki dildi bir para taxta,
O ustad əlində dolanmaz saxta.
Gah başda dolandır, gah da ayaqda,
Eylə qəm evini dərbədər indi.

Adəmdən Hatəmə sazda dəlil var,
Anlamasan tərk et, meydan etmə dar.
Alı nəsihəti qalsın yadigar,
Xəbərdar olunsun bu xəbər indi.

**QABAQDA**

Cəm oldu bu cəmdə nuri-ərənlər,
Agah idi xətti-xalı qabaqda.
Pirim aşkar etdi şah məkanını,
Kaş olaydım mən də halı qabaqdan.

Yahu-yahu deyib haqqa uydular,
Yaman hu... dedilər təam qoydular.
Cümlə məxluq loxma ilə doydular,
Məcməyilər dolu qaldı qabaqda.

Müstəcəbdi sovma-səlat səbatdan,
Kəsirimiz qalmaz xümsü-zəkatdan.
Alı xof eyləməz püli-sibatdan,
Cənab Əmir şölə salı qabaqda.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**ÇÜRÜDÜ**

İstəyirəm qələm alım söz yazım,
Sel-sel oldu sinəm başı çürüdü.
Qohum-qardaş, dost-müsahib yad oldu
Vaxt da keçdi cavan ömrüm çürüdü.

Fələk qəhr eylədi saldı çöllərə,
İntizaram göz tikərəm yollara,
Yazaram vəsfimi düşər dillərə,
Qəza gəlib ətrafımı bürüdü.

Alıyam, sinəmdə eşqin sevdası,
Atlaz mimtənəsi, gümüş baftası,
Çalxanır dəryada suyun sonası,
Bilmirəm mələkdi, yoxsa hürüdü.

**QALMADI**

Dedim, könül, gəl al məndən nəsihət,
Zay oldu bədənim, sağ da qalmadı.
Qohum-qardaş hərə düşdü bir yana,
Əridi ürəyim, yağ da qalmadı.

Dünya çarxı gərdiş vurdu dolandı,
Könül baxdı hər tərəf bir bulandı.
Ellər gəldi yaylağında dolandı,
Qayıdanda heç kim dağda qalmadı.

Yazıq Alı nə çəkirsən fərağı,
Ayrılıb vətəndən gəzmə irağı,
Xainin başatan yanmaz çırağı,
Pozuldu bostanlar, tağ da qalmadı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**AY AĞA HARAY**

Əyildi qamətim, büküldü belim,
Sən yetiş dadıma, ay ağa, haray!
Könül coşdu qanadlanıb uçmağa
Yanıbdı şahpərim ayağa, haray.

Balıq olan suda üzməz lələksiz,
Tərlan olan göydə uçmaz qənətsiz
Aslan olan sözü ötməz köməksiz,
Sən yetiş köməyə, ay ağa, haray.

Çağırram qulunu qoyma sərgərdar,
Düşmüşəm qovğaya gəl məni qurtar,
Ağalar ağası, ya Şahısuvar,
Sən yetiş imdada, ay ağa haray.

**GÖZDƏ GÖZÜ SƏN**

Gövhər mədəniyəm, düşmüşəm dərdə,
Dərman eylə gözə gözdə gözü sən.
Aman həkim əllərinə mən qurban,
Zay olmasın gözüm gözdə gözü sən.

Çox dövran sürmüşəm fani dünyada
Allahı çağırram yetişsin dada.
İşıq vermir, gözüm görmür dünyada,
Rəhm eylə gözümə, gözdə gözü sən.

Biçarə Alıyam, gəlmişəm dada,
Hesab eylə haqqı salgınan yada.
Cəsədim alışır, yanıram oda,
Eylə gözlərimə gözdə gözü sən.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**OLGUNAN**

Bir söz deyim xətrin mənnən xoş olsun,
Bir busə istərəm, qayıl olgunan.
Acıqlanıb mənə hədyan deyəndə
Düşgünən çöllərə sayıl olgunan.

Üzümə baxanda qoca görürsən,
Siyah zülfün dal-gərdəndə hörürsən,
Qəlbini əğyara, kara verirsən,
Baxgınan hikmətə mayıl olgunan.

Mina gərdən nəzik bədən ala sən,
İncə belə gümüş kəmər dola sən,
Alıyı çəkməynən nara, ala sən,
Könlünnən könlümə qayıl olgunan.

**AY ÜZƏ-ÜZƏ**

Qəm məni çulğayıb saldı dəryaya,
Cəhd eylədim çıxam ay üzə-üzə.
Oğrun-oğrun öz oduma yanıram,
Qəza vurub saldı ay üzə-üzə.

Yarananda borclu olub bir cana,
Bənzəmədim nə sultana, nə xana.
Dolandım dünyanı, bildim əfsana,
Bu cavan canımı ay üzə-üzə.

O gün olarmı ki, şad olub gülək,
Sən əydin qəddimi, ay qoca fələk.
Alı, yaradandan sən eylə dilək, -
O, deyər dərdini ay üzə, üzə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**NARIN ÜZ**

Yaradanım qələm çalsa gözələ,
Sən sürtəsən narın üzə narın üz.
Mənim kimi yazın dönsə tərsinə,
Həsrət olar narın üzə narın üz.

Həsrət oldum o bağçıya, o bağa,
Sinəm yanar bu düyünə, bu dağa,
Qəza vurub yoldan çıxsan qırağa
Həsrət olar narın üzə narın üz.

Bacarıram qabağında söz deyəm,
Bülbül olub bu bağlarda gözdəyəm.
Alı deyər gözəl yara söz deyəm,
Sən sürtəsən narın üzə narın üz.

**DEYİRƏM**

Ay ağalar, gəlin sizə söyləyim,
Atəşin ürəkdə yanar, deyirəm,
Qəvi düşmən pis fikirdən çəkinməz,
Od vurub sinəmə yanar deyirəm.

Ürəyim dərdlidi, qəlbim fikirdə,
Tab edə bilmirəm bir belə dərdə,
Sayıl tək səhrada qaldım şərməndə
Əl vurma şüşəyəm sınar deyirəm.

Alıyam, unutmam vəfalı dostu,
Vurubsan sinəmə kamanı qəsdi,
Dedim əl çəkəsən, demədin bəsdi,
Qalmışam zülmətdə, kənar deyirəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**AMANDI**

Başına döndüyüm ədalət şahı,
Şahım, bu yollara düşmə, amandı.
Çuğul, şeytan sənə tələ qurubdu,
Şahım, bu yollara düşmə, amandı.

Bu yolların içi dolu lil olur,
Üstü bulud, altı quyu lil olur,
Görürsənmi, şəmsi-qəmər ləl olur,
Şahım, bu yollara düşmə amandı.

Əskiklərin sözü keçməz arada,
Mərd iyidlər tez yetişər murada,
Yazıq Alı ilqar qoydu burada, -
Şahım, bu yollara düşmə, amandı.

**DƏYMƏMİŞ**

Kənardan qəlb ilə gəzirəm səni,
Dodaq gəlib gül yanağa dəyməmiş.
Çəkirəm əziyyət, gəz qabağımda,
Əl uzadıb gülün xara dəyməmiş.

O ala gözlərə mayıl olmuşam,
Gül yanağa bil ki, sayıl olmuşam,
Çəkdirsən dara da qayıl olmuşam,
Ox da gedib öz ovuna dəyməmiş.

Deyər Aşıq Alı, ay qoşa xallı!
Əmərəm ləbinnən ləbləri ballı,
Dərdini çəkirəm çox qilü-qallı,
Cənnət sənsən, səndə bara dəyməmiş.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**GÜLƏ-GÜLƏ**

İstəkli sevgilim, gəldik üz-üzə,
Əlimi əlinə al gülə-gülə.
Çox gəzdim dünyanı seçə bilmədim,
Sənin tək gözəlgən, al gülə-gülə.

Ürəyim titrəyir durma uzaqda,
Külək olsun, telin əssin sazaqda
Gözüm qalıb lalə yanaq, buxaqda,
Qolunu boynuma sal gülə-gülə.

Mən zərgərəm, səni dürrü bilirəm,
Aləm nədi, şöylə, kimi görürəm,
Türkiyə elindən indi gəlirəm,
Minnət qoy Alıya, gəl gülə-gülə.

**DEYƏRSƏN**

Hasan əmi, bir Allahın eşqinə,
Mənim ərzim o canana deyərsən.
Ey mənim qasidim, dərddən xəbərdar,
Məntək dərdi o tüğyana deyərsən.

Gedib ol vətənə varannan sonra,
Sən bizim elləri görənnən sonra,
Götürüb naməni verənnən sonra
Bu cavabı yana-yana deyərsən.

Kamil bağban, pasiban ol güllərə,
Tapşırdım gözünü diksin yollara.
Deynən yola düşdü uzaq ellərə,
Keçdi Alı Alosmana deyərsən.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**NEYNƏR**

Cümlə xilqət bu cahana mübtəla,
Cahanı sevməyən cananı neynər?!
Eşqdən bixəbər naşı, nadandı,
Əhli-ruh aləmdə nadanı neynər?

Hurirüxsar, hilalqaşlı, siyahtel,
Boyu mina, əndam büllur, incəbel.
Diyarım zibasın əsil mələk bil,
Bizim mahcamallar ədanı neynər?!

Səslə hüzuruma aqil kəsləri,
Hikməti dərk edən pürhəvəsləri.
Qovla məclisimdən kənar kəsləri,
Alı mərəkədə gədanı neynər?!

**TƏRK ELƏ**

Əbru çəkmə bədirlənmiş ayə sən,
Qəm yaradan o yaşmağı tərk elə.
İnsaf eylə sal üstümə sayə sən,
Tez rübəndə yanaşmağı tərk elə.

Giryanam gözəllər xası ucundan,
Qəhərlənib tutdum yası ucundan.
Bir busənin təmənnası ucundan
Məhrəm ilə savaşmağı tərk elə.

Alını qəm canda bekar edəndə,
Qəlbi xoşhal olar, şikar edəndə,
Hərdən təmənnasın aşkar edəndə,
Gülə-gülə o qaçmağı tərk elə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**ÇƏKİBDİ**

Ay ariflər, gəlin sizə söyləyim,
Varlılar yoxsulu dara çəkibdi.
Cəhd edirlər bu dünyanı tutalar,
Nökərə, dehqana qara çəkibdi.

Mollaynan, varlılar uyublar felə,
Köyxaynan birləşib qururlar tələ.
Ağaynan bəyləri demirəm hələ,
Zülmü gəlib ol üqbayə çəkibdi.

Fağırın, miskinin əlləri qabar,
Beş ilə alammır bir axsaq davar.
Yeməyi, geyməyi deyirəm havar,
Aşıq Alı qilü-qala çəkibdi.

**MƏDİNƏ**

Gözəl qiyafəli, Leyli kamallı,
Sənsən gözəllərin şahı, Mədinə.
Sevənlərdən gəl birinə könül ver,
Çəkdirmə amanı, ahı, Mədinə.

Bəyaz sinən dağda qarı andırır,
Hüsnün möminlərə dinin dandırır.
Mübtəlanı eşq atəşi yandırır,
Kəc dolanır rəvan rahı, Mədinə.

Bir an firqətinə tab etmir ürək,
Əsil mələkəsən, hüsnün mübarək.
Camalın şölədi, şəmsi nə gərək?
Heyran qoydun ərşdə mahı, Mədinə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sevənindən seyrə çıxma aralı,
Zamanın hökmüdü, vədə daralı.
Kamil səyyad ram eyləyər maralı,
Sən səyağı, zülf siyahı, Mədinə.

Şanə bil zülfünə badi-səbanı,
Qoyma qilü-qalda, eli-obanı.
Tədbirdə aqil bil Alı babanı,
Seç birini, ol pənahı, Mədinə.

**YAYLAQ**

Min büsata, min sovqata məkansan,
Əlvansan bu başdan-o başa, yaylaq.
Doymur cəlalından türfə gözəllər.
Eyləyir hüsnünə tamaşa, yaylaq.

İntizarda qoydun qışlaq elini,
Məftun eyləmirsən siyah telini.
Almısan qoynuna incə belini,
Girmisən aranla savaşa, yaylaq.

Bir mələk misallı atsa oxunu,
Kənar olmaz, can evimə toxunu.
Yağdı yağış, şirinlətdi yuxunu,
Büründü mehmanın qumaşa, yaylaq.

Ah divanədi, orman dolanır,
Gözəllər hüsnündə dərman dolanır.
Köçürəm, qətlimə fərman dolanır,
Yaşat gözəlləri, həm yaşa, yaylaq.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**GÖZƏLLƏR**

Olam pasibanı seyrangahların,
Seyr edə yaylağı yazı gözəllər.
Çeşmə kənarında gərdən çəkəndə,
Heyran qoyur quba-qazı gözəllər.

Əbrişin libasdı, ahu baxışdı,
Qüdrətindən pür boyalı naxışdı.
Fərq eyləməz ya bahardı, ya qışdı,
Müdam eylər işvə-nazı gözəllər.

Nurdan xəlq olunub, qəddi-qaməti,
Huriyə, qılmana var dəlaləti.
Nəğmədə dolanır şanı, şöhrəti,
Yoldan eylər dayanmazı gözəllər.

Gördüm sizi dərdə məlhəm, çaralı,
Düzlərin ceyranı, dağın maralı.
Hicran çəksə gül rüxsarı saralı,
Növcavanlar qəlb həmrazı gözəllər.

Mina gərdən, incə beli görməsəm,
Qönçədəhan, şəkər dili görməsəm,
Qələmqaşı, siyahteli görməsəm,
Tərk eylərdim bu avazı, gözəllər.

Sərrafı olmasam şəhla gözlərin,
Seyrinə çıxmasam şəmsi üzlərin.
Vəsfi olmasaydı ay bənizlərin,
Yad etməzdim əsla sazı, gözəllər.

Qəlbə şölə verən siz çeşmi çıraq,
Amandı olmayın gözümdən iraq.
Bir əlində qələm, birində varaq,
Alı sizə dastan yazı, gözəllər.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

**YARATDI**

Küllü yaranmışın püştü-pənahı
Əvvəl əldə iki dürrü yaratdı.
Dür terrədi rövşən etdi aləmi,
Beş pəncinən ali-əba yaratdı.

İki nurdu: Məhəmməddi,
Əlidi Cəbrayıla yol göstərən vəlidi.
Fatimədi iki nura bəllidi,
Xudam nurdan on bir imam yaratdı.

İmam Həsən gözəllərin gözüdü,
İmam Hüseyin şəfaətçi özüdü.
Zeynəlabdin zindan çəkdi düzüdü,
Yezidə Müreyyib talan yaratdı.

Məhəmmədbağıra nökər olasan,
Cəfərnən Kazıma qonaq qalasan.
Qərib İmamrza şahi-Xorasan
Təqi-Nəqi, ol imamı yaratdı.

Qəlbimin nurudu Həsən Əskəri,
Sahib zühr edəcək qiyamnan bəri.
Alıyam, çağırram şahi-Heydəri,
Adəmnən Həvvanı xakdan yaratdı.

**SEVDİYİM**

Əlif qəddin, şümşad belin, bey incə
Tey telinə şana vurma sevdiyim.
Sey asari səndə iman bulunmaz,
Cəm camala şölə vermə sevdiyim.

Hey həlak eyləyir incidir məni
Xey xəlq eyliyibdi bir xudam məni.



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Dar dərdin eyliyib divanə məni
Zal zülfün gərdənə sürmə sevdiyim.

Rey rəngin zərda zey kimi xəndan
Sin sərvi qamətin xətti gülüstan.
Şin şad eylə məni qurtar sevdadan,
Bir busə ver, üz döndərmə sevdiyim.

Zat saxla, qulunam, zat bazarında,
Tey-telin cığadı yar qabağında.
Zey zəlil qalmışam yarın əlində,
Ayın əşqi yara vurma sevdiyim.

Çayın qulun ollam sana kəmtərin
Fey fələkdi gey sonalı göllərin.
Qaf kəmər üzündə şövqü-ənbərin,
Kaf küffardı üzə vurma sevdiyim.

Lam lala açılıb yar yanağında,
Mən mərcan olaydım yar qolbağında.
Alıyam, tab etməm mən fərağında,
Hey-haraya gəl göndərmə sevdiyim.

**QOCALMIŞAM**

Ala gözlüm, sən nə məlul durursan,
Sən görən deyiləm, yar qocalmışam.
Qaymaq dodaq, gül yanaqlı bəxtəvər,
Gəlibdi gözümə tor qocalmışam.

Dəhanda dişlərim gəlib amana,
Qədd əyilib, belim dönüb kamana.
Dolanıb rüzigar, dönüb zamana,
Tərlan baxtım olub sar, qocalmışam.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu fani dünyadı heç kəsə qalmaz,
Seyraqub çırağı başatan yanmaz.
Heç kəsə qalmayıb, xana da qalmaz,
Arıyıb-axtarıb kar, qocalmışam.

Könül qubarlanıb tutanda bəhsi,
Gələndə guşuma müxənnət səsi.
Müddəi eyləyib hər işin tərsi,
Çox zülüm eyləyib çar, qocalmışam.

Tüsdü qalxıb duman gəzir başımda,
Ataş qaynar ürəyimdə, döşümdə.
Alıyam, olmuşam doxsan yaşımda,
Ağarıb saqqalım, çal, qocalmışam.

**DOLANDIRIR**

Hər yetən hərcayı deyir aşığam,
Setayıya simi tel dolandırır.
Adam var başını saxlıya bilmir,
Adam var camaat, el dolandırır.

Adam var ki, fikir-zikir eyliyir,
Adam var ki, Haqqa şükür eyliyir,
Adam var ki, hiylə-məkir eyliyir,
Adam var ki, fitnə-fel dolandırır.

Aşıq Alı şər işindən çaşqındı,
Adam var ki, el içində şaşqındı.
Adam var kı, çörək versə düşkündü,
Adam var dünyada dil dolandırır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**EYLƏR-EYLƏR**

Bir elə mövlanın ətəyindən tut,
Aləmə imdadı ol, eylər-eylər.
Zərrəcə nəzəri olsa üstündə
Yerdən daş götürsən ləl eylər-eylər.

Böhtan demə, böhtan tutar adamı,
Mənim bu sözlərim gövhər mədəni.
Cəhənnəm odunnan betər adamı
Yoxsulluq yandırar kül eylər-eylər.

Alıyam, sözlərim safadır-safa,
Dünya müxənnətdir, insan bivəfa.
Hökm eyləsə Ağrı ilə o Qafa,
Tökər dəryalara sel eylər-eylər.

**YAVAŞ-YAVAŞ**

Məhəbbət əhliyəm çeşmi-xumara,
Gəşt eylə dünyanı gəz yavaş-yavaş.
Unutma dostunu peşman olarsan,
Dostunan düşməni seç yavaş-yavaş.

Nə ağlın var, nə huşun var, kam alım
Mən danışım, qulaq asın, dəm alın.
Cəm eylə idrakın, ağıl-kamalın,
Yolunla getginən düz yavaş-yavaş.

Alıyam, çağırram sirri-xudanı,
Unutmam duz-çörək, həmi də nanı.
Fələk üz döndərər, haqqını tanı,
Elini, gününü bil yavaş-yavaş.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**GƏLƏCƏKDİ**

Dövlətlilər, nə uyubsuz dünyaya,
Dünya malı sizə dar gələcəkdi.
İncitməyin fağırların pirini,
Nəticəsi sizə ar gələcəkdi.

Köyxa deyir dünya mənim, var mənim,
Torpaq mənim, cənnət mənim, sar mənim.
Göydən düşən o çalruylu qar mənim,
Ədalət olacaq, dar gələcəkdi.

Həqiqət, axirət vardı, deyirəm,
Yeddi cəhənnəmi vardı deyirəm.
Yoxsulun Allahı vardı deyirəm,
Siratın körpüsü, var, gələcəkdi.

Nökər saxlamağın çoxdu günahı,
Aləmə yetəcək miskinin ahı.
Zülm edənə zülm eliyər İlahi,
Yoxsulun üzünə var, gələcəkdi.

Aşıq Alı, sığın şahi-Heydərə,
Ədalətsiz, mərifətsiz bəylərə.
Lütfsüz, loxmasız olan səylərə,
Axirət tufanı, qar gələcəkdi.

**ƏLLƏR**

Küllü kainatın püştü-pənahı,
Pirinci əl üstə gətirən əllər.
Beş yaşında ol kafəri səmaya,
Əntəri qeyz ilə itirən əllər.

Dünya abı ikən xakə vuruldu,
Altı gündə hökm olundu, quruldu.
Abi-kövsər, xaki-baddan duruldu,
Tifilkən ağ divi bənd edən əllər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xızır Peyğəmbərin elmi dəryadı,
Musa Peyğəmbərin qəlbi oryadı.
İsanın anası adı Maryadı,
Xızırla Musaya yol verən əllər.

Xavəri-saili cəmə gələndə,
Yetmiş oğlu ol Salsalın öləndə.
Malik Əbülməcən salsal əlində,
Salsalla şəmamə götürən əllər.

Yer altında şəhrizərə getdilər,
Büstü dala ol şəmamə yetdilər.
Gülabı-Malikə qardaş etdilər,
Salsalı dəryaya qərq edən əllər.

Adəmnən Hatəmə Merac mehmanı,
Onunla getmişdi bilin pünhanı.
Aşıq Alı, sən ağanı tək tanı,
Almanı, üzüyü gətirən əllər.

**BİZƏ GÖNDƏR**

İstəkli sevgilim, qəlbimin pəri,
Qaymaq dodağından bal bizə göndər.
Ağlımı alıbdı sənin camalın,
Zülfunün ucundan al bizə göndər.

Mən səni sevmişəm dünya üzündə,
Qəlbim qaldı sənin şəhla gözündə,
Vədə verdin düz olmadı sözün də,
Sözün düz olmasa, nar bizə göndər.

Ürəyim şüşədir, sındırma, əzmə,
Dolanıb dünyanı əğyarla gəzmə,
Əlimi uzatsam əlini üzmə,
Üzsən də əlini, qar bizə göndər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu dünya fanidir kimə qalıbdı?
Dil bilməzin dərdi məni alıbdı.
Bağban da olmasam, bağa salıbdı
Qızılgül olmasa, xar bizə göndər.

Aşıq Alı, çəkmə işvəli nazı,
Götür əllərinə sədəfli sazı.
Neynirəm var-dövlət, varımdı azı
Əsəl də tapmasan dar bizə göndər.

**NEÇƏ DİLİ VAR**

Mərifətdən kamil olan, ay aşıq,
Şəriəti nəylə edərsən aşkar?
Bey altınnan o nöqtəni bəyan et, -
O nöqtədən eylə məni xəbərdar.

Yeddi daşın səkkiz cənnət yaşı var,
Yerdədi-göydədi hardadı əgər.
Ərşdə iki quş var - orda dən dənlər,
Gahdan pünhan olur, gah da aşikar.

Deməynən ki, bu sözlərim yalandı,
Aydı, gündü zümrüd ona ulaşdı.
Zatı zülcalaldı, sözü kəlamdı,
Peyğəmbərdən qalıb bizə mötəbər.

Mərifətdən, təriqətdən gəlmişəm,
Təriqətə yol-ərkanı bilmişəm.
Alı deyər özüm mətəl qalmışam,
Bu çərxi-davvarın neçə dili var.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**OLMAZ**

Qəm yemə, qəm yemə divanə könül,
Həmişə ruzigar belə dar olmaz.
Özünü bilməzlə durub-oturma,
Beləsində namus, qeyrət, ar olmaz.

İnsan gərək namusunu atmaya,
Halal mayasına haram qatmaya,
Bir oğul ki, ata sözün tutmaya,
Bəd övladdı, çöhrəsində nur olmaz.

Yamanı götürüb, yaxşını atma,
İlqarı unudub, imanı satma,
Oruc tut, namaz qıl, duasız yatma,
Alı, dünya malı sənə var olmaz.

**GÖRMƏDİM**

Viranə bağlara mən oldum bağban,
Almasın, heyvasın, narın görmədim.
Çox ağac becərdim şoran çöllərdə,
Bəslədim budağın, barın görmədim.

Dünya bivəfadı etibar olmaz,
Sayğısız iyiddə giridar olmaz,
Hər sevən kimsədə düz ilqar olmaz,
Çoxu çox danışdı, karın görmədim.

Alıyam, mətləbim veribdi xudam,
Məğribdən məşriqə yayılıb sədam.
Hərcayı gözələ can verdim tamam,
Namusun, qeyrətin, arın görmədim.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**DİYARIMDA**

Könül tələb edir, ürək atlanır,
Gəşt eylə, dünyanı gəz diyarımda.
Zəhmət çəkən bu dərdlərə qatlanır,
Coşur ürəyimdə söz diyarımda.

Qürbət diyardayam, görünməz yurdum,
Həkimlər, loğmanlar bilmədi dərdim,
Alagol yaylağı, vəfalı yurdum,
Alardım əlimə söz diyarımda.

Alıyam, söz deyib, yaza bilmərəm,
Şad olub, qürbətdə gəzə bilmərəm,
Hərcayı sözlərə dözə bilmərəm,
Alışsam, yanmaram öz diyarımda.

**NƏDƏN OLDU**

Yeri, göyü insi-cinsi yaradan,
Haqq əmir eylədi yer nədən oldu?
Pərdəyi-hicabdan bir dəsti gəldi,
Onun dəstəsində sir nədən oldu.

Haqq əmir eylədi, gövhar tərlədi,
Bircə qətrə suyu umman eylədi.
Kimnən səda gəldi, kimnən söylədi,
Yandırıb şahpərin nar nədən oldu?

Aşıq Alı yuva istər pirindən,
Haq mərhəmətindən, qüdrət şirindən.
Bir dürr xəlq eylədi öz qüdrətindən,
O dürrün içində sir nədən oldu?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**GÖZÜMÜZ**

Özgələrdən bizə xətər yetişməz,
Eyləməsək özümüzə özümüz.
Alışmışam öz oduma yanıram,
Qoy söykənsin közümüzə közümüz.

Bəhsə düşüb əbəs yerə döyüşdük,
Qəlb sındırıb, qamət əyib öyüşdük.
Heç bilmədik nə iş tutduq, əyişdik,
Düz gəlmədi sözümüzə sözümüz.

Qovğa günü mərd meydanda ər dini,
Alıyam, axtarram elin mərdini;
Leylü-nəhar çəksin diyar dərdini,
Dürüst baxsın gözümüzə gözümüz.

**YAXŞIDI**

Ay ağalar, gəlin sizə söyləyim,
Nə cür olsa yenə vətən yaxşıdı.
Qohum, qardaş, dost-müsahib görəndə,
Şəfa tapar yaralarım, yaxşıdı.

Bivəfaynan sən dost olma, kənar gəz,
Şam-çıraq olmasa, əldə fənər gəz.
Başa düşər öz hesabın qanar, gəz,-
Min qarğadan bircə qırğı yaxşıdı.

Bıçarə Alıyı gətirdin dilə,
Bülbül də müştaqdı budaqda gülə,
Sar quşları şikar etsə yüz ilə,
Qoca olsa yenə tərlan yaxşıdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**ZAMANIDI**

Ay ağalar, gəlin sizə söyləyim
Vəfasız ömrümün kor zamanıdı.
Bu fani dünyada kama yetmədim,
Dostunan düşməni seç zamanıdı.

Arif odu, dediyimi tez qana,
Hər sözü izliyə keçib gün sana
Ömrüm azalıbdı, çatıbdı sona,
Ağlayın üstümdə köç zamanıdı.

Alıyam, baxtımnan çox intizaram,
Başım çalxalıdı çox intizaram.
Gəzdiyim yerlərdən çox intizaram,
Fələk kəməndindən düş zamanıdı.

**HAYIFSAN**

Özün üçün sən aşiqsən, ay Əsmər,
Başın çatma qalmağala, hayıfsan.
Şairlik deyəndə özünü öymə,
Belə adı üzə salma, hayıfsan.

Qullar boyda sən özünə hörmət et,
Gələnin, gedənin əhvalına yet,
Aşıqlıq edənin pişvazına get,
Məni salma qilü-qala, hayıfsan.

Etibar eyləmə fani dünyaya,
Elmin yoxdu özün atma dəryaya,
Məcnun kimi düşmə çölə, səhraya,
Sən düşübsən bəd xəyala, hayıfsan.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**GÖZƏLLƏR**

Səhər çağı çıxdın mənim qarşıma,
Göründü gözümə dəstə gözəllər.
Aylar-illər həsrətini çəkdiyim, -
Olmuşam dərdinnən xəstə gözəllər.

Əflatun loğmana getdi dərmana,
Yanıram oduna mərdi-mərdana,
Dolanım başına, olum pərvana,
Qoymayın könlümü yasda gözəllər.

Alıyam, dünyada xam xəyal oldum,
Baxdım gözəllərə kəm xəyal oldum.
Düşəndə yadıma kəm xəyal oldum,
Al sinən üstündə bəstə gözəllər.

**VAR**

Baxdı-yığval bu diyara gətirdi,
Taleyin olmasa nə mənası var.
Əcəl gəldi kəsdi sənin üstünü,
Döyünsən, çırpınsan nə mənası var.

Qəssal yuyar, qəddim bükər bir ağa,
Bu günümdə yetiş dada bir ağa,
Mən qulunam, nökərinnəm bil, ağa,
Nökərin ağadan təmənnası var.

Alıyam çağırram sirri xudam,
Bu dünya fanidi, köçəcək hamı,
Tamam müəmmadı haqqın "Qur’an"ı,
Oxuyub bilənə çox mənası var.



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

## ZEYNALIN

Yanşaxda bir iyid gəlib ərsəyə,
Yoxdur bərabəri, tayı Zeynalın.
Qarşısına çıxan görünmür hələ,
Qüdrətdən verilib payı Zeynalın.

Mərcan Qamışlıda atdığı güllə,
Gilas budağından saldı bir gilə.
Yazdım tərifmi, yayılsın elə, -
Ucalsın qoy haqqı-sayı Zeynalın.

Aynalısı xub yaraşır boyuna,
Qoymaz ovu nəzərindən yayına,
Arzum budur gələm oğul toyuna,
Şən dolansın yazı, yayı Zeynalın.

Kamil səyyad oldu, sərrast kamandar,
Murovun sərini eylədi şikar.
Seyrəngahı oldu o qoca dağlar,
Oylağıdı Meydan çayı Zeynalın.

Aşıq Alı saldı hər yerdə bəhsin,
Aləmə şəms etdi sədasın, səsin.
Dörd pələngə qalib gələn qəməsin,
Eşidilməz hay-harayı Zeynalın.

## GƏTİRMİŞƏM

Gecə-gündüz vird etdiyim, ay Bəsdi,
Qəlbimnən qəlbinə tel gətirmişəm.
Gəzdim İstanbulu, Qarsı, İzmiri,
Türkiyə elindən bar gətirmişəm.

İpəyin ən xası layiqdir sənə,
Torpaq çox şirindi bilginən mənə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Anamın göz yaşın demirəm hələ
Koroğlu dağınnan qar gətirmişəm.

Deyişdik bağladım aşıq Yığvalı,
Əsmər istiyirdi həm qilü-qalı.
Axırda utandı, bəd gəldi falı,
Əsmərin töhfəsi var, gətirmişəm.

Dağlardan ucadı o Ağrı dağı,
Nə qədər dost tutdum Əsəddir sağı.
Çimənkənd olubdu behiştin bağı,
Behişt bağçasından bar gətirmişəm.

Alıyam, mən gəzdim tamam hər yeri,
Türkiyə elinin gözəl dilbəri.
Osmanlı sultanı dillər əzbəri,
Onların salamı var, gətirmişəm.

**DÜŞDÜ**

Bir dəzgah qurmuşam yüz min teli var,
Hər telinə dilbər düzənə düşdü,
Yüz yaşadı, cavan qəddi büküldü,
Yasəmən zülfünə nişanə düşdü.

Əldə şana zülfün dara bir yana,
Hürülər, pərilər, dilbər bir yana,
Dərdimi yük tutdum, getdi bir yana,
Dəryada nəhəngə, ümmana düşdü.

Dibi dərya, o başı qubara bax,
Yar sinəsi səmər vermiş nara bax,
Deyər Aşıq Alı sən bu nara bax,
Kafəri açdılar, rizvana düşdü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**DOLANDI**

Həbibimdi, təbibimdi Bəsdi yar,
Uydu könlüm o dildara dolandı.
Vəfasız dünyanın vəfalı yarı,
Əmr eylədi, düz ilqara dolandı.

Tay olmaz sədrinə bir qeyri sinə,
Qoymadı qoynuna bir qeyri sinə.
Yarı meyl etmədi bir qeyrisinə,
Gəldi neçə zülfü qara dolandı.

Yazı haxdan oldu, od oldu yandı,
Hərdən əbru təki o dolu yandı.
Sevda aləmində od oldu yandı,
Ah səməndərdi, nara dolandı.

**BƏSDİ YAR**

Peymana mərd oldum, dəşt gərd oldum,
Gör əhvalım, bir sor halım, Bəsdi yar.
Rüxsarən zərd oldum, əhli dərd oldum,
Zaydı halım, həm xəyalım, Bəsdi yar.

Cismidə canımsan, ilqarda dursan,
Sən can alanımsan, verrəm buyursan.
Təlx lisanımsan, eyham vuransan,
Bilsin cümlə qoy mahalım, Bəsdi yar.

Olmasan bivəfa, sürərsən səfa,
Gələsən insafa, çəkməyəm cəfa,
Sevən düşməz xofa, çekilər qafa,
Etmə müşgül ilk vüsalım, Bəsdi yar.

Artırdın məlalım, həm qilü-qalım,
Tərk edim mahalım, sərf edim malım.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ya ölüm, ya alım, yox desən, zalım,
Aşkar oldu son sualım, Bəsdi yar.

Çeşmimin ziyası, Alıdı ası,
Geydi qəm libası, ahdı nəvası.
Qurdu firqət yası, agah mənası,
İnanma ki, burda qalım, Bəsdi yar.

**BƏSDİ**

Sən şəmsi, mən kənarında sitarə,
Rüxsət ver sərinə dolanım, Bəsdi.
Can fəda eylərəm, ey mahiparə,
Budur sərmayədən olanım, Bəsdi.

Kərəməm, Əslisiz giryan neylərəm?
Məcnunam, dəştdə üryan neylərəm?
Nainsaf, halıma bir yan, neylərəm?
Sənsən canı verib, alanım, Bəsdi.

İqbalım dadıma yetmədi bir an,
Sitəmindən oldu can evi viran,
İstərsən gəzərəm İranı, Turan
Qürbət diyarlara yollanım, Bəsdi.

Umma mərhəməti qəni daradan,
Əgər səvhsənsə çıxaq aradan.
Kərəm hasil olar nadir çaradan,
Tərsinə odlara qalanım, Bəsdi.

Dəhri cəfa çoxlarını tovladı,
Uydu baban rəsulları qovladı,
Ah sənlə bir diyarın övladı,
Qoyma yad ellərə calanım, Bəsdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**YANDI**

Qəza qərq eylədi yanar odlara,
Elimin sərvinaz sonası yandı.
Atəş müqəddəsdi, napakdan qaçar,
Görmədim nə xənnas, nə ası yandı.

Nə idi günahı pakı xilqətin,
Oldu mübtəlası dərdin, zillətin;
Aqil fəhm eləyib, alsın ibrətin,
Nağının gül üzlü balası yandı.

Dərkiyan naçardı dövran işinə,
Olmadı bir zəka, elac düşünə.
Cümlə tab eylədi qəm atəşinə,
Mənim tək qəm əhli yanası yandı.

Qəbahət nə idi, odlar qalandı,
Əsil məhşər gördüm qeyri yalandı.
Cümlə qəm eylədi, qəlbi talandı,
Aqil küdrət çəkdi, danası[1] yandı.

Aşkar şivən qurdu ilahi tala,
Alı tab etmədi bu müdhiş hala.
Bir cana borcluydu o körpə bala,
Nari-cəhənnəmdi, anası yandı.

**OLA BİLMƏZ**

Gözəllər şahıdı nazlı nigarım,
Kimsənə Bəsdiyə tay ola bilməz.
Xilqətinə xudasından verilən,
Bundan qeyrə cəlil pay ola bilməz.

---

[1] Alim



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Buğdayıya qara dedin, a zalım?
Bir an görməyəndə pozulur halım.
Odu pəri nisbət şəmsi-cəmalım,
Şəbahəti ulduz, ay ola bilməz.

Şəms oldum aləmə aqil sözümlə,
Ucalmışam, cəfalara dözümlə.
Nainsaf, seyr eylə yarı gözümlə,
Hilal qaşı kimi yay ola bilməz.

Kanaram qüssədən başdan-binadan,
Cəlil xilqət törər, cəmil anadan.
Ah gövhər sərrafıdı, a nadan,
İnşallah cəfası zay ola bilməz.

**ÇALIM**

Qəddi dal, eyni zay olsam da, gülüm,
Yenə də pür kamal həvəsdi çalım.
Qəm çökdü sinəmə eyləyə zülüm,
Bir gətir sazımı, a Bəsdi, çalım.

Piranələr halı müdam müdhişdi,
Halətimə körpələr də gülüşdü;
Naqafil yadıma keçən gün düşdü,
Söylə bəmdən çalım, ya səsdi çalım?

Bəşər qəmli qüdrətindən yaranı,
Xaliq xəlq eyləyib qəlbdə qaranı.
Dilləndirib tez kəsərəm aranı,
Həm desəm bu Alı növrəsti çalım.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**SARIKÖYNƏK**

Solar gül camalın, aranda qalma,
Dolan yaylaqları yay, sarıköynək,
Müştaqam boyuna, nəzərdən salma,
Etmə ömrüm ahu-vay, sarıköynək.

Təzələndi köhnə dərdin yarası,
Təbibimsən, səndən qaldı çarası,
Tökülüb zülflərin gərdən arası,
Çək üzə, çin-çin et, say, sarıköynək.

Alı deyər keçdi şamın çoxumu?
Qaynat qəfədanı, dağıt yuxumu.
Gətir fincanları, yanında lumu,
Sən doldur, mən içim çay, sarıköynək.

**DAL-DALA**

İsmin üç hərifdi elədim bəyan,
Cimdi, mimdi, yazılıbdı dal-dala,
Seyraquba, müxənnətə qoşulma,
Əlif qəddin bəd nəzərdən daldala.

Səyyadısan, dağlar sənin, gəz dolan,
Alışarsan öz oduna, az qalan,
Maral gəldi, keç bərədə daldalan,
At oxların, peykanım daldala.

Deyər aşıq Alı meydan içində,
Oxudum dərsimi meydan içində,
Doxsan min kəlməni meydan içində,
İsbat eylə, sübut eylə dal-dala.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# TƏCNİSLƏR



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**AY ÜZƏ-ÜZƏ**

Hicranım, möhnətim, dərd ilə qəmim
Az qalıb canımı ay üzə, üzə.
Namərdin fitnəsi alır canımı,
Heç demir canımı ay üzə-üzə.

Qəvvas kimi dəryalara dalmışam.
Şirin canım kəməndinə salmışam.
Qərq olmuş gəmiyəm, burda qalmışam,
Sonalar çalxanır ay üzə-üzə.

Alıyam, axtarram həqiqi dostu,
İlqarın bütünü həqiqi dostu.
Müxənnət olmasa həqiqi dostu,
Dost deyər sözünü ay üzə, üzə.

**DAMI DA YANSIN**

Uçubdu könlümün dəri, divan,
Bir sütun vurgunan damı dayansın,
Hər kim dostdan dosta yaman qandırsa,
Qiyamət oduna damı da yansın.

Dedim: könül, bir qayıtsan özünə,
Bir baxgınan mənə, bir də özünə,
Axirətdə bir ev tiksən özünə,
Uçmasın başına, damı dayansın.

Deyər Aşıq Alı acar ovluya,
Zənbur şirə çəkə, acar ovluya,
Bir dost səni qoyub acar ovluya,
Od vur qapısına damıda yansın.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**DE BİR ÜZ-BİR ÜZ**

Vaxt məni tulladı qəm dəryasına,
Ovçuyam gəzirəm de bir üz-bir üz.
Leyli müştağıyam düşdüm odlara,
Yetirin loğmana, de bir üz-bir üz.

Fərhad sevdi Şirin yarın kamalın,
Kərəm sevdi Əsli yarın kamalın,
Ürək istər, könül deyər kam alım,
Göz-gözə baxanda de bir üz-bir üz.

Alıyam, xəyalım kəc dolanırdı,
Xosrov da başında tac dolanırdı,
Məcnun Leyli deyib ac dolanırdı,
Almadı Leylidən de bir üz-bir üz.

**DAL-DALA**

Yaz açılcaq gəl çiçəyin seyrinə,
Təbib deyər qoy tökülsün dal-dala.
Bu dünyada şir də yalqız olmasın,
Qardaş gərək cüt dayana dal-dala.

Müxənnət göz qoymaz dala, qabağa,
Hərcaydar heç çıxmasın qabağa.
Yaxşı köhlən cəhd eləyər qabağa,
Yaxşı iyid fikir verər dal-dala.

Xudam məni tək yaradıb, təkbətək,
Gecə-gündüz fikr elərəm, təkbətək.
Aşıq Alı, çək döşünə təkbətək,
Müxənnətdən çək ətəyin, daldala.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**AYA QALMASIN**

Bimürvət yar məni candan eylədi,
Tutubdu dəstində ayaq almasın.
Girdim dostun baxçasına seyr etdim,
Görmədim bağında ayaq almasın.

Mirzəsisən oxu dərsin haraya,
Bayram ayı demək olmaz hər ayə,
Şahi-Mərdan, özün yetiş haraya,
Düşmən bu günümdə ayaq almasın.

Deyər Aşıq Alı yara bağlıya,
Yaxşı təbib gərək yara bağlıya,
Bir yar meylin qeyri yara bağlıya,
Həftə tamam olsa, aya qalmasın.

**AYƏ MƏNDƏDİ**

Bu gün seyraqubdan bir söz eşitdim,
O söz dostdan deyil, ayə məndədi.
Dedim: nədir sədrin üstə bəslərsən?
Dedi: tifil ikən, ayə, məndədi.

Sevdiciyim təzə geymiş buxara,
İnsafdımı bülbül baxa bu xara?
Gəşt eylədim Bəsrə, Bağdad, Buxara,
İndi də gəlişim a Yəməndəndi.

Aşıq Alı pirdən içdi nə cami,
Nə axunddu, nə molladı, nə cami...
Nə Firdovsi, nə Səyyadi, nə Cami?
Təcnis, sinədəftər, ayə məndədi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**AYAĞI BELƏ**

Bimürvət yar məni candan eylədi,
Tutubdu dəstində ay ağı belə.
Can deyən dostlarım, can qardaşlarım
Olubdu canıma a yağı belə.

Dar günümdə yetiş dedim, ay ağa,
Müxənnətə göydən bala a yağa.
Bir iyid ki, enə başdan ayağa
Kəsilər dostların ayağı belə.

Ah deyər ömrüm sinə yetəndə,
Oxudum dərsimi sinə yetəndə.
Vədəm tamam olub, sinə yetəndə
Bükəllər qəddimə ay ağı belə.

**BAŞA-BAŞ**

Dost odur ki, öz dostunnan dost ola,
Düşməninnən düşmən ola başa-baş.

Əzizinəm başa-baş,
Oxu dərsin başa-baş.
Bədəsildən qaç qurtar,
Ayaq götür başabaş.

"Can!" deyənə "Can!" – deyinən mərdana,
Baş qoyanın qoy yolunda başa baş.

Aşıq gərək bu meydanda bir qala,
Oxugunan bu dərsini bir qala.

Mən aşıq qala-qala.
Dikilib qala-qala.
Cavan ömrüm çürüdü,
Qürbətdə qala-qala.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ağlayana can vermərəm nə qala,
Baş verənə mən verərəm başa baş.

Aşıq dərdin kim yetirər sənə, yar,
Oxudunmu bu dərdimi sən, a yar?

Aşıq deyər sənə, yar,
Qurban olum sənə, yar.
Tarix keçsə qoy keçsin
Ömür elə sən, a yar,

İstəyirsən yaxa yırtıb, sinə yar,
Əl çəkmərəm olsam candan başa-baş.

Aşıq Alı, həzar dərdə davadı,
Bir dərdim var həzar dərdə davadı.

Yox, aşıq, dava gəzər
Xestələr dava gəzər.
Əsil çay-çörək verər,
Bədəsil dava gəzər.

Davaçısan bu meydanda davadı,
İstəyirsən kəllə vuraq başa-baş.

**AĞ DAMAR-DAMAR**

Dört çahar fəslində ovum ovladım,
Tor gəldi gözümə ağ damar-damar.

Mən aşiqəm yağ damar,
Piltə yanar, yağ damar,
Ürəyimə od düşər,
Sinəm başı sızıldar.

Dedim könül müxənnətdən kənar gəz,
Qatar xörəyinə ağ damar-damar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çeşmin cəllad, qaşın almaz olubdu,
Heyva təki saralıbdı, solubdu,

Mən aşiqəm solubdu,
Saralıbdı, solubdu
Yarı yardan ayırmaq,
Müxənnətdən olubdu.

Mən çəkdiyim cəhənnəmin odudu,
Yanar ürəyimdə yağ damar-damar.

Alıyam, sinəmi çarpaz dağlaram,
Loğman olub yaraların bağlaram.

Mən aşiqəm yara mən,
Yetirmədim yara mən
Dərdə dərman olmadı,
Eyləmədim çara mən.

Bahar buluduyam coşub ağlaram,
Bağban da bəsləyir bağ damar-damar.



Created with
nitroPDF® professional
download the free trial online at nitropdf.com/professional

# DİVANİLƏR



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**NƏDİ**

Havalanma, dəli könül,
Zorunan işin nədi?
Mənsur təki Hələbdə
Dannan işin nədi?
Tut orucun, qıl namazın,
Şükür et Allahına,
Yoxsulsan alçaqdan yeri,
Varınan işin nədi?

Mənəm deyən başa varmaz,
Mənəm demə gerdə dur.
Əl ki gördün qan içində,
Çək ətəyin gerdə dur.
Həqiqət, mərifət haqdır,
Təriqətdə gerdə dur.
Kəc baxma ustad yoluna,
Pirinən işin nədi?

Gəl, biçarə Aşıq Alı,
Qafil olma dilindən,
Şükr eylə iqbalına,
Cüda düşmə elindən,
Əl uzatma hər deşiyə,
Şahmar vurar əlindən,
Sən ki, ovsunçu deyilsən,
Marınan işin nədi?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**BU GÜN**

Gözəllər, məəttəl qaldım,
Bir belə tərlana bu gün.
Ağlımı aldı başımdan,
Günüm oldu qara bu gün.
Ah çəkdim fəğan etdim,
Yetmədim imdadə bu gün.
Günüm tamam ilə döndü,
Tamam yandım nara bu gün.

İqlim üzrə tək yaranıb
Yəqin bilin yoxdu tayı.
Keykavusdan bəri baxdım,
Bəhsin çəkdim yoxdu sayı.
Nəfsimi oda yandırdım,
Haq-taladan alıb payı.
Başı, gözü düz qurulub,
Heyranam naqqaşa bu gün.

Şəmşül Məlik zamanınnan
Belə gözəl görməmişəm.
Çox tərifi mən elədim,
Meyli nədi bilməmişəm.
Ərəsəti izhar etdim,
Cənnət-cəhənnəm demişəm.
Zülmü-sitəm etdi mənə,
Neyliyim əğyara bu gün?

Çox gəzdim bu dünyanı
Tutiyəsən çəkim gözə.
Sənin tayın Reydə gördüm,
Müfsid olma qoyma sözü.
Hicrində mən tək qalmışam
Salırsan manqala, közə.
Ay məleykə, imdad eylə,
Bir busa ver yara bu gün.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ağuşa çək qoyma yanam,
Rəhmin gəlsin rəna mənə.
Tiği zəban olma aman
Ziba kimi zəbun mənə.
Aşıq Alı, uqab ollam,
Meylin olsa gəlsən mənə.
Qulun ollam illərəcən
Məhbub ollam vara bu gün.

**SƏNƏM**

Cümə günü ürcah oldu
Yandı canım nara, Sənəm.
Baxıram mah camala,
Oluram avara, Sənəm.
Çəkirəm həsrətini
Sinədəki vara, Sənəm,
Gözlərimnən axıdıram
Ab ilə leysanı, Sənəm.

Heyranam ol Xudaya,
Sənin tək insan yaradıb,
Tarixdə görməmişəm,
Bir belə ceyran yaradıb.
Züleyxa dünyada nədi,
Səni onnan can yaradıb,
Rəhm elə mən yazığa
Bir busa ver barı, Sənəm.

Qaşın qara, gözün qara,
Olmuşam divanə kimi.
Saçların düşüb dizinə,
Behiştin qılmanı kimi.
Gözlərinə baxmaq olmur
Türkmənin sultanı kimi.
Bir bəri bax üzün görüm,
Qardaşının canı, Sənəm.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çox sağ ol, rəhmin gəldi,
Ülfət qıldın can görürəm.
Sən Alıya məhəl qoydun,
Çox nəcibsən xan görürəm.
Namizədsən öz yarına,
Öz qəlbimi yan görürəm.
Sən mənə bacı oldun,
Məhşər günü tam, Sənəm.

**GƏLƏCƏK**

Qövlü bəla belə qurulub
Həqiqət dövran gələcək.
Mən deyirəm yəqin bilin
Qiyamət divan gələcək.
Çalışgınan savab qazan,
Savabsıza yan gələcək.
Somu Salatınnan bezən,
Qətranı qazan gələcək.

Anadan olduğun günü,
Bilginən ki, qəzan vardır.
Nə iş tutsan bu dünyada,
Xeyir-şəri yazan vardır.
Sağır-fağır incitməsən
Yaxşı əməl düzən vardır.
Torpaq altda lət içində
Nəkreyilə can gələcək.

İnsi-cinsi ol yaratmış
Çəkəcəkdi qəhri-qəza.
Onun tutduğu əmələ
Verəcəkdi əhli cəza.
Çalışgınan yetim doydur
Pis əmələ uyma əsla.
Uruhlar da cəm olacaq,
Qıl körpüyə can gələcək.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tam uruhlar ərəfəyə
Tamam orda cəm olacaq.
Nameyi əməl əllərində
Sorğu-sual qurulacaq.
Yaxşı əməl ol cənnətə
Pis əməlli tam yanacaq.
Ərəsət məhşər olacaq,
Sahib əzzaman gələcək.

Cəm olarlar ərəsətə
Məhəmməd Mustafa gəli,
Aşıq Alı, sənin ağan
Əliyi Mürtəza gəli.
Fatimeyi Zəhra ilə
Həsəni Müştəba gəli.
Zülüm ərşə dayananda,
Şafeyə Hüseyn gələcək.

**DANIŞ**

Yaranannan bu dünyada,
Nə bacarsan az danış,
Meyl eyləmə əyriliyə
Həmişəlik düz danış,
Dalda qalma bir adam ol
Sayılanda az danış,
Alimlərə meydan oxu
Dərdə dərman yüz danış.

Ataların misalıdı
Bu dünyada beş günlük,
Qapılarda yetim qalır
Yaman dərtdi düşkünük,
Elə ki, ölüb gedəndə
Yas tutanlar üç günlük
Paya düşən bu dünyada
Beş arşındı bez, danış.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çox düşünmə, Aşıq Alı,
Qohum da yad kimidi,
Əmi-dayı, qardaş-bacı
Yandıran od kimidi,
Hamsı başa qaxınc olub
Quruca ad kimidi,
Nə olsun ki, ay biçarə
İstəyirsən yüz danış.

**VERİR**

Bu gün bir hikmət görmüşəm
Aləmə iman verir,
Yediyi təkrar yeyilir,
Hamsını tamam verir.
Özü aləmi doyurur,
Nalə çəkir acam mən,
Onun nə ki, yeməyi var,
Cəmini insan verir.

Bir başı var, bir ayağı
Qafası göydə durur.
Çəkilibdi kamanıya
Dabanı ayda durur.
Nə vaxtı var, nə vədəsi,
Hesabı sayda durur,
Hər gələndə xərac alır,
Hesabınan san verir.

Gəl, biçarə Aşıq Alı,
Qoyma ola sözün kəc,
Onun bir adəti vardır,
Gah tox olur, gah da ac.
Özü elə hökm eləyir
Hər gələndən alır bac,
Doğruluğnan hesab alır,
Düzlüyünnən nan verir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## VAR

Ey dilim, qafil olma,
Bir sirri sübhan da var,
Müşkülə kömək olan
Dərdinə dərman da var,
Namərdi başa qaldıran,
Mərdi zəlil eyliyən,
Ol sərdən ayağa salan
Gərdişi-dövran da var.

Bu dünyanı viran yazır,
Bəs abadan hardadı,
Bülbülə soçu safa ol
Gülüşan hardadı
Bu dünyaya sahib olan ol
Süleyman hardadı?
Məhşərətən bir üz deyən
Hakimi-loğman da var.

Min gözün müşkül Alı
Gör hardadı şahı Nəcəf,
Ərəbi qiblə səmtinnən
Gəldi bir şeyxi-ərəb,
Əyləşdi Merac yolunda
Mustafa atdı tişa,
Həbibinən seyrə çıxan
Çox əziz mehman da var.

## NƏDİ

Bar ilahim divan budu
Yetişə dada, nədi?
Müxənnət haqqı unudub
Heç salmaz yada nədi?

Girmə nadan məclisinə
Qədir bilən olmasa,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hərcayı hədyan deyər
Bəy nədi, gəda nədi?

Zatı pakı halal olan
Çaşqın olmaz xanadan,
Mətləbini tez yetirər
Yeri-göyü yaradan.
Tər gedibdi sumu salat
Əlin çəkər üqbadan,
Titriyər polu siratdan
Heç tapmaz cüda nədi?

Ey Alı, dosta yetir,
Dostdan dosta al olmaz,
Həqiqətdən dərs almıyan
Şəriətdən hal olmaz,
Şəriətdən kamil olan
Yetgin olar, kal olmaz
Gəşt eyləyər dəryalarda
Çay nədi, ada nədi?

**BAX**

Ey könül, qafil olma
Əliyül imrana bax,
Məhəmməd şəninə gələn
Ayeyi-Qur'ana bax.
İsmayıl getdi Minaya
Ona qurban olmağa.
Cəbrayıl bir qoç gətirdi
Sürməli qurbana bax.

Adəm ki, yedi buğdanı
Bir görün nə etdilər,

Ol xudadan əmr olundu
Sərəndibə atdılar,
Adəmnən Havva ana



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir-birini tapdılar,
Həvva doxsan oğlan doğdu,
Gərdişi-dövrana bax.

Gəl biçarə Aşıq Alı
Seç bil mövlanı tanı,
Habil vurdu, Qabil öldü
Eylədi nahaq qanı,
Haqq-taladan əmr olundu
Su götürdü dünyanı,
Ol gəmiyə nicat verən
Qadiri-sübhana bax.

**YALVARIRAM**

Sidqinən sığınmışam
Sübhana yalvarıram,
Məhəmmədə tabe olub
Qur'ana yalvarıram.
Məzhəbimdi Cəfər Sadiq,
Qibləmdi Kəbəm mənim,
İlqarımda çox möhkəməm,
İmama yalvarıram.

Atdı şəhadət barmağın
Zəbun etdi Xeybəri,
Çəkəndə "Allahu-Əkbər!"i
Qırdı yüz min ləşkəri,
Alimlərin ümidgahı,
Möminlərin pənahı,
Şahi-Mərdan, şiri yəzdan
Mən ona yalvarıram.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dar günümdü dada yetiş,
Ədalət şahım mənim,
Ey böyük ümidgahım,
Sənsən pənahım mənim,
İsmimdi Aşıq Alı,
Çoxdur günahım mənim,
Günahkarı sən aparma
Divana yalvarıram.

**QIRMIZI**

Həzrət əmir bayram günü
Geyinib don qırmızı,
İsmayıla gəldi qurban
Töküldü qan-qırmızı.
Oxudu "İsmi-əzəm"i
Bağladı zülfüqarı,
Çaldı qılıncı Əntərə,
Oldu meydan qırmızı.

Buyurun mirzələrə
Belə yazsın yazını,
Öz-özünə fikr eyləsin
Xub danışsın sözünü.
Aşıq gərək püxtə olsun
Xam bilməsin özünü,
Girsin eşqin kürəsində
Pişsin büryan qırmızı.

Deyər Aşıq Alı uçub
Bu könlümün pərgarı,
Ustada qulluq etməyən
Kim olar xiridarı.
Mənnən bəhsə duran aşıq
Gəlsin dursun üz barı,
Sərraf mənəm, istiyirəm
Ləli-mərcan qırmızı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**BİZDƏDİ**

Şükür olsun ol xudaya
Adil divan bizdədi,
Dini məssər yolu ərkan
İlqar, iman bizdədi.
Neyliyirəm o məzhəbi
Yoldan xarici ola
Məhəmmədə nazil olan
Ayeyi-Qur’an bizdədi.

İncil İsaya gəlibdi,
Tövrat Musaya ey dil
Qur’an Məhəmmədindi,
Sən gəl onu yəqin bil
Dörd çeşmədən ponqar axar
Həqiqətdə durar göl
Girməynən ki, qərq olarsan
Dərya, umman bizdədi.

Göylərdən dörd kalam endi,
Məhəmmədə Qur’andı,
İnşallah ki, möminləri
O dardan qurtarandı.
Gəl qəm çəkmə, Aşıq Alı,
Ağan Şahi-Mərdandı
Penci-ali Sahibzaman,
On iki imam bizdədi.

**MƏRD**

Məhəmmədə xaliq özü,
Göndərdi Qur’anı mərd.
Altı min altı yüz altmış ayə,
Yüz on dörd surəni mərd.

İlahidən nazil oldu,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Göydən endi dörd kitab.
O, Qur’ana baş əyənlər,
Tez tapır imanı mərd.

Beş kəlməyə aşiq olan,
Sinəsi dəftər gərək,
Haqq-taalanın min bir adı,
Dillərdə əzbər gərək,
Bu aləmə zülm eyləyən,
Olmaya rəhbər gərək.
Açıb cənnət qapısını,
Göstərdi rizvanı mərd.

Gəl, biçarə Aşıx Alı,
Xəbərdar ol dünyada.
Uca könül, alçaq saxla,
Havalanma dünyada,
Haqqın min bir adını gəl,
Gündə üç yol sal yada.
Vaqif ol, haqqın yolunda,
Gəl eylə tövbəni mərd.

**GƏL**

Kəndinə aşığam deyən,
Aşıxsan meydana gəl
Namərd girməz bu meydana,
Mərd isən meydana gəl.
Kəndi olan kəndisini,
Öyməyi layiq döyül,
Şimdi sazın aləminə,
Bu cəngi-dövrana gəl.

Ey arifə, bir salam ver,
Soruşum halın görüm,

Həqiqət haqq aşığısan,
Söylə, kamalın görüm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İncil, Zəbur, Tövrat, Qur’an
Göstər kitabın görüm.
Dostum, əgər bütpərəstsən,
Bu narı-neyrana gəl.

Mən Alıyam tamam leyli-
Nəhar söylərəm mədhi,
Mərifəti, şəriəti,
İnnəqan haq, təriqəti,
İsayısan "İncil"i sev,
Musayisan "Tövrat"ı.
Gər Məhəmməd ümmətisən,
Boyun əy, "Qur’an"a gəl.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**QƏZƏL**[1]

Yeri-göyü xəlq eyləyən, bu məvhu məvaya gəl,
Haqqınan-nahaq arası düşübdü davaya, gəl.

Aman vermir dostlar bu gün, düşmüşəm qəm behrinə
Şərəfyabam bu sənətdən əzəlindən çayə gəl.

Eşq belə bir bəladı, cümlə ona mübtəla,
Nə Məcnuna tənə eylə, gülməz Züleyxaya gəl.

Könül sevən gözəl olur, babalardan qalan söz,
Çatmaq üçün öz yarına, imkan ver Leylaya gəl.

Bir sevgi də bu aləmdi, hamı aşiq dünyaya,
Günüz şəmsi ziyarət et, gecələr də ayə gəl.

Könüllə mən əl çəkmərəm, bu dünyadan agahdı,
Əzrail gürzü çalanda, bacarırsan hayə gəl.

Gözəl şaban şərəfimdi, yadımdadı pənzideh,
Nə şöhrət var gündədi, bel bağla mövlaya gəl.

Pak Qur’andan var savadım, dini dindən seçirəm,
İsbat üçün izah edim, necə çətin ayə gəl.

Hikmətlərdən pür savadam, hünərliyəm isbata,
Həm dərsindən kasadsansa, buyur təmənnaya gəl.

Xuda sənin qəlbindədi, cüda salma özündən,
Bir anın da olmaz onsuz, səbəb etmə xudaya gəl.

Alı, ümüd xudadadır gen gündə sal yadına,
Hey çağırram min bir adı, sal üstümə sayə gəl.

---

[1] Aşıq Alının qələmə aldığı yeganə qəzəlini "Divanilər" bəhsində verilməsini məqsədəuyğun saydıq (*tərtibçi*).



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# AŞIQ RƏVAYƏTLƏRİ



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**AŞIQ ALI İLƏ AŞIQ ƏLƏSGƏRİN DEYİŞMƏSİ**

Gedər oldum, yar-yoldaşım sağ olsun,
Bol olsun çörəyi, aşı dünyanın.
Bundan sonra dərdləriniz durulsun,
Sürmələnsin gözü, qaşı dünyanın.

Ərənlər qoyduğu yolları seçdim,
Dolduruban, eşqin badəsin içdim.
Bir belə sövdayçın sərimnən keçdim,
Ləli-gövhər olsun daşı dünyanın.

Bağla bostan olsun çöllər, səhralar,
Bal ilə yağ olsun, yeddi dəryalar.
Meyvə versin bütün bağlar, ovalar,
İstərəm yaz olsun qışı dünyanın.

Dərdli Kərəm deyər dünya fanidi,
Neçələrin üzü üstə sürüdü.
Kimsə bilməz nə zamandan bəridi,
Heç hesaba gəlməz yaşı dünyanın.

Ustatlar ustadnaməni bir yox, iki deyər, biz də deyək iki olsun.

Arifi-müəzzəm, ey nuri-eynim,
Mənim kimi ömrü bad olan varmı?
Qohumdan, qardaşdan, dostdan, aşnadan
Xəyalı dolanıb, yad olan varmı?

Hər kəs özü mətləbini qanmayan,
Dünya cifəsinə səhl sönməyən,
Fələk əli dəyib, çərxi dönməyən,
Ləzzəti dəhanda dad olan varmı?

Dağlar qan ağlayır, düşüb borana,
Daha bundan sonra çətin yarana,
Göyçə qana batsın, qaldı virana,
Daha Ələsgər tək ad olan varmı?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mənim üçün nə ata, var, nə ana,
Arif görək bu mətləbi tez qana.
Minə qəm atina çıxaq cahana,
Görək bu dünyada şad olan varmı?

Günbəgündən bağlayıram qəm, vərəm,
Könül sakit olub, heç tapmır aram,
Nə Şirin, nə Fərhad, nə yazıq Kərəm,
Abdulla tək cismi od alan varmı?

Ustatlar ustadnaməni iki yox, üç deyər, biz də deyək üç olsun, namərdin ömrü püç olsun.

Açma mətahını naşı tüccara,
Qiymətini bilib, xiridar olmaz.
Bədöyün qocası olsa da arıq,
Sürsən mənzil kəsər, kəmhünər olmaz.

Qaşın fırqətindən dağlar qərəli,
Üç hərifdir yerin, göyün qərəli.
Misə qalay vursən axır qaralı,
Nə lələ bənzəməz, nə gövhər olmaz.

Hüseynəm, sinəmdə haqqın baratı,
Yaxşı iyidin var sözü, söhbəti.
İyidin olmasa binadan zati,
Tanınıb, heç yerdə aşikar olmaz.

Sizə kimdən söylüyüm, haradan söylüyüm, Göyçə mahalının keçən günlərinnən, keçmiş dövranından, adları dillər əzvəri olan ustad aşıxların kamalından, Göyçə mahalının adlı-sanlı aşıxları Dədə Alıynan, Dədə Ələsgərin qavaxlaşmasından.

Bəli, mənim əzizlərim, tarixə yaxşı-yaxşı baxsaq, görərik ki, Göyçə mahalı bizim ulu babamız oğuz tayfalarının doğma vətənidi. Göyçənin adı çəkiləndə saz, söz, ustad aşıxları yada düşür.

Dədə Qorqud döyründən saza, sözə olan məhəbbət bu mahalda yaşayanların, cavanından tutmuş qocalarına qədər hamısının qanına, iliyinə hopuf.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ulularımız yaxşı deyif: "Göyçədə yeni doğulmuş uşax, beşikdə ağlayanda qoşma, təcnis üstündə ağlayır, səsi də saz havasına köklənmiş olur".

Saza, sözə olan bu məhəbbət Göyçə mahalında neçə-neçə ustad aşıxların yaranmasına səvəf oluf. Belə ustad aşıxlardan indi qulluğunuzda ərz edəcəyim Aşıx Alıynan Aşıx Ələsgərdi.

Aşıx Alı döyrünün tanınmış ustad aşığı olan Ağ Aşıxdan dərs alıf, yüksək kamala çatmışdı. Dədə Alı addı-sannı sənətkar olannan sonra, bir çox şəyirdlər yetişdirmişdi. O cümlədən adını fəxrlə çəkdiyimiz Dədə Ələsgər də Dədə Alının istəkli şəyirdlərindən biri olmuş, onun sayəsində yüksək kamala çatmışdı.

Ancaq onu da deyək ki, ustaddan öyrənən şəyirdin də görək öz qabında bir şeyi olsun. Yoxsa bir ustanın noxudnan divar suvamağına oxşayar. Ustanın divara vurduğu noxudlar dığırlanıb yerə töküldüyü kimi, fərsiz şəyird də ustadın qiymətli sözlərini bir qulağından alıf, o biri qulağından çölə buraxıf, küləyəcə verəcək.

Xoşbaxtlıqdan Ələsgər belə şəyirdlərdən döyüldü. Aşıx Alı şəyirdlərinin hamısından daha çox Ələsgərin xətirini istəyər, onun kəskin hafizəsinə heyran qalıf, şəyirdinnən fəxr edərdi. O, Ələsgərin gələcəyinə böyük ümüd gözüynən baxırdı. Ələsgər də ustadına doğma oğul kimi yanaşar, onun hörmətini həmişə əziz tutardı.

Bəli, əzizlərim, artıq Ələsgər də püxtələşmiş, eldə, obada ad-san qazanmış aşıxlardan saydırdı.

İcazə verin, söhbətimizi burada yığcamlaşdırıf, əsas mətləbə keçək. Çox haxlı və maraxlı bir suval ortalığa çıxır ki, axı nejə olur ki, belə istəkli ustadla şəyird arasında inciklik, zidiyyət düşüf, biri-birinə meydan açıf, deyişməli olmuşlar?

Əvvəla, onu deyək ki, mərdimazarın öyü yıxılsın, bu mərdiməzarlar, xayınlar, xəbislər olmasa, dünyada yaşamağa nə var ki, mərdiməzarlar nə ölüf, nə də öləcək, onlar hər döyranda oluf, yaralı çivan kimi həmişə xalqa əziyyət verif, indi də verirlər.

Əhvalat belə oluf: "Göyçə mahalının Çaxırlı kəndində Böyükağa addı, sözü keçən, varlı adam oğluna toy eliyəsi olur. Qohumlarınnan bir nəfəri Aşıq Alının dalınca Qızılvəng kəndinə göndərir, tapşırır ki, gedif Aşıq Alıya deyərsən ki, Böyükağa bazar günü oğluna toy eliyəsidi, durmasın, tez bir bizə gəlsin.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bəli, mənim əzizlərim, Böyükağanın göndərdiyi qasid ağanın sifarişini Aşıx Alıya çatdırır.

Aşıx Alı çıxılmaz vəziyyətə düşür, özü də Böyükağanı yaxşı tanıyırdı. Bilirdi ki, o çox çətin, inad adamdı. Aşıx Alı dedi ki, ay oğul, kəndimizdə bir nəfər kasıb adam oğluna toy eleyir. Özü də keçən həftədən mən ona söz vermişəm. Ələsgəri də Qazağa toya aparıflar, burada olsaydı onu göndərərdim. Ağaya deynən təvəqqe edirəm, mənnən inciməsin, söz verdiyim adamı naumud qoyuf ora gələ bilmənəm, özgə aşıx tafsın.

Qasid Aşıx Alının cavabını Böyükağaya çatdıranda, elə bil Böyükağanı zəhərli bir kürzə ilanı çalır. Hirsindən cin atına minən Böyükağa Aşıx Alını söyüb yamanladı da, ürəyində dedi ki, yaxşı, Aşıx Alı, sən sən ol, mən də mən olum. Bu hayıfı səndə qoysam, onda başımdakı bu qiymətli papax gərək mənə haram ola.

Əziz dinləyicilər, aradan bir müddət keçəndən sonra Çaxırlı kəndində dəli Şirin aldı bir nəfər kasıb adam oğluna toy eliyəsi olur. Dəli Şirin özünü Aşıq Alının yanına çatdırır, şirin dilini işə salıb, onu oğlunun toyuna çağırır. Xoşbaxtlıqdan Aşıx Alı da heç kəsə söz verməyibmi?. Dəli Şirinə deyir ki, arxayın get, gəlib oğlunun toyunu ürəyin istəyən kimi keçirəcəm. Dəli Şirin şad-xürrəm kəndə qayıdır. Onu da deyim ki, Dəli Şirin Böyükağanın Aşıx Alıdan möhkəm incik düsdüyünü bilirdi, elə ona görə də Aşıx Alının yanına naumud gəlmişdi. İndi bu kasıb öz işinin düzəldiyini görəndə az qaldı ki, qanadlanıf uça. Kənddə Böyükağa eşitdi ki, Dəli Şirinin oğlunun toyunu Aşıx Alı eliyəjək, elə bil bədəninə qor doldu. Öz-özünə dedi ki, bir bu ləvənd oğlunun işinə bax. Qohumlarını evinə yığıb dedi ki, bilir-siniz ki, Aşıx Alı mənim oğlumun toyunu keçirmədi, Dəli Şirinin oğlunun toyunu keçirməyə gedir. Biz onu bu məclisdə pisikdirməliyik.

Bəziləri, insafən, dedi ki, ay Böyükağa, sənin adın-sanın var, ayıf döyülmü elə bir ustad aşığı pisikdirirsən? Bir də ki, axı onu kim pisikdirə bilər?

Böyükağa dediyindən dönmədi ki, dönmədi. Dedi ki, Aşıx Ələsgər Qazaxdan gəlif, Aşıx Alının toyda olduğunu ona demək lazım döyül, onu lapdan Alının üstünə gətirmək lazımdır. Alıya da xəlvətcə deyək ki, Aşıq Ələsgər səni yaman hədələyir, deyir ki, iki qoçun başı bir qazanda qaynamaz, mən ustamla qavaxlaşıb, deyişəcəm, Allah ya ona verər, ya da mənə, qoy ilana öz balası qənim



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

olsun, deyiblər. Onu bağlayıf pisikdirə bilsə, ancaq Aşıq Ələsgər pisikdirə bilər.

Bəziləri dedi ki, qoy elə də olsun, biz bunları bir sınaxdan çıxaraq, Allah hansına verər, verər.

Bəli, müxənnətə, söz qəhət ha döyül. Böyükağanın adamları hər tərəfdən Aşıx Alıya çatdırdılar ki, ay Aşıx Alı, sənin çörəyinin duzu yoxmuş, indi öz yetirmən sənə qənim kəsilmək isdəyir. Ələsgər səni yaman yanıyır. Hər yerdə deyir ki, gərək ustamla deyişəm, Allah ya ona verər, ya da mənə.

Aşıx Alı bu sözlərə gah inandı, gah da inanmadı, öz-özünə fikirləşdi ki, axı mən yaxşılıqdan başqa Ələsgərə nə pislik eləmişəm ki, o, məni belə hədələyir. Bir də fikirləşdi ki, əşşi, insan çiy süd əməndir. "Xamır yeyənin fağırı olmur, deyiflər", bəlkə də onu öyrədif, yoldan çıxarıflar.

Bəli, mənim əzizlərim, Aşıx Ələsgəri da aldadıf, həmin məclisə gətirdilər, Aşıx Ələsgər saz qoltuğunda məclisə girəndə artıq, məclisin şirin yeriydi, öz ustadının məclisdə olduğunu görəndə utanıb dayandı, axı ona demişdilər ki, bu toyda sənnən başqa aşıx olmayacax. Getsə, bu o, deməkdir ki, deyişməliyik, Aşıx Ələsgər aldandığına görə çox pərt olmuşdu.

Aşıx Alı da çox çətin adam idi, Aşıx Ələsgəri görəndə deyilənlərə tamam inandı, üzünü Ələsgərə tutub dedi ki, oğul, nə fikirlə gəlifsən, xoş gəlif, safa gətirifsən, deyişmək isdəyirsən, açıq danış, daha orda-burda məni niyə hədələyirsən, a bala? İndi çıxart sazını, bu sən, bu da mən. Aşıq Ələsgər and-aman elədi ki, ustad, mən Sizin bu məclisdə olmağınızı bilməmişəm, bilsəm Sizin icazəniz olmasa, heç gələrəmmi? Bir də, o nə sözdü, nə hədə-qorxu, nə deyişmə, bu nə olan sözdü, ustad? Axı mənim Sizə ata qədər hörmətim var.

Aşıx Alı dedi ki, Ələsgər, mənə dil tökmək lazım döyül, mən sənnən əl çəkəsi döyüləm. Bu məclisdə bu gün söz-söhbətə son qoymalıyıx.

Ələsgər ustadınnan qavaxlaşmaq istəmirdi. Oydu ki, sazını köynəkdən çıxartmadı. Bu Böyükağanın adamları tələb etdi ki, Aşıx Ələsgər, sən qorxursan? Sən ustanın sözünü yerə salma, sazını köynəkdən çıxart. Ələsgər getmək istəyəndə Aşıq Alı dedi, Ələsgər, bir divani deyəcəm, ona qulax as.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aldı Aşıx Alı:

Məhəmmədə xaliq özü,
Göndərdi Qur’anı mərd.
Altı min altı yüz altmış ayə,
Yüz on dörd surəni mərd.
İlahidən nazil oldu,
Göydən endi dörd kitab.
O, Qur’ana baş əyənlər,
Tez tapır imanı mərd.

Beş kəlməyə aşiq olan,
Sinəsi dəftər gərək,
Haqq-taalanın min bir adı,
Dillərdə əzbər gərək,
Bu aləmə zülm eyləyən,
Olmaya rəhbər gərək.
Açıb cənnət qapısını,
Göstərdi rizvanı mərd.

Gəl, biçarə Aşıx Alı,
Xəbərdar ol dünyada.
Uca könül, alçax saxla,
Havalanma dünyada,
Haqqın min bir adını gəl,
Gündə üç yol sal yada.
Vaqif ol, haqqın yolunda,
Gəl eylə tobanı mərd.

Aşıx Ələsgər arif adam idi, başa düşdü ki, ustadı hansı simə toxunur.

O, istədi gedə, Aşıx Alı onun qabağını saxladı. Bütün məclis tələb etdi ki, bir cavab ver. Məcburi Ələsgər sazını köynəkdən çıxardı. Dedi ki, ustad, mən Sizin bu məclisinizə pis niyyətlə gəlməmişəm. Mənim Sizə böyük bir ustad kimi hörmətim var. Onda icazə ver, bir cığalı təcnislə Sizə öz fikrimi bildirim.

Aldı Aşıq Ələsgər öz ustadına necə məsləhət vermək istiyir, tərəfindən ərz edək, Siz də xoşbəxt olun.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aldı Aşıx Ələsgər:
Arif olan bir od düşüb canıma,
Əridib döndərir a yağa məni.

Aşıq deyər, ay ağa,
Yetiş dada, ay ağa,
İllər xəstəsi canım,
Yar gəldi, qalx ayağa,

Ağa olan, qulun salmaz nəzərdən,
Salma nəzərindən, ay ağa, məni.

Kamil ovçu, ovun görcək, sin, ayə.
Oxu dərsin əzəl başdan "sin", ayə.

Aşıq deyər sin ayə,
Tər damlaya sin ayə.
Xəstənin gözü düşmüş,
Yetgin nar, tər sinəyə.

Ömür azaldı, vədə yetdi sin ayə,
Bir gün də bükərlər, ay ağa məni.

Mənim yarım yaşıl geyib inci, dür,
Gümüş kəmər incə beli incidir.

Aşıq deyər incidir,
İnci, mərcan, inci dür,
Yaman övlad, pis qonşu
Qohum-qardaş incidir.

Xəstə düşdüm, bu dərd məni incidir,
Tut dəstimdən, qaldır ayağa məni.

Ələsgərəm, dada gəldi, budu yar,
Bayquşların məskənidi, bu diyar.
Aşıq deyər budu, yar,
Gül bəsləyən, bu diyar.
Canım sadağa verrəm,
Qəbuldursa, budu, yar.

Al xancalı, bağrım başın buda, yar.
El içində salma ayağa məni.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aşıx Ələsgər sözünü tamam edəndən sonra, sazını köynəyə qoymaq istəyəndə, Aşıx Alı dedi ki, Ələsgər, mənim sözüm sözdü, biz bu gün hesabı çürütməliyik. Özü də qıfılbənd, tapmaca kimi şeydi, biz məclisdə bədahətən söz demək bacarığını yoxlamalıyıq. İndi mən hansı vəzndə, hansı rədifdə oxuyuramsa, sən də həmin vəzndə, həmin rədifdə cavab verməlisən, razısanmı?

Ələsgər cavab verdi, yox, ustad, mən qavaxlaşmaq istəmirəm.

Böyükağanın adamları hər iki aşığı daha da qızışdırmağa çalışdılar. Böyükağa dedi ki, aşıq Ələsgər, ə, yumurta ha döyülsən, sınasan, niyə qorxursan? Bir özünü sına görək.

Aşıq Alı sazı zilə çəkib, Ələsgəri həvəsə gətirməyə can atırdı. Aldı aşıq Alı görək şəyirdi Ələsgərə cığalı təcnislə öz fikrini necə bildirir, tərəfindən ərz edək, Siz də şad olun.

Aldı Aşıx Alı:

Kişi odu, öz dostuna dost ola,
Düşməniylə düşmən ola başa-baş.

Aşıq deyər başa-baş,
Oxu dərsin başa-baş.
Bəd əsildən qaç qurtar,
Ayaq götür başa-baş.

Can deyənə, can deyərəm mərdana,
Baş qıyana, baş qıyaram baş-başa.

Hamı heyrətlə göz dikib, Ələsgərdən cavab gözləyirdi. Naəlac qalan Ələsgər sazın zilini zil, bəmini bəm eliyərək meydana girdi. İndi görək ayaqlı, cığalı təcnisdə, eyni rədifdə ustadına necə cavab verir, tərəfindən ərz edək, Siz də xoşbəxt olun.

Aldı Aşıx Ələsgər:
A bimürvət, həsrətini çəkməkdən,
İllərə tən xəstə düşdüm başa-baş.

Mən aşığam başa-baş,
Oxu dərsin başa-baş.
Eşqindən səməndərəm,
Oda yandım başa-baş.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Can deyənə can deyinən mərdanə,
Baş qoyanın qoy yolunda başa-baş.

Məclisi daha da qızışdırmaq üçün əl çalıb
Ələsgəri coşdurmaq istəyirdilər.

Aldı Aşıx Alı:

Fələyin kəməndi möhkəm qalandı,
Bimürvətsən, dost, ürəyin qalandı.

Mən aşığam qala-qala,
Yapışıb qala-qala.
Cavan ömrüm çürüdü,
Qürbətdə qala-qala.

Suleyman mülkündə kimlər qalandı,
İllərə tən üzü gülsün başa-baş.

Məclis get-gedə şirinləşir, canlanırdı. İki nəhəng sənətkar üz-üzə gəlmişdi, kimin məğlub olmagı  kimin qalib gəlməsi səbirsizliklə gözlənirdi.
Aldı Aşıx Ələsgər:

Səndən ayrı mən geymənəm, al, inci,
Geyinibsən, yar, qəddinə al inci.

Mən aşığam al, inci,
Gey qəddinə al, inci.
Dosta xəyanət olmaz,
Qurma mənə, al, inci.

Bir canım var alacaqsan, al İnci
Qoy kəsilsin qilü-qalın başa-baş.

Aldı Aşıx Alı:

Aşıx Alı hazır dərdə davadı,
Bir dərdim var, hazır dərdə davadı.

Mən aşıx dava gəzər,
Dərdlilər dava gəzər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əsil olan nan verər,
Bedəsil dava gəzər.

Davaçısan bu meydanda davadı,
İrəli gəl, kəllə vuraq başa-baş.

Aşıx Ələsgər başa düşdü ki, ustadı dediyindən əl çəkən döyül. Öz-özünə fikirləşdi ki, bəlkə onu yolundan azdıran var. Hər halda o, mənim hörmətli ustadımdı, ona qarşı yumuşaxlıx lazımdı.

Aldı Aşıx Ələsgər:
Ələsgərəm, dərdim budu, ay ağa,
Çeşmim yaşı leysan kimi a yağa.

Mən aşığam, ay ağa,
Piltə yanar a yağa.
Mərd sözün üzə söylər,
Heç yapışmaz ayağa.

Gah bas olan, gah da düşər ayağa,
Kimsə varmaz bu fələknən başa-baş.

Böyükaga ayağa qalxıb gülə-gülə dedi ki, doğrudan da Ələsgərsən ki, Ələsgərsən, gərək ustadından geri qalmayasan. Hər ikinizə afərin. Alı dedi ki, oğul, Ələsgər, sözümüz sözdü, halal olsun, yaxşı gəlirsən, indi səni dini təriqətnən də yoxlayacam. Həmin söz rədifinə özünü hazırla.

Böyükağanın adamları da xısın-xısın danışırdılar ki, Alı da Alıdı, ha, yaman qeyizlənif, deyəsən Ələsgəri çətinə salacax.

Aldı Aşıx Alı:

Məhəmməd Mehraca qədəm basanda,
Səsləndi guşələri, gəldi qıjhaqıj.
Cəbrayıl vah gəldi, ərşi-əladan,
Açıldı şahpəri, gəldi qıjhaqıj.

Aşıx Alı da, bütün məclis əhli də belə fikirləşirdilər ki, Ələsgər cavab deyə bilməyəjək.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aldı Aşıx Ələsgər:

Əli Düldülünü gətirdi ərşdən,
Əlində Zülfüqar gəldi qıjhaqıj.
Tifil ikən qılınc çaldı Əntərə,
Endirdi zərbəsin, böldü qıjhaqıj.

Hər tərəfdən yaşa, Ələsgər yaşa! Aşıx Alı kimi nəhəng ustadın qabağında belə dayandığına görə, Göyçə mahalının o çörəyi, suyu sənə halal olsun!

Aldı Aşıx Alı:

Ağam Zülfüqarı çəkdi qınından,
Zülfüqar, boyandı kafir qanından.
Kafir heç dönmədi öz ilqarından,
Əlində şəmşiri gəldi qıjhaqıj.

Aldı Aşıx Ələsgər:

Məhəmməd tacını verdi Əliyə
Şahid olub getdi, ərşi-əlayə.
Şükür olsun dedi haqqı-mövlayə,
Ərşi-səmavatdan güldü qıjhaqıj.

Aşıx Alı Ələsgərin qabiliyyətinə əvvəlcədən də bələd idi, ancax indi birə on qat onun gözündə ucaldı, ürəyində ona afərin dedi.

Aldı Aşıx Alı:

Aşıx Alı deyər zəhərlə bişdi,
Kəsilib qismətim, qürbətə keçdi.
O, məhşərin günü yadıma düşdü,
Didəmin selləri gətdi qıjhaqıj.

Böyükağa xısın-xısın gülərək dedi ki, ayə, deyəsən ustad yavaş-yavaş yumşalır, qorxusundan kövrəlib. Bərkdən qışqırdı ki, başına dönüm Ələsgər, möhkəm dur!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aldı Aşıx Ələsgər:

Ələsgər badəni əlindən içdi,
Əlinin yolunda canından keçdi.
Axtarıb ummanı, lələni seçdi,
Dayazdan, dərindən bildi qıjhaqıj.

Hamıda böyük maraq, böyük heyrət var idi. Elə bil ki, iki böyük nəhəng qaya baş-başa gəlmişdi. Bu qayalardan biri uçub dağılmalı idi.Camahat hər iki aşığı dönə-dönə alqışladı.

İndi görək Dədə Alı öz şəyirdini hansı rədifdə söz demək imtahanına çəkir tərəfindən ərz edək, siz də şad-xürrəm olun.

Aldı Aşıx Alı:

O, xabi-qəflətdə, şirin yuxuda
Bir pir gördüm, din islamın içində.
Bir qətrə nur gördüm əyləşmiş alim,
Bir sin arasında, damın içində.
Aldı Aşıx Ələsgər:

On səkkiz min aləm, yetmiş iki dil,
Ülfət qalır bir bazarın içində.
Kimi atlas geyir, tirmə qurşayır,
Kimi üryan gəzir qarın içində.

Aldı Aşıx Alı:

Eşidən alimlər, mömün olanlar,
Bizə bəxş elədi ol pərvərdigar.
Tanıyan islama mümkir olanlar,
Qapısız, bacasız damın içində.

Aldı Aşıx Ələsgər:

Qəfilsən, işindən tapmayıbsan baş,
Üz döndərər səndən qohum, yar, yoldaş.
Torpaq soyuq, bədən üryan, kəfən yaş,
Tək qalarsan dar məzarın içində.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Böyükağanın adamları pıçıldaşdılar ki, əyə, deyəsən Ələsgər üstələyir, amma bu bəndi yaman dedi ha! Onlar məclisi daha da qızışdırmaq üçün əl çalır, hər iki aşığı alqışlayırdılar.

Aldı Aşıx Alı:

Bir divan əyləşib, adil, ədalət,
Oxunur şabaxda dəlili-əyyət.
Məhəmməd şəninə verir səlavət,
Gəzir bağı gülüstanın içində.

Aldı Aşıx Ələsgər:

Mən demək nə lazım, özün bilirsən,
Bir gün yaranıbsan, bir gün ölirsən.
Arsız, qəmsiz nə gününə gülürsən?
Yandırırlar səni narın içində.

Böyükağa bərkdən güldü, dedi ki, sən öləsən, bu bəndə lap kökündən vurdu. Əyər bu məclisdə Aşıx Ələsgər üstələsə atamın goru haqqı ona bir at bağışlayacam.

Aldı Aşıx Alı:

Bir neçə təxt qoyub, nuri-Münəvvər,
Hər yana düzülüb yüz on dörd nəfər.
Hərəsində səksən, səkkiz piltə var,
Şölə verir ol məqamın içində.

Məclisində, yaşa, Aşıx Alı, yaşa! Böyükağa dedi ki, ay ustad, deyəsən şəyirdini çətinə salıf, darıxmağa çalışırsan, ha?

Aşıx Alı gülə-gülə dedi ki, mən onu yaxşı tanıyıram, onun hünərinə, qeyrətinə bələdəm. O, darıxan oğul döyül. Amma eşit, Ələsgər, sözümüz sözdü - ya sən, ya mən. Ustad-şəyird bir sınaxdan çıxmalıyıq. Yoxsa, sən deyən kimi "iki qoçun başı bir qazanda qaynamaz".



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aldı Aşıx Ələsgər:

Ələsgər söyləsin sən mətləbi qan,
Belə qərar qoyub qadiri-sübhan.
Unutma ilqarı, itirmə iman,
İman durur düz ilqarın içində.

Aldı Aşıx Alı:

Çağır Şahi-Mərdan, denən, ya Əli,
Museyi-Kazımı, bir də Cəfəri.
Saxlar Alı kimi zəlil müştəri,
Qoymaz qala o zindanın içində.

Böyükağa dedi ki, Aşıx Alı, hər ikiniz sağ olun, sizin hər ikiniz böyük sənətkarsınız. Siz Aşıx Ələsgəri çox bərkə-boşa çəkdiniz. O da sağ olsun ki, öz sənətkarlığını sübuta yetirdi, həm də sizi kimi ustad aşıxnan ayaxlaşa bildi. İndi də bütün məclis əhli sizdən xahiş eləyir ki, izin verəsiniz bu dəfə Aşıx Ələşgər qavağa düşsün. Sizin qoyduğunuz şərtə görə məclis dava etsin. Allah hansınıza verər, verər.

Ələsgər razı olmasa da, Aşıx Alı əl çəkmədi, dedi ki, oxu görüm nə üstündə oxuyursan?

Aldı Aşıx Ələsgər:

Gözəllər sultanı, mələklər şahı,
Şahmarzülfün nə tökmüsən dal-dala?
Boyun sərf üstündə bənzər budağa,
Mürğü-ruhum uçar, qonar dal-dala.

Məclisdə Böyükağa və onun yaxın adamlarınnan savayı, heç kəs nə Aşıx Alının, nə də Aşıx Ələsgərin pisikməsini istəmirdi.

Aldı Aşıx Alı:

Şahmar zülfün çin-çin edib hörəndə,
Görən deyir qoy tökülsün dal-dala.
Bu dünyada şir də yalqız qalmasın,
Qardaş gərək qoşa dursun dal-dala.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hər tərəfdən afərin sədası eşidilir, maraq daha da artırdı.

Aldı Aşıx Ələsgər:

Geydim qəm libasın yasın içində,
Gələcək nəkreyin ya sin içində.
Doxsan min kəlmədə yasin içində,
Neçə yerdə mütəsildi dal-dala?

Məclis əhli də gördü ki, Ələsgər ustadını möhkəm silkələdi. Aşıx Alı da yaman qeyzlənmişdi.

Aldı Aşıx Alı:

Muxənnət heç baxmaz dala, qabağa,
Hərcayini məclisindən qov, ağa!
Yaxşı köhlən cəhd eləyər qabağa,
Yaxşı igid fikir verər dal-dala.

Aldı Aşıx Ələsgər:

Dərs alanlar zikr eləyir, hər ayə,
Bayram ayı demək olmaz hər aya.
Şahlar-şahı özün yetiş haraya,
Mən yalqızam, düşmən verib dal-dala.

Böyükağa dedi ki, Ələsgər, sən niyə tək olursan, kim sənə düşmən ola bilər? Ayə, sən öz bacarığını, ustadına sübut eləməlisən, vəssalam.

Aldı Aşıx Alı:

Xudam səni tək yaradıb, təkbətək,
Gecə-gündüz zikr edirəm, təkbətək.
Aşıq Alı, çək döşünə təkbətək,
Müxənnətdən çək ətəyin dal-dala.

Aldı Aşıx Ələsgər:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bil, ehtiyac deyil, sənə mal indi,
Geyibsən qəddinə, sənəm, al indi.
Can alansan, canım, Sənəm, al indi,
Əzrayılın cəngəlindən daldala.

Aşıx Alı gördü ki, Ələsgər sözü yekunlaşdırdı, təxəllüsünü bənddə demədi. Dedi ki, ay oğul, mən sözü yekunlasdırdım axı. Ələsgər cavab verdi ki, ustad, mənim məqsədim məclisin sonuna qədər "dal-dala" rədifi üstündə oxumaqdır.

Aşıx Alı dedi ki, ay oğul, mən elə belə də bilirdim, daha mən pəs.

Aşıx Alı sazını ona tərəf uzadanda Ələsgər gülə-gülə dedi ki, ustad, onda icazə ver sözümü yekunlaşdırım.

Aldı Aşıx Ələsgər:

Ələsgərəm, əldən getdi buta, yar,
Huşum çaşıb ağlım olub bu tahar.
Sinəm qoydum müjganına buta, yar,
Əsirgəmə, at oxların dal-dala!

Hamı Aşıx Ələsgəri alqışladı. Böyükağanın sevinci yerə-göyə sığışmırdı, ona görə ki, artıx o məqsədinə çatmışdı.

Aşıx Alı dedi ki, oğul, mən sənin qüdrətinə, dərin zəkana bələd idim, belə də olmalıydı. Mən məğlub olsam da, icazə ver, bir təcnis deyim, sən o rədifdə təcnis desən də olar, deməsən də.

Ələsgərin özü də bikef olmuşdu, dedi ki, buyur, ustad.

Aldı Aşıx Alı:

Xəndan, xəbisdən sevinclik yağmaz,
Hirsindən çəkilər ay damar-damar.
Qəza kəməndinə salsa yaxşını,
Qanı cövlan edər, ay damar-damar.

Ələsgər gördü ki, ustadı çox pərişan oluf, odur ki, onun ürəyini ələ almağa çalışdı.

Aldı Aşıx Ələsgər:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Başına döndüyüm, xaliqdi sübhan,
Haçan qüdrətindən yağ damar-damar?
Bir şəyird ki, ustadına kəm baxa,
Onun gözlərinə ağ damar-damar.

Hamı Ələsgərin ustadına olan bu məhəbbətini alqışladı. Aşıx Alının üzü güldü.

Aldı Aşıx Alı:

Məhəbbət eşqindən kənar olmuşam,
Daldalanıb nədən geri qalmışam?
Payız xəzəli tək indi solmuşam,
Saralmış yarpaqlar, ay damar-damar.

Aldı Aşıx Ələsgər:

Sən aşıx elmindən halısan, halı,
Sözü çox uzatsan, uzanar dalı.
Mən də sevməz idim, qovğanı, qalı,
Sağlam canım nədən, bax damar-damar?

Aldı Aşıx Alı:

Alı deyir dünyam oldu dar indi,
Daha qalmayıbdı etibar indi.
Məğlub olub, eyləyərəm ar indi,
Sellənib gözümdən yaş damar-damar.

Aşıx Alının bu etirafı, pərişanlığı Böyükağadan savayı, bütün məclis əhlini, ələlxüsus Aşıx Ələsgəri bərk kədərləndirdi. İndi görək aşıq Ələsgər öz istəkli ustadının könlünü necə alır, tərəfindən ərz eliyək, sizin də damağınız çağ olsun.

Aldı Aşıx Ələsgər:

Ələsgərəm, kamil ustad dərindi,
Bir bağrım var, barı, onu dər indi.

Çox ömrün var, bağlanmayıb, dər indi,
Kükrə şimşək kimi, çax damar-damar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aşıx Ələsgər ustadı Aşıx Alının üzündən öpdü, onu bağrına basıf dedi ki, ustad, inanın ki, Sizin bu toyda olduğunuzu mən bilmirdim. İndi başa düşdüm ki, məni aldadıf, Sizinən qavaxlaşdırmağa gətiriflərmiş. Məni də Siz məcbur etdiniz. Ustad, məni bağışla.

Aşıx Alı da Ələsgərin alnınnan öpüb, onu bağışladı, şəyirdinə uğurlar dilədi. Amma sonralar arayıb, axtarıb, öyrəndi ki, bu qurğunu quran Böyükağa imiş.

**AŞIQ ALININ TÜRKİYƏ SƏFƏRİ**

Bəli, hörmətdi məclisimiz, hörmətdi camahatımız. Ustaddarın bir neçə qiymatdı sözünü qulluğunuzda ərz eliyəjəm. Ustaddarın öləninə allah rəhmət eləsin, qalanına can sağlığı versin, Siznən baravar. Ustaddar deyir ki:

Dilim sana bu nəsyəti deyirəm,
Bu dünya malına sarışma, dilim!
Yəqin bil ki, ölüm haxdı qavaxda,
Qıyamat oduna alışma, dilim!

Bir məclisə vardın dilin olsun lal,
Görənnər qoy sənnən sərf etsin kamal,
Sağına, soluna yağdırma sual,
Hərcayı danışıf, gülüşmə, dilim.

Saxla bu sözdərim, eylə amanat,
Haqqınan düz olan tez tapar nicat.
İstiyirsən başın ola salamat,
Ağzına gələni danışma, dilim!

Musa oda alışmıyıf, nə lazım?
Beybafaynan qonuşmuyuf, nə lazım?
Haqqın özü sirr aşmıyıf, nə lazım?
Gördüyün sirrəri sən aşma, dilim!

Musuya rəhmət, sizə can sağlığı. Bu şeir köhnə aşıx Musanın oluf. Ağkilsəli. Onun sözüdü. İndi də Ələsgərdən birini deyim:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qafil könlüm bu nə yoldu tutufsan,
Sərf edirsən nə kamaldı dünyada?
Dövlətə güvənif, gültək açılma,
Çox sən təki güllər soldu dünyada.

Fələk bərbad etdi hər nizamları,
Zulumnan söndürdü yanan şamları.
Hayıf cavannarın gül əndamları,
Mara-mura qismət oldu dünyada.

Küfrdən bərkitmə könlündə barı,
Top dəysə dağıdar, bürcü, hasan,
Sənin kimi gəzən qara şahmarı,
Fələh kəməndinə saldı dünyada.

Guşimdə sırğadı, sinəmdə dağdı,
Ağlı olan unutmaz, neçə ki, sağdı,
Dövlətdən qismətin beş arşın ağdı,
Çəkdiyin qovğadı, qaldı dünyada.

Yığılar məxluqat, qurular məhşər,
Boyunnarda kəfən, əllərdə dəftər,
Onda vay halına, yazıx Ələsgər,
Özün getdin, sözün qaldı dünyada.

Allah rəhmət eləsin Qul Allahquluya. Bir ustadnamə də onnan deyək:

Könül qulluq elə kamil ustada,
Ustad görmüyənin işi xam qaldı.
Neçə danəndələr getdi dünyadan,
Yerini bir neçə ağlı kəm aldı.

Bivəfaya dedim: "Dur mənnən üzül"
Naməhrəmə baxma, gözdərim süzül,
Nuh ömür eylədi min doqquz yüz il,
Sandı kı, bir səhər, bir axşam qaldı.
Qul Allahquluyam, ay nasib elə,
Səcərdən baş verdi ay nasib elə,
İsgəndər atdandı, ay nasib elə,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nə Cəmşid padşah, nə də cəm qaldı.

Bəli, mənim əzizdərim, sizə haradan xəvər verim, Göyçə mahalının Qızılvəng kəndinnən. Kimnən, Aşıx Alıdan. Aşıx Alı deyir: cavan vaxtımda orda-burda söhbət eliyirdilər ki, Aşıx Alı gələcəkdə gözəl sənətkar olajax. Allah heş kimi kasıv eləməsin. O zamannan elə kasıvıydıx ki, oğru içəri girsəydi, bircə süpürgədən başqa elinə bir şey keçməzdi. O vaxtın pulu bir abbasım varıydı. Kəndin içinə çıxdım kı, mal öldürüf alışma eliyiflər. İki girvəngə ət aldım. Gətirdim öyə, dədəm doğradı, anam tökdü qazana, qoydu ocağın üstünə. Kasıvın öyündə yemək olanda öy gülür, eşik gülür. Öydə bir ala pişiyimiz varıydı. O da sevindiyinnən tufara hoppanıf, yerə düşürdü. Dədəmnən anamın söhbəti də bir-birinə yaman xoş gəlirdi. Söhbətin şirin yerində anam dədəmə dedi:

- A kişi, gəlsən oğlumuzu öyləndirək?

- Arvad, düz deyirsən, gədiyi öyləndirmək lazımdı. Qızdarın xasiyyətini sən bilirsən.

Anam oturduğu yerdə başdadı kəndin başınnan.

- A kişi, filankəsin qızı nətəridi?

Atam dedi:

- Ay arvad, onun dədəsi axmaq adamdı. Bildir yazda mənnən dalaşdı.

Anam yenə dilləndi:

- Bə filankəsin qızı nətəridi?

- Onun da anası dillidi, balası onnan betər olajax.

Gördüm kü, anam öz tayımız, öz baravarımız bir zülümlü kasıf tafdı. Atam dedi:

- Bax, bunun qızını alax.

Aşıx Alı deyir:

Dədəmnən utandım, anamı bir qırağa çəkif dedim:

- Mən onu almıyajam. Anam dedi:

- Anan ölsün, bəs kimin qızını alajaxsan?

- Mən Çamırrılı Niftalının qızını alajam.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O vaxtdar dövlətdi kasıva qız vermirdi. Ona görə bilirdim ki, o bizə qız vermiyəjək.

Anam gedif dədəmə dedi.

Dədəm bilmirəm nəyə umud eliyif dedi:

- Bu saat gedif alajam.

Dədəmin bir köhnə kürkü varıydı. Çiyninə atıf evdən çıxdı.

Çamırrıynan Qızılvəngin arası yaxınıydı. Dədəm Niftalıgilə çatıf qapıyı döyür. İçəridən səs gəlir:

- Kimdi ayə, qapıyı döyən? Atam deyir:

- Niftalı, mənəm.

Niftalı qapıyı aşdı kı, İmirzə kişidi. Dedi:

- Buna yaqın xərc-zad qoyuflar, düzəldə bilmiyif, ona görə gəlif.

Dedi:

- Gəl, ay İmirzə, gəl içəri.

Niftalı İmirziyi çox mərifətnən qarşıladı.

Dedi:

- Ay arvad, çaydan-çörəkdən qoyun. İmirzə, gejənin bu vaxtı bizə nə yaxşı gəlifsən? İmirzə dedi:

- Yaxşı günün olsun, a Niftalı, bilirsənmi niyə gəlmişəm? Niftalı dedi:

- Gəlifsən, belə xoş g'lifsən, belə gözüm üstə gəlifsən. Nə mətləvə gəlifsən düzələr.

İmirzə dedi:

- Yaxşı günün olsun, a Niftalı. Xudavəndi-aləm hamıya oğul- qız toyu qismət eləsin. Mən də istiyirəm oğlum Alıya toy eliyəm.

Arvad da deyir, Niftalı da deyir:

- Allah mübarək eləsin!

İmirzə kişi axır ki, gəlir mətləf üstünə:

- A Niftalı, gəlmişəm ki, qızın Bəsdi xanımı bizim Alıya verəsən.

Ayə Niftalı dəli olmadımı! Əlini belə hərrədi ki, İmirzənin noxtalığına birini qoya. Arvad qulağına pıçıldadı:

- A Niftalı, onun xətrinə dəymə, başdığını çox istə, qoy getsin öyündə ölsün.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Odu ku, Niftalı dedi:

- Ay İmirzə, arvad razıdı. Qızı sənin oğluna verəjəm, amma istədiyimi gərək gətirəsən.

- İsdə qadan alım, görüm nə istiyirsən?

- Sənnən üç yüz manat qızıl pul alajam. On yeddi erkək gətirərsən. Çaxırrıdan dəli Ağayarın atının balasını da gətirərsən. O at Qazaxdan gəlif, Dilboz atdarın cinsinnəndi. El xərci o tərəf-bu tərəf də sənin boynuna.

İmirzə əl verir "Allah mübarək eləsin, a Niftalı" - deyif çıxıf üz tutur Qızılvəngə.

Anam bir də xəvər gətirdi ki, dədən yaman fit çala-çala gəlir. Yağın qızın "hə"sini alıf.

Öz-özümə dedim, axşamnan kişi toxdu, ətin fışqırığıdı, ajıxsın havax çalsa.

Dədəm gəldi. Kürkü atdı öyün ortasına. Arxası üstə uzandı. Əllərini başının altına çatdı. Anam gəlif dədəmin yanında oturdu. Dedi:

- A kişi, nə xəvər gətirdin?

- Öyü xaravanın qızı, sən bilmirsənmi mən getdiyim yerdən boş gəlmərəm.

- Nə dedi ay İmirzə, başdıx-işdik, bizdən nə istədi?

- Ə, nə var, nə istiyə. On yeddi erkək isdiyir, o tərəf-bu tərəf əl xərci mənim boynuma. "Hə" deməsinə bir at balası, üççə yüz manat qızıl pul isdiyir.

Anam o yannan qayıtdı kı, onun yüz manatı bu anasının boynuna. Sonra dedi:

- A kişi, yüz manat da sənin boynuna. On harava ot bişmə, iyirmi harava biç.

Dədəm öysürdü:

- Arvad mənimkini əlli elə, mən düzəldə bilmiyəjəm.

- Düzəldəjən, canın çıxsın.

- Alı, a bala, yüz manat da sənin boynuna.

Aşıx Alı deyir: baxdım gördüm, bunnar elə danışıllar, elə bil gəlin gəlif, lap qapının ağzındadı. Amma ortada nə bir manat var, nə də bir keçiləri. Yerimnən qalxıf dedim:

- Ana, mənim coravımı, ayağımın məsini gəti. Sazımı götürüm gedim. Mən də öz payımı düzəldim gətirim.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aşıx Alı sazını götürüf öydən çıxır. Yay vaxtıydı. Qalxır S'lim yaylağına, At damına, Dəmir təpiyə. Avdiləsərə, Qızıl Xərəvəyə. Bu yaylaxların hamısını gəzif gəlif Əyricədə böyük bir tuxuraya rast gəlir. Görür kü, böyük yığıncaxdı. Bəylər, bəyzadələr əyləşif kef eliyillər. Bir nökər Aşıx Alıyı görüf qavağa gəlir. Aşıx Alı onnan soruşur:

- A bala, bu tuxuru kimindi?

- Dayı, bu Naxçıvannı Kalvalı xanın şaddıx məclisidi. Buyur, gedək.

Aşıx Alı gəldi. Məclisdəkilərə ədəfnən salam verif, əleyk alannan sonra Kalvalı xan soruşdu:

- A quzum, kimin rahatısan?

- Səmənd ağanın rahatıyam.

- Oğlum, sazını çıxart söhbət elə.

Aşıx Alı sazını çıxardıf söhbətə başdadı. Onun çalıf-oxumağı Kalvalı xanın çox xoşuna gəldi. Nökəri səsdədi:

- Get bir at yəhərrə, gəti bura.

Nökər gedif yaxşı bir at yəhərrəyif gətirif Aşıx Alıya verif dedi:

- Bu atı xan sənə bağışdıyır. Kalvalı xan nökərrərə dedi:

- Xurcunu da gətirif qoyun aşığın tərkinə. Yol adamıdı.

Aşıx Alı atı minif Kalvalı xana çox minnətdarrıx elədi. Hamıynan təmənnəşif yol başdadı Şərur mahalına tərəf. Bir kəndə yaxınnaşanda beş-altı uşağa rast gəldi.

Onnar soruşdular:

- Aşıxsanmı?

- Bəli, aşığam. Qadanız alım. Yaxşı məclis olanda çalıf-oxuyuram.

- Aşıx, görürük cavansan. Buralara da nabələdsən. Biz məsləhət görərdik ki, bu cığırnan getmiyəsən.

- Niyə, a bala.

Qavaxda Arakolanı adında bir kənd var. Aşıx Duraxan orda olur. Səni görsə sazını alajax. Düzü qorxuf çəkinsəm də yolumnan dönmədim. Bir azdan at məni endirdi həmin kəndə. Başımı qaldırıf gördüm kü, bir kişi həyəti süpürür. Salam-əleykdən sonra soruşdum:

- Əmi, bura aşıx Duraxanın kəndidi?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dedi:

- Bəli.

Aşıx Alı deyir bir fikirrəşdim ki, gəl Duraxanın öyünü xəvər al. Düz get Duraxanın öyünə. Bir də fikirrəşdim ki Allah çuğula nəhlət eləsin. Çuğul nə ölmüyüf, nə də ölmüyəjək. Gedər Duraxana xəvər verər. Duraxan gəlif atımı da alar, sazımı da. Amma o vaxtın pulu otuz manatım varıydı. O otuz manatı arxalığımın elə yerinə gizdətdim ki, qanıma bulamıyınca ələ keçəsi döyüldü. Çox çək-çevirdən sonra "Allah sənnən mədəd" - deyif atın başını döndərdim. Gəldim düz Duraxanın qapısına. Atı eyvanın sütununa bağlıyıf girdim içəri. Gördüm kü, bir kişi bığlarını eşif qulağına doluyuf. Hər dizinin üstündə bir ipək dəsmal var, düyünün xırdasını duruhal qaynatdırıf yeyir. Qaşıx mənzilinə çatannan sonra dəsmalın birini götürüf bığının bir tərəfini silir. Sonra o biri dəsmalı götürüf o biri bığını silməyə başdıyır. Çəkinə-çəkinə ona salam verdim, amma heş mana tərəf baxıf eləmədi. Çörəyini yeyif qurtarannan sonra dedi:

- Bala, nə istəyirsən, nəyə gəlifsən? Eşidirəm səni.

- Ay usta, gəlmişəm ki, boynumda bir təklif var, onu götürməkdə mana kömək eliyəsən. Həm də sənnən bir kəlmə mərifətdi söz öyrənəm.

Duraxan dedi:

- O boynundakı təklif burda götürülməz. Oğul, get bir həftə buralarda hərrən gəl, mən də bir beş-altı adam düzəldim, addıyax Türkiyəyə. O mətləvin düzəlsə, orda düzələjək.

Aşıx Alı deyir, getdim bir həftə hərrəndim. Gəlif gördüm kü, on səkkiz adam topluyuf. Bir dəst xanəndə, bir dəst kəndirbaz, bir də Sarvannan kəndinnən Əsəd adlı bir qalyan-qorçu götürüf. Ayda otuz manata behləşmişdilər. Aşıx Alı deyir fikirrəşdim ki, nə qədər pul qazanajıyıx ki, otuz manat da qalyan-qorçuya verəjiyik.

Duraxan dedi:

- Yaxşı olajax. Addıyajıyıx Türkiyəyə. Gələndə də gəlif toyunu eliyərsən.

Aşıx Alı deyir eşiyə çıxdım kı, atın hörüyünü dəyişəm. Gördüm kü, kəndçimiz Ramazan kişi Şərurdan Göyçüyə düyü gətirir.

- Salam-əleyküm, Aşıx Alı. Oğul, gedirsənsə, baravar gedək.

- Yox, ay Ramazan əmi. Mən Türkiyəyə gedirəm. Bəlkə getdim ölüv-itdim, heş qayıda bilmədim.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Ayə, niyə durduğun yerdə ölürsən? Çətinnik varsa, qayıdax kəndimizə. Daha niyə ölümnən-itimnən danışırsan?

- Ay Ramazan əmi, toy xərcini toplamasam, ölsəm də qayıdan döyüləm. Bir namə yazım, apar Bəsdi xanıma ver. Aldı görək Alı nə dedi. Biz də deyək, siz də həmişə şad olun.

Aman qasid, sən allahı sevirsən,
Mənim ərzim o canana deginən.
Qohum, qardaş, dost-müsahib olanlar,
Göz dikməsin qoy bu yana deginən.

Yeriyib vətənə varannan sonra,
Sən bizim elləri görənnən sonra,
Aparıf naməni verənnən sonra,
Dilcavavı yana-yana deginən.

Vəsmim dastan oldu, düşdü dillərə,
Heyif oldu, yetişən yox hallara,
Aşıx Alı düşdü tozdu yollara,
Yolum düşdü el Osmana deginən.

Ramazan kişi irəli yeriyif Aşıx Alının boynunu qucaxlıyıf üzünnən öpüf ağladı.

- Ayə, mən atanın çörəyini kəsmişəm. Məni yaman köyrəltdin. Haraya gedirsən, yoxsa səni məcburu aparıllar?

- Yox, ay Ramazan əmi. Ozüm gedirəm pul düzəldəm gətirəm. Özümə toy eliyəm.

- Allah üstünnən getsin, a bala. Cənabi Əmir ağam səni öz pənahında saxlasın.

Aşıx Alı kağızı Ramazan kişiyə verif dedi:

- Bu atı da apar dədəmə ver.

Halal-hümmət eliyif ayrıldılar. Duraxan yoldaşdarını da çağırdı. İyirmi bir nəfər dəstə bağlıyıf Türküyəyə addadılar. Bir göylükdə əyləndilər. Aşıx Duraxan dedi:

- O şəhəri görürsünüzmü? O şəhər Muş şəhəridi. Hər kəs də öz dəstəsini götürüf şəhərin bir küçəsinnən gedəjək. Kim boş gəldi, kim dolu fərqi yoxdu. Pulu bu göylükdə mən özüm böləjəm.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aşıx Duraxan, Aşıx Alı, qalyan-qorçu Əsəd bir küçəynən gedirdilər. Gəlif gördülər ki, bir çardağın altında üç paşa əyləşif.

- Mərhaba, paşam.

- Mərhaba, quzum. Quzum, yanşaxsınız?

- Bəli, paşa sağ olsun, yanşağıx.

Yanşıyın dinniyək. Xoşumuza gəlsə, sizə eylik eliyəjəyik. Xoşa gəlməsə, şəhər böyükdü, genə gedərsiniz öz yolunuznan.

Sazdan çıxartdıq. Köklüyüf bir-birinin üstə düzəltdik. Yayın isti günündə elə bir şövqnən oxumağa başdadıx ki, gəl görəsən. Aşıx Durxannan çıxan səs göydə, ala buludda əyləşirdi. Camaat səsimizə axışıf gəldi. Pul başdadı yağış kimi yağmağa.

Aşıx Alı deyir gözümün qırağınnan pula baxdım. Ürəyimdə Allaha yalvardım ki, nolaydı, payıma iki yüz yetmiş manat düşəydi.

Bir də gördüm kü, uca boylu bir adam gəldi. Boyda-buxunda Koroğluya on təpik vurmuşdu. Əynində bir şalvarı varıydı, hər civinə üç yaşında bir uşax salsaydın bilməzdin hayana getdi. Başındakı fəsinin ortasında da yarım girvəngədən artıx qotazı varıydı Ədəfnən salam verif dizini yerə qoydu. Civinnən bir ipək dəsmal çıxartdı. Pulu dəstələyif saydı, sonra dəsmalın arasında qoydu. Ayağa qalxıf pulları şalvarının civinə salıf dedi:

- Yanşaxlar, üç yüz iyirmi manat quruşunuz oldu.

Bunu deyif heş nə olmamış kimi kir-kirimiş çıxıf getdi. Mən dözə bilmiyif Aşıx Duraxana dedim:

- Ay usta, qoyma pulu apardı.

Aşıx Duraxan dedi:

- A bala, bunu sən tanımırsan, uzun pazdı, başımıza oyun açar, qoy aparsın. Gedif o biri küçədən yığarıx.

Dedim:

- Əmi, o pulu yığana kimi yayın istisində gözümə qan damıf. Sazın köynəyinin harada qalmasına baxmıyıf, düşdüm bunun dalıncax. Gördüm bu yoxdu, amma ağac çarpayının üstündə bir paşa əyləşif. Bunnarın salamını öyrənmişdim. Əl köksümə qoyuf baş əydim. Dedim:

- Mərhaba, paşa!

- Mərhaba, quzum. Buyurun mətləbinizi deyin. Sizi dinniyirəm.

- Paşam sağ olsun, bu nişan bir oğlan bizim quruşdarımızı qaçırıf, bu doqqaza girdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Oğul, o qaçırtmaz. O mənim aşığım Yığvaldı. O yaqın sizə bir qafiyə deyif. Siz də cavab verə bilmiyifsiniz.

Dedim:

- Paşam sağ olsun, gəlsin o qafiyiyi burda desin. Əgər cavaf verə bilməsək, onda bizim döyranımız ona halaldı.

Paşa Yığvalı çağırtdırdı. Yığval gəldi. Diz üstə çökdü, əl köksünə qoyuf paşıya baş əydi. Paşa soruşdu:

- Oğul, bunnar müsafirdilər. Niyə bunnarın quruşunu qaçırdıfsan?

Yığval dedi:

- Paşa sağ olsun. Mən para qaçırtmamışam. Bunnara bir qafiyə demişəm, cavab verə bilmiyiflər.

Bu arada Duraxan da gəlif burya çıxmışdı. Aşıx Alı dedi:

- Paşam, budu ustadım da gəlif çıxdı. Sənin aşığın bizə heş bir bağlama-zad demiyif.

Usta deyəndə qayıtdım Duraxanın üzünə baxdım. Onun qulağına dolanan bığları qorxusunnan aşağı tüşüf, xırman çalğısı kimi boğazının altınnan düyünnənəsi olmuşdu.

Paşa dedi:

- Oğul, fərqi yox, indi ya sən, ya da sənin ustadın düşün qavağa.

Mənim aşığıma bir qafiyə deyin.

Aşıx Alı dedi:

- Paşa sağ olsun, ustadımın mana çox əziyyəti oluf. Mən razı olmaram ki, ona genə zəhmət verim. Mən sənin aşığınnan bajarmasam, onda ustadım meydana girəjək.

Aldı Aşıx Alı görək nə dedi:

Gəndinə aşığam deyən,
Aşıxsan meydana gəl
Namərd girməz bu meydana,
Mərd isən meydana gəl.
Gəndi olan gəndisini,
Öyməyi layıx döyül,
Şimdi sazın aləminə,
Bu cəngi-dövrana gəl.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aldı Yığval:

Sən ki, varsan bir adasan
Axırsan ümmana gəl,
Mən danışım, sən qulax as,
Mərfətə, ərkana gəl.
Sən satansan, mən də alan,
Açkınan mətahını,
Malın satma hər nadana,
Xırdarın alana gəl.

Duraxan baxıf gördü, bu cavan aşıx özünə görə döyül. Yığvalı lap təntidif. Bir də ürəyinə gəldi ki, birdən ustadı meydana çağırallar. Biavırçılıx olar. Ona görə qalyan-qorçuya dedi:

- Əgər desələr, usta da oxusun, sən tez dillənif denən ki, usta yornuxdu.

Aldı Alı görək nə dedi:

Ey arifə, bir salam ver,
Soruşum halın görüm,
Həqiqət haqq aşığısan,
Söylə, kamalın görüm.
İncil, Zəbur, Tövrat, Qur'an
Göstər kitabın görüm.
Dostum, əgər bütpərəstsən,
Bu narı-neyrana gəl.

Paşa dilləndi:

- Sağ ol, Aşıx Alı. İndiyə qədər mən bilmirdim ki, bu nə məssəvə qullux eliyir. Elə yaxşı eliyif soruşursan.

Yığval dedi:

- Paşa sağ olsun, indi söznən kim olduğunu bəyan eliyəjəm.

Aldı Yığval:

İsayiyəm, Musayiyam,
Hər nəyəm öz yolumda.
Haqqınan söz söylərəm,
Mə'rifət kamalımda.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şimdi paşam qulluğunda,
Sədirəzəm yanında.
Haqqında divan kəssələr,
Ədalət divana gəl.

Paşa dedi:

- Kəs, nadürüst oğlu, nadürüst. Bu cavan aşıx sənnən dörd kitavı xəvər aldı. Bu nə cavabdı verirsən. Dörd kitabın birinə də yiyə durmadın.

Aşıx Alı dedi:

- Paşa sağ olsun, görünür, o öz millətini, hələ tapa bilmiyif. Yazıxdı, deyim, qoy örgənsin.

Aldı Alı:

Mən Alıyam tamam Leyli
Nahar söylərəm mədhi,
Mə’rifəti, şəriəti, innəqan haxdı, təriqəti,
İsayisan "İncil"i sev,
Musayisan "Tövrat"ı.
Gər Məhəmməd hümbətisən,
Boyun əy, "Qur’an"a gəl.

Yığval dedi:

- Paşa sağ olsun, mən də Məhəmməd hümbətiyəm. İndiyə qədər soruşmuyufsan, mən də deməmişəm. İndi icazə versən söznən deyərdim:

Aşıx Yığvalam, bilin,
Fərzi-sünnət qanıram.
Əlif Allahın adıdı,
Bey peyğəmbər tanıram.
Tay Tabərrah, qəni Allah,
Ona səjdə qılıram.
Xilqətimdi Adəm ata,
Sey xaki-yeksanə, gel.

Paşa dedi:

- Oğlum, indi də mənim aşığım qavağa düşəjək. Siz cavaf verəjəksiniz.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aldı görək Yığval Aşıx Alıyı nejə imtahana çəkdi.

O nədi ki, otuzunda cavandı,
On beşində qojalanar, uludu?
O nədi ki, dili ayrı, sözü bir,
Hansı dərya, hər dəryadan doludu?

Duraxan baxıf gördü kü, Yığval yaman qəliz məsələlərdən yapışıf. Öz-özünə fikirrəşdi ki, bu çox çətin açılajax. Qalyan-qorçu Duraxanın üzünə baxanda gördü kü, ustad yaman qorxuya düşüf. Ona ürək-dirək vermək üçün dedi:

- Qorxuf eləmə, Aşıx Alı cavavını verəjək.

Aldı görək Aşıx Alı nə cavaf verdi:

O aydı ki, otuzunda cavandı,
On beşində qojalanar, uludu.
O qələmdi dili ayrı, sözü bir,
O elmdi hər dəryadan doludu.

Duraxan qalyan-qorçu Əsədə dedi:

- Əsəd, mən elə bilirdim ki, bu kişinin başı dəryadı. İndi gördüm kü, kişinin oğlunun başı dərya döyülmüş ümmanıymış.

Aldı Yığval görək sözün o biri xanəsində nə dedi:

O nədi ki, qışda dağlar bürüyər?
O nədi ki, əl dəyməmiş hörülər?
O nədi ki, amanata verilər?
O nədi ki, o da onun gülüdü?

Aşıx Alı görək nejə cavab verdi:

O qardı bil qışda dağlar bürüyər,
O könüldü məhəbbətnən hörülər.
O urufdu amanata verilər,
İlqar, iman o da onun gülüdü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aldı Yığval:

O nədi ki, hax yanında nahaxdı?
O nədi ki, yerə-göyə dayaxdı?
O kimdi ki, yatmıyıfdı, oyaxdı?
Aşıx Yığval hər elmdən halıdı.

Aldı Aşıx Alı:

Böhtan sözdü hax yanında nahaxdı,
Hax nəzəri yerə-göyə dayaxdı.
Haqqın özü yatmıyıfdı, oyaxdı,
Bu sözdəri açan Aşıx Alıdı.

Söz tamama yetişənnən sonra Paşa dedi:

- Alı, oğul, indi növat gəlif sana yetişdi. Yoxla bu Yığvalın qavını, görək bir şeyi varmı?

Aldı görək Aşıx Alı nə dedi:

Mərifətdən kamal alan, ay aşıx,
Şəriəti neynən elərsən aşkar.
Bey altınnan o noğdanı bəyan et,
O noğdadan elə məni xəvərdar.

Paşanın aşığının gözü buz üstə çıxmış dana gözünə döndü. Dili tutula-tutula dedi:

- Paşa sağ olsun, havanın istisi, sazın səsi beynimə düşüf. Mən hamısını birdən açajam.

Duraxan söyündüyünnən qalyan-qorçusuna elə bir dürtmə ilişdirdi ki, yazıx az qaldı gedif düşə Əzrayılın siyahısına. Qalyan-qorçu baxdı kı, Aşıx Duraxanın bığları söyündüyünnən yaman qalxıf, zalım oğlu elə şöyqə gəlif ki, bir də bayaxkı kimi ona bir dürtmə də ilişdirsə, onda qəvrinə arvad-uşax ömürrük həsrət qalajax. Ona görə qaçıf özünü soxdu camaatın arasına. Aşıx Alı Yığvalın ilişdiyini duyuf dedi:

- Paşa sağ olsun, neyniyək, qoy mən deyim o hamısını birdən açar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Səkkiz cənnət, yeddi dami yaqın var,
Yerdədi, göydədi, hardadı ənnar?
Ərşdə iki quş var, göydə dən dənnər,
Gah pünhan olullar, gah olur aşkar.

Yığval tez əlini qaldırıf dedi:

- Paşa sağ olsun, tafdım.

Paşa dedi:

- Nədi?

Dedi:

- Aynan, gündü. Əgər desə ki, aynan, gün döyül, demək bunun dediklərinin öyü yoxdu, yalan danışır.

Aşıx Alı dedi:

- Paşa sağ olsun, indi ki, Yığval deyir yalandı, onda bu bağlamanı özüm açajam, gör yalandı, yoxsa doğru.

Aldı görək Aşıx Alı öz bağlamasın nejə aşdı:

Deməginən bu sözdərim yalandı,
Ay, gün, Zümrüd zhu quşa büləndi
Zatı Zülcəlaldı, özü kəlamdı,
Peyğəmbərdən qaldı hədsi mötəbər.

Aşıx Alı dedi:

- Paşa sağ olsun, mən sənin aşığınnan o sözü xəvər aldım ki, Məhəmməd peyğəmbər salavatüllahi Meraca gedəndə yeddinci göydə qavaxlarına iki qatar dəvə çıxdı. Dedi:

- Ay Cəbrayıl, əylənək bu dəvə qatarının dalı üzülsün.

Dedi:

- Ya peyğəmbər, bu dəvə karvanının dalı üzülmüyəjək.

Dedi:

- Bə bu dəvələrin yükü nədi?

Dedi:

- Ya Rəsul Allah, bir qatarın yükü sənin möcüzatındı. O biri qatarın yükü də Əlinin səxavətidi.

- Paşa sağ olsun, mən sənin aşığınnan iki qatar dəvəni iki quş mislində soruşdum. O dedi: aydı, gündü; ay, gün olmasa, yalandı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aldı Aşıx Alı görək o biri xanədə nə dedi:

Mərifətdən şəriətə gəlmişəm,
Təriqətdə yol ərkanı bilmişəm.
Aşıx Alı deyər mətəl qalmışam,
Çarxı-dəvvarədə neçə elm var?

Paşa öz aşığına dedi:

- Aça bilmədin, nataraz oğlu, nataraz. Get mehmannarın paralarını gəti. Sən soruya cavaf verə bilmədin, bağlandın. Onnardan aldığın paranın üstünə də bir o qədər qoyuf bunnara qaytarmasan, dərinə saman təpərəm.

Yığval gəlif paraları gətirif artıxlamasınnan aşığa verdi. Paşa Öz aşığına təpindi ki, get bir də gözümə görünmə. Paşa üzünü Alıya tutuf dedi:

- Oğul, qal mənim yanımda, aşığım ol. Sizə çox eyliy eliyərəm. Alı dedi:

- Sağ ol paşam, bizim ayrı mətləbimiz var. Aşıx Alı paşaynan halal-hümbət eliyif ayrıldı.

Aşıx Duraxan yoldaşdarına tafşırmışdı ki, kim nə qazanır qazansın, yığılan pulları bu çəmənnikdə mən özüm böləjəm. Gəldilər şəhərin kənarına çıxanda gördülər ki, yoldaşdarının hamısı oraya yığılıf. Aşıx Duraxan bığlarını eşif qulağına dolayannan sonra pulları tökdü ortalığa. Aşıx Duraxan pulları qardaş malı kimi böldü, hər kəsin payını verənnən sonra dedi:

- Aşıx Alı, Allah sana min bərəkət versin. Həmişə gəlif hamımız burdan iki yüz manat yığardıx, qalmışım o nətərəst oğlu əlimizdən alıf qaçırardı. Bu xeyri sənnən gördük. Əgər iki ay bizdən sonra qayıdıf gəlsən toy xərcini çıxararsan.

Aşıx Alı baxıf gördü ki, onlar geri qayıtmax, vətənə getmək istiyillər.

Qalyan-qorçu Əsəd dedi:

- Aşıx Alı, aylığımı artırsan, mən sənin yanında qalajam. Qalyan-qorçuyu ayı otuz manata tutuf gətimişdilər. Aşıx Alı dedi:

- Mən sana ayda əlli manat verəjəm.

Bunnar bir-birrərinnən görüşüf halal-hümmət eliyif ayrıldılar. Duraxanın dəstəsi Şərur mahalına qayıtdı. Aşıx Alı qalyan-qorçu



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əsədi yanına alıf üz tutdu Qars dağlarına tərəf. Sarıqamış dağlanın, yaylaxlarını görənnən sonra dedi:

- Əsəd, bura bizim yaylaxlara nə qədər bənziyir.

Bu yerdə Aşıx Alı köyrəlif, sazını köynəyinnən çıxartdı. Aldı görək nə dedi:

Süsənni-sünbüllü, tər bənövşəli,
Yaylax, bizim yaylaxlara bənzərsən.
İçən ölməz abi-kövsər suyunnan
Bulax, bizim bulaxlara bənzərsən.

Qalyan-qorçu Əsədin bu sözdərdən ruhu təlatümə gəldi. Vətən onun da yadına düşdü. Özü də yaman düşdü. Doluxsunuf dedi:

- Aşıx Alı, doğrudan buralar Qızıl xərəvəyə, At daşına, Əyriciyə, Verst dağına, Səlim yaylağına, Gəzəldəriyə nejə də oxşuyur.

Aşıx Alı baxdı kı, qalyan-qorçu Əsəd də yaman köyrəlif. Aldı sözün o biri xanəsini:

Zərzivil, xan Keyti, Daşkət baxarı,
Ağ sürülər Sarı yaldan yuxarı.
Gözəllər seyr edər o yaylaxları,
Yaylax, bizim yaylaxlara bənzərsən.

Deyər Aşıx Alı daş
Gözəldərə, Şəqayiq-çiçəkli xoş Gözəldərə.
Əyricə, Verst dağı, Baş Gözəldərə,
Oylax, bizim oylaxlara bənzərsən.

Söz tamama yetir. Bunnar yol başdıyıf getməkdə olsunnar. Birdən göyün üzü dumannan, çisəkdən elə tutuldu ku, göz-gözü görmədi. Aşıx Alıynan qalyan-qorçu Əsəd bir-birinnən aralı düşdü. Bir xeyli ora-bura döyükənnən sonra gördülər ki, xoruz səsi gəlir. Elə bu arada Əsədin qavağına üç-dörd uşax çıxdı.

- Salam.
- Əleykümə salam.
- Əmi, aşıxsınızmı? Qalyan-qorçu Əsəd dedi:
- Hə, aşığıx.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

- Əyər aşrxsınızsa, yazıxsınız, bu kəndə getmiyin. Bura Qullar-baydar kəndidi. Əsmər xanım gəlif orda söhbət eliyir. Sizi görən kimi sazınızı əlinizdən alajax.

Əsəd dedi:

- Ayə, mən aşıx ha döyüləm. Özüm zarafat eliyirəm. Aşıx o daldan gələndi.

Aşıx Alı gəlif onnara çatdı. Soruşdu:

- Əsəd, bunnar nə deyillər?

Dedi:

- Aşıx Alı, deyillər kənddə sünnət toyu var. Dəllək gəlif, aşığın dalınca adam göndəriflər. Özünüzü tez çatdırsanız, elə məclisi sizə tafşırardılar.

- Ayə, Əsəd, soruşdunmu bu hansı kənddi? Dedi:

- Soruşmuşam. Bura Qullar-baydar kəndidi.

Gəlhagəl, gəlhagəl axır ki, gəlif kəndə çatdılar. Baxdılar camaat dəstə-destə bir tərəfə axışır. Soruşdular:

- Bu nə yığıncaxdı?

Dedilər ki, Əsmər xanım Dağıstannan gəlif. Camaat onun gözəlliyinə tamaşa eləməyə, məlahətdi səsinə qulağ asmağa gedir. Aşıx Alı dedi:

- Əsəd, biz də gedək.

Gəlif gördülər ki, o qədər camaat yığılıf ki, bir çuval dan töksən biri də yerə düşməz. Balaja, gödək adamlar uzunnara beş manat verif çıxıf onnarın çiyninnən baxır.

Yığışannar Aşıx Alıyı görüf dedilər:

- Ayə, bir aşıx da gəldi, yol verin görək.

Camaat Aşıx Alıya yol verdi. Aşıx Alıynan qalyan-qorçu Əsəd məclisin ortasına girdilər. Aşıx Alı dedi:

- Əsəd, aşıx aşığın məclisinə sazdı girməməlidi. Səhvə yol vermişik. Allah axırını xeyir eləsin.

Aşıx Alı əlini köksünə qoyuf  baş əydi.

- Xanım, bizi bağışda. Saznan məclisinizə gəldiyimizə görə günahkarıx.

Xanım dedi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Anama qurvan olasan, elə zarafatdar keşməz.

Aşıx Alı baxıf gördü kü, özü də xanımın başındakı qırx qızın içində bir qan da var. Kankannıx elminin dədəsini yandırıf, yerin yeddi qatınnan xəvər verir.

Xanım dedi:

- Adam isdiyirəm ki, bu aşığı mənnən zamına götürsün.

Axşamın qara sərinində bunnan danışajam.

Mehdixan addı bir adam irəli çıxdı.

- Xanım, mən götürrəm zamına.

Dedi:

- Ünvanını de.

Mehdixan ünvanını yazıf ona verdi. Xanım dedi:

- Əgər aşıx qaçarsa, öyün dağılajax.Mehdixan Aşıx Alıynan Əsədi götürüf öyünə getmək isdiyəndə xanım dedi:

- İki qız, əlinizdə simli qamçı bunnarı aparın Mehdixanın öyünə qoyun. Axşamüstü gedif gətirərsiniz.

Əsəd qızdarın cavannığını, gözəlliyini görüf papağın dalını günortaladı. Aşıx Alıya dedi:

- Aşıx, xudavəndi-aləm elə eləsin ki, bağlanmıyasan. Bir il beləjə gedək-gələk.

Qızdar bunnarı gətirif Mehdixanın öyünə qoydular.

Mehdixan dedi:

- Aşıx Alı, sən məni tanımırsan. Mən Qazax mahalınnanam. Adım Mehdixandı. Düşmannı olduğumnan buraya addamışam. Bu çəpəl çox qabil sənətkardı, on səkkiz şəyirdi var. Çox aşıxları bağlıyıf, sazını alıf. Sizin də sazınızı alajax.

Qalyan-qorçu Əsəd dedi:

- Qardaş, qurddan qorxan, qoyun saxlamaz. Bə bu bədbəxt oğlu kişinin əlinnən qaşsın, arvadın əlinnən qaşsın, bə bu harda aşıxlığ eliyəjək?

Mehdixan dedi:

- Siz qaçın, qoy mənim öyümü dorq eləsin. Mən təzə öy alaram. Amma sizin kimi eloğlularım bu qəriflikdə pisikməsin.

Elə təzəcə yeyif-içif kəmərin altını bərkitmişdilər ki, qızdar qapının ağzını kəsdilər:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Xanım sizi çağırır.

Mehdixan, Aşıx Alı, qalyan-qorçu Əsəd qızdarın yanına tüşüf məclisə gəldilər.

Gəlif gördülər ki, xanım şəhərin küçələrinə yazıf yapışdırıf ki, ay camahat, sizi Göyçə mahalınnan, Qızılvəng kəndinnən gələn bir aşığın vay gününə baxmağa çağırıram. Hamı gəlif baxsın.

Xanım Aşıx Alıyı yanına çağırıf dedi ki, gəl belə bir şərt kəsək. Əyər mən səni bağlasam, boynunu vurdurajam, zindana saldırajam, dar ağacınnan asdırajam, o mənim işimdi. Və sən məni bağlasan, şərtin nə olajax?

- Xanım, birinci mənim sənin şərtinnən qorxum yoxdu. İkinci camahatdan da, sənnən də xahiş eliyirəm ki, bizi bağışdıyasınız.

Biz günahkarıx. Çünki aşıx aşığın üstünə sazdı getməz.

Əsmər xanım dedi:

- Anama qurvan olasan, aşıx. Heş bir bağışdamax olmuyajax.

Qavağa mən düşəjəm. Cavaf verə bilməsən, Göyçüyə nə ismarışın varsa, indidən bu yanındakına söylə.

Aldı görək Əsmər xanım nə dedi:

Bir qəriv aşıxsan düşüf güzarın,
Nahax yerə bu sınağa gəlifsən.
Neçə aşıxları salmışam bəndə,
Hamısına son sadağa gəlifsən.

Aşıx Alı dedi:

- Xanım, gəlmişəm bir, qayıdım gedim iki. Mənim sənnən bir qəsdi-qərəzdiyim yoxdu. Boynumu vurduruf, nə qazanajaxsan? Kasıv oğlanam, qoy gedim bir təhəri başımı saxlıyım.

Xanım dedi:

- Sözə cavaf verirsən, ver, verə bilmirsən, əmr eliyim boynunu vuruf, canını bu dünyanın əzavınnan birdəfəlik qurtarsınnar.

Aşıx Alı dedi:

- Xanım, deyəsən sənin qavağınnan qaşdıxca ayağın yaman yer alır. Sən mənim yox, heç Göyçəli bir çovanın da əlinnən saz ala bilməzsən. Arvadsan deyə səni biyavır eləmək istəmədim. İndi özünnən küs.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aldı Aşıx Alı:

Bəyənmirsən mənim kimi aşığı,
Sənin başın dağlamağa gəlmişəm.
Sazını sözünü, bir də özünü
Dustax edif saxlamağa gəlmişəm.

Xanım baxdı ki, yox, deyəsən, bu, özünə görə döyül.

- Aşıx, indiyə qədər bəlkə də sana rəhm eliyərdim. Bələ yekə- yekə danışdığına görə başınnan qavax dilini kəsdirəjəm, dilini.

Qalyan-qorçu Əsəd baxdı gördü kü, xanımın başındakı qızdar təpədən-dırnağa sarı kətan geyif. Aşıx Alı qalyan-qorçunun üzünə baxanda gördü kü, Əsəd qızdara baxıf qısır inək danası kimi yalam-yalam yalanır. Aşıx Alının ölüv-öldürməyinin ona heş bir istisi, soyuğu yoxdu.

Alı gülə-gülə Əsmər xanıma dedi:

- Xanım, vejinə alma, işində ol.

Aldı Əsmər xanım:

Sinəmdə qövr edir eşqin sövdası,
Silinsin könlünün qalmasın pası.
Yoxdu səndə aşıxlığın siması,
Nahax yerə bu meydana gəlifsən.

Alı dedi:

- Düz deyirsən, arvaddar kişilərə nə desə haxlıdı. Amma bu meydan arvad meydanı döyül. Qulağını aç, məni yaxşı-yaxşı dinnə:

Dağılıfdı huşun, həmi idrakın,
Əlac etsin sana loğmani-həkim.
Laf eyləynən aç mətahın, tök yükün,
Sərraf mənəm, yoxlamağa gəlmişəm.

Qalyan-qorçu Əsəd gördü ki, xanım livasını dəyişif elə geyinif ki, baxanda adamın huşu başınnan çıxır. Amma hiss elədi ki, xanımın qavirqotu, hindiqotu Alıya təsir eləmir. Zalım oğlu xanımın lap əhədini kəsif.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əsmər xanım dedi:

- Əyə aşıx, hərzə-hərzə danışma, qulağını aç, sözümün o biri xanəsini eşit:

Əsmərəm, qəddini döndərrəm yaya,
Əlimnən gedərsən ölkənə haya.
Aşıx deyif özün çəkmə ucaya,
Nahax yerə bu meydana gəlifsən.

Alı:

Çağırram Allahı, ol Mustafanı,
Gərdişi-dövranı, qadir sübhanı.
Bu Alıyı yaxşı öyrən, bil, tanı,
Qollarını bağlamağa gəlmişəm.

Söz tamama yetdi, Xanım bu dəfə laf ajıxlanıf özünnən çıxdı. Gedif livasını dəyişdi, özünə yeddi rəng ziynət vuruf, başdan ayağa qonöyüz geyif geri qayıtdı.

Qalyan-qorçu Əsəd ona baxanda huşu başınnan çıxdı.

Öz-özünə dedi:

- Zalımın balası insan ha döyül, elə bil göydən enmiş huri- qılmandı. Allah Alıya insaf versin. Heş belə xanımın xətrinə dəyəllər.

Əsmər xanım Alıya bir tərs nəzər salıf aldı görək nə dedi:

Gəndi laf eliyif, aşığam deyən,
Çox sənin kimisin qal eylərəm mən.
Min zülümnən səni çəkdirrəm dara,
O əlif qəddini dal eylərəm mən.

Aşıx Alı dedi:

- Xanım, vallah sana yazığım gəlir. Gəl daşı ətəyinnən tök. Nə özünə, nə bizə gəl nahax yerə əziyyət vermə. Qoy çıxax öz yolumuznan gedək.

Xanım sevindi. Fikirrəşdi ki, yaqın sözü qurtarıf, ona görə aradan çıxmaq istiyir. Yerini bir az da bərkidif dedi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Hələ Əsmər xanımın əlinnən sağ-salamat qurtaran olmuyuf. İnşallah sənin də canını alajam.

Alı dedi:

- Vallah, aaz, murazını gözündə qoyajam:

Bəyənmirsən mənim kimi aşığı,
Aparıf özümə mal eylərəm mən.
Vallah sallam bir tükənməz yanara,
Yandırıf-yandırıf kül eylərəm mən.

Xanım baxıf gördü ki, yox, deyəsən, bu, ipə-sapa yatana oxşamır. Gəlsənə, bir az da qorxudam. Bəlkə təntiyif, ağlını başınnan çıxarda bildim.

- Anasının oğlu, mənim on səkkiz şəyirdim var. Neçə-neçə aşıxları saldırmışam zindana. Səni də indi onnara qatıf boynunuzu vurdurajam:

Çağır dədən, nənən yetişsin dada,
O cavan ömrünü verəjəm bada.
On səkkiz şəyirdim var bəylərzada,
Səni də onnara qul eylərəm mən.

Qalyan-qorçu Əsəd baxdı kı, Əsmər xanım Aşıx Alıyı şəyirddərinə qul eləmək isdiyir, ürəyində dedi:

- Aya, bu zahmın qızı noloydu məni elə özünəjə qul eliyəydi.

Qalyan-qorçu, Əsmər xanım hayana gedirdisə, onun dalınnan baxırdı. Xanım o qədər xoşuna gəlmişdi ki, o yeridikcə köksünü ötürüf deyirdi:

- Allah, nur yağır, Allah!

Aldı görək Alı nə dedi:

Yaxşı-yaman hər nə desən qanıram,
Eşqin ataşına mən də yanıram.
Mən bir məhək daşam qəlbi tanıram,
Səni üç qəpiklik pul eylərəm mən.

Əsmər ürəyində dedi: mən nə desəm, deyəsən, bu, cavavını tapajax. Gəl buna elə bir biavırçı söz de ki, camahatın qavağında utansın. Deməyə söz tafmasın.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aldı Əsmər xanım:

Mən Əsmərəm, nahax gəlməz dilimə,
Çara olmaz haxdan gələn ölümə.
Səni minnəm üz tutaram elimə,
Arpa, samanını bol eylərəm mən.

Qalyan-qorçu Əsəd qayıtdı o tərəfdən ki...
- Xanım, minə bilsən məni də tərkinə al.
Camahat gülüşdü.
Əsmər xanım qarının üzünə baxıf dedi:
- Ay nənə, bu nətəri aşıxdı. Ağlın nə kəsir?
Qarı dedi:
- Ay qızım, imanım kirpi dərisində olsun, əyər belə aşıx görmüşəmsə?! Bu aşıx deyil, Ənzəli qamışıdı.
Aşıx Alı baxdı ki, yox, deyəsən, Əsmər xanımın cilovunu çəkməyin vaxtı çatıf.

Aldı Aşıx Alı:

Aşıx Alı təvəkküldü pirinə,
Sığınmışam o Kərrari-Kərimə,
Küçükləmiş qancıx kimi hürümə,
Axşam-savah yalın bol eylərəm mən.

Mehdixan irəli yeriyif dedi:
- Xanım, camahat səndən narazıdı. Novat indi Aşıx Alınındı. İndi o qavağa düşəcək, sən cavaf verəjəksən.
Alı sazın zilini zil, bəmini bəm eliyif başdadı, nə başdadı.

Aldı görək nə dedi:

Əcəf yerdə keşdin mənim cəngimə,
Cəngimnən çıxmağa bir hünər gərək.
Maya dura bilməz nər qavağında,
Meydana girməyə nərə-nər gərək.

Saxla dilin özün üçün qadağa,
Əlimnən gedərsən arana-dağa.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Səməndər tək göydə qanad çalmağa,
Havada süzməyə balü-pər gərək.

Camalın şövqünnən dilim oldu təng,
Çayda balığ olar, dəryada nəhəng.
Mahalım Göyçədi, kəndim Qızılvəng,
Aşıx Alı birdi, birə-bir gərək.

Aşıx Alı sözdəri deyənnən sonra camahat dedi:

- Aşıx Alı, sən də qıfılbənd de, qoy görək özünnən deyən xanım nə cavaf verir.

Alı gülə-gülə dedi:

- Arvada bağlama deyif, cavaf istəmək ölüdən kəlmeyi- şəhadət soruşmax kimi bir şeydi. İndi deyirəm. Mən deyəjəm, amma o gözünü döyəjək.

Aldı Alı görək Əsmər xanımnan nə soruşdu:

İnsi-cinni o yer, o göy yox ikən,
Hax nə əmr eylədi, yer nədən oldu?
Pərdeyi-hicavdan bir nəzər qıldı,
O dürrün içində nur nədən oldu?

Mehdixan dedi:

- Xanım, dillən, niyə dilin kəlmə tutmur.

Əsmər xanım dili dolaşa-dolaşa dedi:

- Mehdixan sağ olsun, havanın istisi, sazın səsi mənim başıma düşüf. Qoy desin, hamısını birdən açajam.

Aşıx Alı qalyan-qorçu Əsədin üzünə baxıf gördü ki, dostu papağın dalını yaman günortalayıf. Əsədin kefi Alvızın başında cöylan vurur.

Aldı sözün o biri xanələrini:

O bir nəzər qıldı gövhər tərlədi,
Bir qətrəsi düşdü, ümman eylədi.
Xışma gəlif Cəbrayıla söylədi,
Yandırdı şahpərin, nar nədən oldu?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aşıx Alı duva istər pirinnən,
İltifat nəzərinnən, öz qüdrətinnən.
Bir dürr xəlq eylədi qüdrət sərinnən,
O dürrün içində nur nədən oldu?

Söz tamama yetdi.

Əsmər xanım cavaf verə bilmədi. Mehtixan Əsmər xanımın boyunbağısından tutuf sürüdü meydanın ortasına. Dedi:

- Aşıx Alı, bunun canı da, pulu da sana halaldı. Nə desən, o da olajax.

Aşıx Alı dedi:

- Mehdixan, qardaşım, çox sağ ol.

Mən bu xanımı bağladığıma görə aparsam, Göyçə mahalında mana nə deyəllər. Deməzdərmi, bu öz deyiklisinə qovuşmax üçün pul qazanmağa getmişdi, yoxsa deyişif arvad almağa. Yaxşısı budu, toy xərcimi versin, gedim öz istədiyimi alım, toyumu eliyim.

Əsməri buraxdılar ki, gedif pul gətisin. Bir azdan Əsmər xanım əlində iki kisə qızıl pulnan qayıdıf gəldi. Pulları Alıya verif dedi:

- Aşıx Alı, sənin kimi oğula tək pulum yox, canım da qurvandı. Ürəyimi istəsən, onu da sana əsirgəmərəm. Qalyan-qorçu da qoy getsin mənim qızdarımnan pulunu alsın. Onnara tafşırmışam.

Əsəd ayağınnan yeri qurdalıya-qurdalıya dedi:

- Onun özü mənim olmuyannan sonra, pulunu zəhrimara döndərrəm.

Camaat dağıldı. Mehdixan aşıxları evinə apardı. Eloğlannarının şərəfinə gözəl bir məclis düzəltdi. Yaxşıca yeyif-içif, dincəldilər. Savah tezdən xanımın qaravaşdarınnan biri gəlif dedi:

- Aşıx Alı, xanım sizi çağırır.

Aşıx Alı duruf, sazını da götürüf Mehdixannan halal-hümmət eliyənnən sonra Əsmər xanımın yanına gəldi. Bunnar baxıf gördülər ki, sufra, yemək-işmək öz yerində. Amma xanım bu dəfə başqa livasdaydı. Hürü də, pəri də, mələk də onu görsə utandığınnan qaçıf gizdənər, üzə çıxmazdı. Təpədən tökülən saç alaçıx çuvuğu kimi yernən gedirdi. Xanımın zülfünün yarısı sinəsinin üstünə tökülüf səhərin mehinnən dərddəşirdi. Bir az söhbətdən sonra Əsmər xanım üzünü qızdara tutuf dedi:

- Qızdar, belə qara söhbətdərdən bir şey çıxmaz, sazımı mana gətirin.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onun sazını gətirdilər. Əsmər xanım sazını sinəsinə basıf şüm-şad barmaxları pərdələr üstündə gəzdirməyə başdıyanda qalyan-qorçu Əsəd Aşıx Alının qulağına pıçıldadı:

- Aşıx Alı, burda alver məsələsi olsa, sənin nişannın var, bunu öz adına al, mana ver. Aylığımnan tutarsan. Gözdəri bahar buludu kimi dolmuş Əsmər xanım məlul-məlul Alının üzünə baxıf görək nə dedi:

Arifi-xoşkəlam, tutiyi-imran,
Gəl al məni, mən də sənnən varalım.
Kimdi bu dünyanın axırın görən?
Gəl al məni, mən də sənnən varalım.

Aşıx Alı baxıf gördü kü, Əsmər xanımın fikri ayrıdı. Öz-özünə fikirrəşdi ki, bu nə qədər gözəl olsa da, mənim öz istəklim, öz elim, öz ovam var. Camahat mana nə deyər? Hamı dədəmin göruna söyməzmi?!

Alı öz-özünə fikirrəşdi, amma gərək elə eliyim ki, Əsmər xanımın da qəlbi mənnən qalmasın. Bu xəyalnan Aşıx Alı aldı görək nə dedi:

Sənəmlər sənəmi, gözəllər xası,
Necə deyim sən də mənnən varalı.
Ayıfdı aləmə düşməsin səsin,
Necə deyim sən də mənnən varalı.

Aldı görək Əsmər xanım öz dərdi-dilini nejə izhar elədi:

Aşiq oldum sənin şirin dilinə,
Dərya kamalına, gövhər, ləlinə,
Qəbul eylə məni, apar elinə,
Gəl al məni, mən də sənnən varalım.

Göhər gəlif dürr mədanın tutufdu,
Yaxşıyı qaldırıf, yaman atıfdı,
Baxtı yazan məni sana yazıfdı,
Gəl al məni, mən də sənnən varalım.

Qalyan-qorçu Əsəd dedi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Aşıx Alı, daha burda nə Mehdixan var, nə də camahat. Onun sözünü yerə salma. Denən alajam. Sonra mən deyən kimi eliyərik.

Aşıx Alı dedi:

- Aya, elə danışırsan, elə bil dünya görmüyüfsən. Özünü niyə biyavır eliyirsən? Onnan sana arvad olar? Xanzadələr, bəyzadələr ona söz deməyə cəsarət eləmir. Yuyulmamış qaşıx kimi ortuya nə düşüfsən?

Aldı görək Alı Əsmər xanıma nə dedi:

Bir xalın bəzirgan, bir xalın hajı,
Bir xalın qiymattı Urum xəracı.
O dünya, bu dünya sən mana bajı,
Necə deyim sən də mənnən varalı.

Əsmər xanım baxıf gördü kü, aşıx buna bajı deyir. Əli yerdən, göydən üzüldü. Dərinnən bir ah çəkif aldı sözün o biri xanəsini:

Əsmərəm, səninlə olaydım sirdaş,
Ağlaram, eynimnən gedər qannı yaş.
Sən ki, bajı dedin, sən mana qardaş,
Qardaşımsan, bu ilqarda duralım.

Aşıx Alı işin belə qurtarmasına çox sevinif, aldı görək sözünün sonuncu xanəsində nə dedi:

Aşıx Alı nə xəyala dalıfsan?
Heyva kimi, saralıfsan-solufsan.
İlqar verif bajı-qardaş olufsan,
Sona qədər bu ilqarda duralım.

Söz tamama yetdi. Əsmər xanım Aşıx Alıya bir dəst bəy paltarı, dəvə yununnan başdıx, məngülə arxalıx, gümüş vəznəli çuxa, bir də bir buxara papax bağışdadı, - Aşıx Alı, bu da mənnən sana bajı payı, - dedi. Sonra Alıya toy nəməri bir kisə də qızıl verdi.

Görüşüf-öpüşüf, halal-hümmət eliyənnən sonra bunnar vətənə yola düşdülər. Qalyan-qorçu yaman tələsiyirdi. Tez-tez Alıya deyirdi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Bə sən deyirdin adna axşamı gedəjiyik, cümə günü yola düşməliyik. Yolumuzu gözdəməkdən evdəkilərin gözünün kökü saraldı.

Ərzurum dağlarının ətəyində qalyan-qorçu bir də onu tələsdirəndə Alı sazı sinəsinə basıf qəmli-qəmli oxumağa başdadı.

Budu gəldi aylar sultanı Novruz,
Dolandı ruzigar, havalar keşdi.
Dəli könül gündə yüz xəyal eylər,
Balalı sərimnən sevdalar keşdi.

Başına mən dönüm, ey şahı-doxtər,
Apardı ağlımı gözdəri xumar.
Tapmadım ömrümə bir münasib yar,
Neçə məleykələr, sonalar keşdi.

Alı deyər bu qəm məni bürüdü,
Eynim yaşı sel-sel oldu, yeridi.
Cavan canım qürvət eldə çürüdü,
Neçə çərşənbələr, cumalar keşdi.

Bu sözü qurtarannan sonra onnar başdadılar getməyə. Bir az gedənnən sonra gəlif İydir şəhərinə çatdılar. Bir az da gedif çatdılar Axuranın yalına. Artıq Ağrı dağı görünürdü.

Aşıx Alıya demişdilər ki, Ağrı dağının yanınnan getmiyin. Orda yeddi zilan qaçağı var, sizi saxlayıf soyajaxlar.

Aşıx Alının sazının simi qırılmışdı. Sazını düzəltdirmək isdiyirdi. Bir də baxdı ki, əli silahlı, yeddi nəfər Ağrı dağınnan enif onnara tərəf gəlir.

Aşıx Alı böyük bir daşın dalına girif sazı daşın üstünə qoyuf dedi:

- Ayə, tərpənməyin silahları qoyun yerə. Yoxsa hammızı dənniyəjəm.

Zilan qaçaxları baxıf gördülər ki, qavaxda qəribə bir silah görünür. Doqquz nişanə götürən qaraulu var. Bunnar yalvarmağa başdadılar.

- A qardaş, vallah, biz düzgün adamlarıx, düşmanmyıx, ona görə dağlara çəkilmişik. Bizim siznən nə işimiz var?

- Ayə, sizə demirəm tökülün atdan, silahları yəhərin qaşına keçirdin!

Onnar atdan düşüf, silahları, qatarrarı yəhərin qaşına keçirtdilər.
Aşıx Alı dedi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Əllərinizi yuxarı qaldırın, and için! Dedilər:

- Nəyə and içək?

- And için Ağrı dağına, peyğəmbərin bulağına, Nuhun gəmisinə. And için ki, bizim siznən heş bir işimiz olmuyajax.

Birinin civində bıçağı varıydı. Əlini salıf onu da civinnən çıxardif yerə atdı. Öz-özünə dedi:

- Qansız adama oxşuyur. Birdən üstümü yoxluyuf tapar. Məni vuruf öldürər.

Aşıx Alı dedi:

- Di gəlin addayın.

Bunnar əlləri yuxarıda gəlif addıyırdılar. Biri gözünün qulağınnan baxanda gördü kü, aya, silah-zad nədi, bunun əlindəki sazıymış. Bir göz qırpımında aldılar Aşıx Alının başının üstünü.

- Aşıx, and içmişik ki, səni öldürməyəjəyik. Ağrı dağında nə nişangah varsa, hamısını deyejəksən. Yoxsa, sənin qaşoyluğunu bu qamçıya verəjəm.

Aşıx Alı dedi:

- İcazə verin deyim.

Aldı görək Aşıx Alı nə dedi:

Alçaxdan ucuya çəkilif başın,
Dağların sərdarı nər Ağrı dağı.
Payızın, baharın olar zimistan,
Sənnən əysik olmaz qar, Ağrı dağı.

Dedi:

- Aşıx, Ağrı dağının nə nişanəsi var biz bilirik. Düz deməsən, səninkini sana verəjəyik.

Xan atdanar, xan yerinə xan düşər,
Leşgər vurar, mahallara qan düşər,
Hər dağdan irəli sana gün düşər,
Hər zaman açılsa dan, Ağrı dağı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qaçaxlar bir ağızdan dilləndilər:

- Aşıx Alı, sağ ol. O biri nişannarı da düz desən, nəmərin bizdə.

Alı alıf sözün o biri xanələrində görək nə dedi:

Səkkiz rizvandı, o cənnət bağı,
Neçə qapısı var, neçə otağı...
Nuh gəmisi, peyğəmbərin bulağı,
Çox nişana səndə var, Ağrı dağı.

Aşıq Alı insanata sirridi,
Tozun qalxıf İrəvanı bürüdü,
Axşam üstü bir tərəfin yeridi,
Batırdın Axuranı pir Ağrı dağı.

Söz qaçaxların çox xoşuna gəldi. Yeddi nəfəriydilər. Hərəsi bir onnux qızıl da bunnar verdi.

Aşıx Alıynan qalyan-qorçu Əsəd xeyli gedənnən sonra sağ-salamat gəlif Şərur torpaxlarına çatdılar. Alıynan qalyan-qorçu Əsədin ayrılmax məqamı yetişdi. Görüşüf, öpüşüf, halallaşannan sonra Aşıx Alı çıxardıf Əsədin pullarını verdi. Hələ otuz manat da üstünə qoydu. Baxdı Əsəd ayağınnan yer qurdalıyır. Alı dedi:

- Əsəd, noluf, niyə yer eşəliyirsən?

- Aşıx Alı, mana az verdin.

- Niyə danışdığımız yadınnan çıxıfmı?

- Yox, yadımdadı. Amma mən çox çətinniklər çəkdim sənin yolunda. Sən də ki, yüz aşığın pulunu qazandın.

Aşıx Alı çıxarıf ona otuz manat gənə verdi. Sonra halal-hümmət eliyif ayrıldılar. Aşıx Alı gejəni gündüzə qatıf özünü kənddərinə çatdırdı. Gejə yarısı qapılarını döydü. Tez dədəsi qapının dalına gəlif soruşdu:

- Səsinə qurvan olum, Alı, sənsənmi?

- Ay dədə, mənəm.

Allah heç kəsi kasıf eləməsin. Bir ağac qırığı yoxuydu ku, qapının dalına söyküyüf yatalar. İmirzə kişi qapının dalına daş yığmışdı. Daşdan bir-bir götürüf qırağa qoyur. Qoyduxca danışırdı:

- Alı, mən bir şey düzəldəmmədim. Ölmüş anan da bir şey düzəldəmmədi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aşıx Alı dedi:

- Ay dədə, qorxma, yaxşı gəlmişəm.

İmirzə kişi qapıyı açdı. Aşıx Alıyı bağrına basdı. İmirzə kişi dedi:

- Öyü xaravanın qızı, Alı gəldi.

Anası yetirif oğlunu ayaxdan başa duz kimi yaladı.

- Anan ölsün. Anan öləydi, səni görmüyəydi. Bəsdi xanımı ayrı adama veriflər. Bu saat toy çalınır.

İmirzə kişi hirsdi adamıydı, amma adam döyməknən işi yoxuydu. Arvadın üstünə qıjğırılıf dedi:

- A gijvəsər qızı, gijvəsər. Cahaldı, ona niyə elə xəvər verdin?!

Savah açılhaaçılıydı. Anası tez çay qaynadıf onun qavağına qoyuf, dedi:

- Anan ölsün, bir istəkan çay iç.

Aşıx Alı bir istəkan çay içənnən sonra baxıf gördü kü, dədəsi böyründə hərrənir. Alı dədəsinin üzünə baxanda İmirzə kişi soruşdu:

- Ah, a bala, nətəri gəldin?

- Ay dədə, yaxşı gəlmişəm. Üç kisə qızıl gətirmişəm. Dan yeri ağardı.

Camahat mal-qoyunu naxıra qatan vaxtı İmirzə kişiyə dedi:

- Ay dədə, mən Çamırrıya Bəsti xanımın toyuna getmək isdiyirəm, nə deyirsən?

- A bala, o toyda on yeddi cahal əli tüfəngli dayanıf, deyillər toya kim duz qatsa, onu vurajaxlar.

- Yox, dədə, ölsəm də gedəjəm.

Aşıx Alı sazım götürüf Çamırrıya, toy öyünə yollandı. Camahata şüd düşdü kü, Aşıx Alı gəldi. Hamı elə bilirdi ki, Aşıx Alı ölüf. Ona görə də Bəsti xanımı başqasına verillər. Aşıx Alı məclisə girəndə hamı məəttəl qaldı.

- Aşıx Alı, sazını çıxart, bir oxu.

Aşıx Alı sazı çıxartmaxda olsun, sizə kimnən xəvər verim, İmirzə kişidən.

İmirzə kişi arvadına dedi:

- Arvad, o farmaşın qoynundakı xançalı çıxart mana gəti.

- A kişi, neynirsən onu?

- Gədənin dalıncax gedirem, tez ol!

- Ayə, sən bu xançalnan nağayrajaxsan?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Əşşi, sənin işin döyül. Yüz gün yarax, bir gün gərək.

İmirzə kişi ətmi doğramışdı, köşəmi çəkmişdi, ya gönmü sıyırmışdı, bilmirəm elə qannı-qannı xançalı qınına qoymuşdu. Xançalın yarıya qədəri qındaydı, yarıya qədəri də çöldə. Nə qınına otururdu, nə də çıxırdı. İmirzə kişi bunu kürkün altınnan belinə bağlayıb getdi həmin toy məclisinə. Gördü kü, on yeddi cahal əlində tüfəng dayanıf. İmirzə də bir tərəfdə dayandı. Əli də kürkün altındakı xançalın dəstində. Camahat dedi:

- Aşıx Alı, oxu.

Aldı görək Aşıx Alı nə dedi:

Günahkaram yar yanında,
Doğru sözüm yalan oldu.
Yeriş etdi qəm ləşkəri,
Könlüm şəhri talan oldu.

Bəsti xanım Aşıx Alının səsini eşitdi. Üzünnən ürbəndini azajıx araladı. Gördü kü, Aşıx Alı qəmli-qəmli oxuyur. Aşıx Alı da baxdı ki, Bəsti xanım ağlıyır. Öz-özünə dedi:

Ayə, bu bizim kənddi filankəs kimi gözündən mayıf olajax.

Bax bu qaşa, bax bu gözə,
Yandı bağrım döndü közə.
Keçən sözü çəkmə üzə,
Keçən keçdi, olan oldu.

Bəsti xanım baxıf gördü kü, söznən onu başa salır ki, gedifsən get, günahkar mənəm.

Bəsti bu töhmətə dözmədi, oğlanın bajısını yanına çağırıf dedi:

- Ala, qardaşının üzüyünü.

- Aaz, toya qan salarsan, aaz nə danışırsan?

- Cəhənnəmə qan düşsün. Mən elə bilirdim ki, Aşıx Alı ölüf.

İndi ki, Aşıx Alı sağdı, getmiyəjəm.

Bir azdan xəvər yayıldı kı, deməzsənmi Bəsti xanım Aşıx Alı gəlif deyən üzüyü geri qaytarıf, toyu pozmax isdiyir. Aşıx Alı isə oxuyurdu:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aşıx Alı sana qurvan,
Gəl eyləmə bağrımı qan.
Əldən uçdu tülək-tərlan,
Sar da kəklik alan oldu.

İmirzə kişi baxıf gördü kü, qızın atası adamlarına deyir ki, Aşıx Alıyı da vurun, dədəsini də. Yazıx İmirzə kişi Aşıx Alının arxasınnan hərrənirdi ki, qoy atılan güllə qavaxca mana dəysin. Kürk qalındı bəlkə saxlıya. Bala dediyin bağır ətidi. Allah heş kimi tək eləməsin. Bir azdan ara qarışdı, məssəf itdi. Camahat iki tiriyə böləndü: kimi Aşıx Alıya hax qazandırdı, kimi də toy yiyəsinə.

Aşıx Alı baxıf gördü kü, bunnarın sözünü az adam deyir. Amma camahatın bəzisi annadı ki, İmirzə kişidə silah var. Nədisə kürkün altındadı. Əlini atıf çıxartmax isdiyir. Dodaxaltı da, deyir ki, çoxdan çox öləjək, azdan az. Bu yerdə görək aldı Aşıx Alı nə dedi:

Beybəfa dost məni cannan elədi,
Tutufdu dəstində ayaq almasın.
Girdim dostun baxçasını seyr etdim,
Görmədim bağında ayaq almasın.

Camahatın hamısı Aşıx Alıya baxıf hayfısdandı. Ayə, Allah eliyəydi toya qan düşmüyəydi.

Katıvısan oxu dərsin hər aya,
Bayram ayı demək olmaz hər aya.
Şahlar şahı özün yetiş haraya,
Düşman bu günümdə ayaq almasın.

İmirzə kişi elə fikirrəşdi ki, Aşıx Alı təkdi deyən özünə kömək isdiyir. Əli xançalın dəstəsində köyrəldi. Dedi: - Ayə, a bala, sənin üstünə ayax alan kimdi? Aldı görək Aşıx Alı nə dedi:

Deyər Aşıx Alı yara bağlıya,
Kamil təbib gərək yara bağlıya.
Yar ixlasın özgə yara bağlıya,
Həftə tamam oluf, aya qalmasın.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Niftalı irəli yeriyif dedi:
- A camahat, mənnən küsmüyün. Mən qızımı Xudaverdinin oğluna vermirəm.
Camahat dedi:
- Niyə, a Niftalı?
- Ona görə ki, Aşıx Alı haqq aşığıdı. Mənim qızıma qarğadı. Gözümün ağı-qarası bir uşağım var. Niyə getsin bədbaxt olsun.
Camahatın yarısı ayağa qalxdı.
- A Niftalı, onda qızı Aşıx Alıya verək.
Bir neçə ağsaqqal yerinnən qalxıf dedi:
- Düz deyir, qavaxdan Niftalı qızın "hə"sini Aşıx Alıya verif, qız ona deyiklidi.

Aldı görək Aşıx Alı indi nə oxudu:

Uçufdu könlümün qəlbi hasan,
Bir sütun vurdunuz damı dayansın.
Hər kim dostdan dosta yaman qandırsa,
Qıyamat oduna damı da yansın.

Camahat baxıf gördü, kim ki, Aşıx Alının sözünü demir, haqq aşığı onu qarğıyır. Dedilər:
- Xudaverdidən ötrü damımızı niyə başımıza uçurdurux? Niyə qarğış yiyəsi olurux?

Alı isə oxuyurdu:

Dedim əğyar özü nədi, sözü nə?
Baxgınan qaşına, ala gözünə,
Axirətdə bir öy tiksə özünə,
Uçmasın başına, damı dayansın.

Camaat baxıf gördü kü, Aşıx Alı açıx-aşkar deyir:
- Kim ki, mərdimazardı, qoy onun evi başına uşsun.

Deyər Aşıx Alı acar ovluya,
Zambur şirə çəkə acar ovluya.
Hər kim dostun qoyuf acar ovluya,
Od vur qapısına damı da yansın.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Söz tamama yetən kimi Çamırrının ağsaqqalı ayağa qalxıf dedi:

- Ay camahat, heş kim səs-küy salmasın. Ay İmirzə, irəli gəl Xudaverdi nə verifsə, o başdığı sən ver Niftalıya.

Aşıx Alı sazını götürüf evlərinə qayıtdı. İmirzə irəli yeriyif dedi:

- A Xudaverdi, nə verifsən?

Dedi:

- Yüz manat qızıl pul. Bir həftə də bu camahatın yeyif-içdiyinin hamısını.

İmirzə onun nə təmənnası vardı, hamısını ödədi. İrəli yeriyif Niftalının əlinnən tutdu.

- A Niftalı, "hə" alanda pulum olmadı. Bu iki onnux sənin "hə" demən. Üç yüz manat qızıl pul başdıx istəmişdin. Ala bu da sənin başdığın.

Xudaverdiyə dedi:

- Di zurnaçılarını götür get. Camahat dedi:

- Ayə, zurnaçı neyliyir sana? Qoy çalsınnar. İmirzə dedi:

- Yox, mana ürəkdən çalan zurnaçı lazımdı. Çaxırrıdan Balay Söyünü gətirəjəm. Camaat razılaşıf Bəsti xanımı Alıya verdi.

O vaxtdar gəlin atnan gəlirdi. İmirzə kişinin bir atı varıydı. Bir-neçə atı da Mustafa göndərdi ki, gəlinin qavağında at oynatsınnar. Gəlini ata mindirdilər. İmirzə kişi bir əlinnən atın yüyəninnən, o biri əlinnən də üzəngisinnən tutuf, başınnan arvadı yanına çağırdı.

- Ay ölü qızı, ölü, gəlif gəlinin qavağında oynasana!

Gəlin qapıya çatdı. Camahat axışıf gəldi. Elə gözəl bir toy keçirdilər ki, daa nə deyim? Xudavəndi-aləm hamıya oğul toyu, qız toyu qismət eləsin.

Aşıxlar toyun sonunda bəy tərifi söylüyər, sonra da bir duvaqqapamaynan məclisi başa çatdırallar. Biz də bu söhbətimizi beləcə başa çatdırax:

Təzə bir gözəl çıxıfdı, -
Dağlar maralı, Gülpəri.
Hər kəsə qarşı gəlsə,
Yandırar narı, Gülpəri.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Camalınnan haya edir,
Dağların qarı, Gülpəri,
And verirəm öz baxtına,
Pozma ilqarı Gülpəri.

Gülpəri, nə Gülpəri,
Bənzər cənnət almasına.
Ay, gün görsə haya edir,
Keçər bulud daldasına.
Eşidənnər heyran qalır,
Bu gözəlin sədasına.
Nə ola qədəm basasan,
Bir bizə sarı, Gülpəri.

Hər kim belə gözəl alsa,
Baxtafar onun başına.
Yüz yaşında qoja olsa,
Enər on səkkiz yaşına.
Görənnər heyran qaldı,
Onun süzgün baxışına.
Cəllad kimi aman vermir,
Qurudur darı, Gülpəri.

Aşıx Hajı, qurvan eylə,
Canını belə ceyrana.
Çoxlarını dəli edif,
Salıf çöllü-biyavana.
Hər kim belə gözəl alsa,
Zəhmət versin şirin cana,
Səyyat tor qursa tərlana,
Ovlar şikarı, Gülpəri.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## HAJI HÜSEYNİN AŞIX ALIYA AT BAĞIŞLAMASI

Ağbulaxlı Hajı Hüseyn Aşıx Alının yaxın dosdannnan biri oluf. Deyilənnərə görə, Hajı Hüseyn Göyçənin addı-sannı, tanınmış, yoxsul dərdi çəkən səxavətdi adamlarınnan biriymiş. Aşıx Alı həmişə qonşu kənddərə, Qaraqoyunnu dərəsinə, eləcə də Qazağa, Tovuza, Borçalıya gedəndə Hajı Hüseynin evinə düşər, dostuna qonax olardı. Eşidif bilən kimi qonum-qonşu aşığın başına toflaşar, Hajının öyü toy öyünə dönərmiş. Günnərin bir günü Aşıx Alı dostu Qiyas ağadan bir məktuf alır. Oxuyanda görür kü, dostu onu Qazağa oğlunun toyunu keçirməyə çağırır. Daha durmağın yeri döyüldü. Aşıx Alı hazırraşıf şəyirdi Mehtiynən birrikdə yola düşür. Basarkeçərdə Mehtiyə deyir ki, bala, atının ayağı nalsızdı, gətir nalladax, sonra gedək. Atı nalvəndə çəkif nallatdılar. Nalladannan sonra atdarın ağzını çevirillər Qazağa tərəf. Məzrə kəndini keçəndə görüllər ki, at axsayır. Şişqayada daha at çox çətinniknən ayağının birini yerə basır.

- Ayə, ay Mehti, bu çərrəmiş yoxsa bizi yolda qoyar, atın mayasına mıx dəyif, - deyə Alı dillənir.

Uzun sözün qısası onnan bir təhər gün varkən Ağbulağa çatıllar. Hajı Hüseynnən Aşıx Alı çox mehribannıxnan görüşüllər. Hajı qonaxları otağa dəvət etdikdən sonra eşiyə çıxıf uşaxlara deyir ki, Alıgilin atdarını tövlüyə çəkin. Uşaxlar atı içəri çəkəndə görüllər ki, aşığın atı axsıyır.

Axşam yaxşı qonaxlıx düzəldillər. Kəndin ağsaqqalları, saz-söz həvəskarrarı Alının başına toflaşır. O da gejəyə əməlli-başlı bir körpü atır. Düz gejə yarıya kimi çalıf-oxuyur, şirin söhbətdər eliyir. Savah açılanda Aşıx Alı Qazağa yola düşməli olur. Bu vaxt onun qavağına özgə at çəkillər. Alı bir qədər tərəddüd eliyir.

- Alı, min sür, sənin atının mayasına mıx dəyif, nalını sökdürmək lazımdı, - deyif Hajı Hüseyn irəli yeriyif atın cilovunnan tutur. Aşıxlar yola düşüllər. İki gün sonra Hajı Hüseyn Aşıx Alının atını Qızılvəngə qaytarır. Deyilənnərə görə, Aşıx Alı Qazaxda çox ləngərri bir toy keçirir. Aşığı on dörd gün Qazaxdan buraxmıllar. Yarım aydan sonra Alı yenə Ağbulağa qayıdır. Dostunun evinə düşür. Dincini alannan sonra Qızılvəngə gedəcəyini bildirir.

Hajı Hüseyn deyir ki, Alı, sənin atını ilxıya buraxmışam, at atdı nə fərqi var, elə bu atı min get. Alı dostunun bir sözünü iki eləməz-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

di. Bilirdi ki, Hajı belə şeylərdən inciyən adamdı. Odu ki, Aşıx Alı görüşüf yola düşməli olur.

Aşıx gəlif Qızılvəngə çatanda görür ki, öz atı həyətdə hörüklənif. Aşıx Alı elə belə adam döyüldü. Hər şeyi o saat başa düşür. Bilir ki, Hajı Hüseyn atı ona bağışdıyıf.

Axşam qonum-qonşu toflaşıf aşığın Qazaxda görüf-bildiyinnən danışmağı xahiş eliyillər. Alı Qiyas bəyin dostduğunnan, Qazax camahatınnan, keçirdiyi toyun böyüklüyünnən ürəkdolusu danışır. Sonra da qayıdır ki, Ağbulaxlı Hajı Hüseyn bir görün başıma nə oyun açıf...

- Onu da bilmişik, - deye kimsə yerdən dillənir, - canın sağ olsun, bir gün olar sən də onun yaxşılığınnan çıxarsan.

Aşıx Alı qayıdır ki, siz mənim dostumu hələ yaxşı tanımırsınız. O, heş nədən yaxşılıx güdən adam döyül. Bir dəfə Hajı evində xəstə yatırmış. Arvad-uşax xəvər gətirir ki, koxa camaatı kəndin ortasındakı meydana tofluyuf, vergi üstündə incidir. Hajı uşağa deyir ki, tez Hajı Kazımı tapıf yanıma gətir. Hajı Kazım onun böyük oğluydu. Hajı Kazımı çağırıllar. Hajı tərs-tərs onun üzünə baxır.

- Ay dədə, nə oluf? - deyə, Hajı Kazım soruşur.

- Nə olajax, a bala, sən eşidmiyifsən ki, koxa camaatının başına nə oyun açır?! Bu saat gedif o koxaya deyərsən ki, mənim camaatımı pula görə çox nahax incidir. Gəlsin pulunu verim.

Hajı Kazım tez evdən çıxıf özünü verir koxanın yanına. Çatan kimi görür ki, koxa qızmış nərə dönüf camaata daha nə qalır deməmiş. Koxuyu çağırır bir kənara, Hajı Hüseynin dediyini ona çatdırır. Koxa bilir ki, Hajı onu hörmətdən salajax. Başdıyır dil-ağız eləməyə ki, vallah elə ajığım tutmuşdu. Vergiyi yaman yuvadıflar. Hajı Kazım Hajı Hüseynin verdiyi pulla camaatın vergisini bağlıyır. Hajı belə səxavətdəri çox eliyif. Bir at Hajı üçün o qədər də böyük şey döyül.

Sazımı gətirin görüm mən də Hajıya öz ürək sözümü necə çatdıra bilirəm...

Bu dari-dünyada, Göyçə elində
Hörmətdə, izzətdə birsən, ay Hajı.
Sənə qismət verif xaliqi-sübhan,
Həqiqət yolunda şirsən, ay Hajı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Başı yığıncaxlı, cövrü-cəfalı,
Qohuma-qonşuya, dosta vəfalı.
Qonaxlı-qaralı, Hatəm səxalı,
Süfrələr açmaxda birsən, ay Hajı.

Tanıyır el-ova düz insan səni,
Tutammaz şöhrətdə nə boy, xan səni,
Azmı eyləmişəm imtahan səni?
Ərrər meydanında ərsən, ay Hajı.

Süfrəsi, dövləti, halal əməyi,
Yüzdüklər xərşdiyər əsmər ürəyi.
Yetimlər köynəyi, yoxsul çörəyi,
Əvvəldən bir açıx dərsən, ay Hajı.

Yanında xəcalət bu Aşıx Alı,
Bağışda sən allah bu qeylü-qalı.
Seyiddən, molladan elə daldalı,
Vallah ziyarətsən, pirsən, ay Hajı.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## KİTABDAKILAR

*Ön söz*………………………………………………………………………………4

## GƏRAYLILAR

Oldu……………………………………………………………………21
Qoynunda-qoynunda…………………………………………………………..21
Uzaq yollara-yollara…………………………………………………...22
Olmur…………………………………………………………………….22
Dağlar qoynunda-qoynunda…………………………………………...23
Yalvara-yalvara………………………………………………………..24
Düşübdü…………………………………………………………………24
Təbriz gözəli…………………………………………………………..25
Ölürəm……………………………………………………………………...25
Oldu……………………………………………………………………26
Eyləsin…………………………………………………………………26
Sənə…………………………………………………………………….27
Oldu……………………………………………………………………27
Dövran…………………………………………………………………28
Birisin…………………………………………………………………29
Qazanar………………………………………………………………..30
Ellərdi…………………………………………………………………30

## QOŞMALAR

Söz oldu……………………………………………………………..33
Bu gün…………………………………………………………………34
Nə qaldı……………………………………………………………..34
Getdi…………………………………………………………………...35
Düşər……………………………………………………………………..35
İçəcək……………………………………………………………………36
Bilməz…………………………………………………………………37
Olmadı…………………………………………………………………37
Dolandırır………………………………………………………………...38
Keçdi ……………………………………………………………………38
Dedi……………………………………………………………………39
Bənzərsən……………………………………………………………...39
Qızların……………………………………………………………………...40
Könül……………………………………………………………………..40



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sənin…………………………………………………………………...41
Ağrı dağı………………………………………………………………42
İncimәsin………………………………………………………………42
Gedək……………………………………………………………………43
Olmadı…………………………………………………………………43
Gərək…………………………………………………………………..44
Deyinən………………………………………………………………..44
Yadıma düşdü…………………………………………………………45
Kor aşıq alı……………………………………………………………45
Yavaş-yavaş…………………………………………………………...46
Deyirəm………………………………………………………………..46
Vətənimdə……………………………………………………………..47
Tək-tək…………………………………………………………………...47
Görmədim……………………………………………………………..48
Bax……………………………………………………………………….48
İstərəm…………………………………………………………………49
Bəsdi…………………………………………………………………...50
Ola bilməz……………………………………………………………..51
Yetişdim………………………………………………………………52
Gətirmə………………………………………………………………...52
Gedirəm………………………………………………………………..53
Könül…………………………………………………………………..53
Bilinməz………………………………………………………………54
Düşərsən………………………………………………………………54
Gözəldi………………………………………………………………...55
Vermərəm……………………………………………………………...55
Düşmüşəm……………………………………………………………..56
Bəsdi…………………………………………………………………...57
Mənim…………………………………………………………………57
İtibdi…………………………………………………………………...58
Ay ilə-ilə………………………………………………………………58
Ay eylər qıj-qıj………………………………………………………...59
Keçibdi………………………………………………………………...59
Eyləmə………………………………………………………………...60
Bəsdi…………………………………………………………………...61
Bilin siz………………………………………………………………..62
Görmüşəm……………………………………………………………..62
Ağlama………………………………………………………………...63
Dönübdü………………………………………………………………64



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Düşər……………………………………………………………………..64
Oldu………………………………………………………………………65
Düşər……………………………………………………………………..66
İncimərəm………………………………………………………………..66
Gözəldir…………………………………………………………………..67
Əlif-əlifə…………………………………………………………………67
Ağlaram…………………………………………………………………..68
Əzbər-əzbəri……………………………………………………………...68
Yetişdi……………………………………………………………………69
Mənəm…………………………………………………………………...69
Birisin…………………………………………………………………….70
Qurbandı………………………………………………………………….70
Yazdım…………………………………………………………………...71
Soruşma…………………………………………………………………..71
Getdi……………………………………………………………………...72
Dərindi…………………………………………………………………...72
Qabaqda…………………………………………………………………73
Çürüdü……………………………………………………………………74
Qalmadı…………………………………………………………………..74
Ay ağa haray……………………………………………………………..75
Gözdə gözü sən…………………………………………………………..75
Olgunan…………………………………………………………………..76
Ay üzə-üzə……………………………………………………………….76
Narın üz…………………………………………………………………..77
Deyirəm…………………………………………………………………..77
Amandı…………………………………………………………………...78
Dəyməmiş………………………………………………………………..78
Gülə-gülə…………………………………………………………………79
Deyərsən………………………………………………………………….79
Neynər…………………………………………………………………….80
Tərk elə……………………………………………………………………80
Çəkibdi…………………………………………………………………...81
Mədinə…………………………………………………………………...81
Yaylaq…………………………………………………………………….82
Gözəllər…………………………………………………………………..83
Yaratdı…………………………………………………………………….84
Sevdiyim………………………………………………………………….84
Qocalmışam……………………………………………………………...85
Dolandırır………………………………………………………………...86



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Eylər-eylər……………………………………………………………..87
Yavaş-yavaş…………………………………………………………...87
Gələcəkdi……………………………………………………………...88
Əllər…………………………………………………………………...88
Bizə göndər……………………………………………………………89
Neçə dili var…………………………………………………………...90
Olmaz…………………………………………………………………..91
Görmədim……………………………………………………………..91
Diyarımda……………………………………………………………...92
Nədən oldu……………………………………………………………..92
Gözümüz……………………………………………………………….93
Yaxşıdı………………………………………………………………...93
Zamanıdı……………………………………………………………….94
Hayıfsan………………………………………………………………..94
Gözəllər………………………………………………………………..95
Var……………………………………………………………………..95
Zeynalın………………………………………………………………..96
Gətirmişəm…………………………………………………………….96
Düşdü…………………………………………………………………..97
Dolandı………………………………………………………………...98
Bəsdi yar……………………………………………………………….98
Bəsdi …………………………………………………………………..99
Yandı…………………………………………………………………100
Ola bilməz……………………………………………………………100
Çalım…………………………………………………………………101
Sarıköynək…………………………………………………………...102
Dal-dala………………………………………………………………102

## TƏCNİSLƏR

Ay üzə-üzə…………………………………………………………...105
Damı da yansın……………………………………………………….105
De bir üz-bir üz………………………………………………………106
Dal-dala………………………………………………………………106
Aya qalmasın…………………………………………………………107
Ayə məndədi…………………………………………………………107
Ayağı belə……………………………………………………………108
Başa-baş……………………………………………………………...108
Ağ damar-damar……………………………………………………..109



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## DİVANİLƏR

Nədir……………………………………………………………………….113
Bu gün……………………………………………………………………..114
Sənəm……………………………………………………………………...115
Gələcək…………………………………………………………………….116
Danış……………………………………………………………………….117
Verir………………………………………………………………………..118
Var………………………………………………………………………….119
Nədi…………………………………………………………………………..119
Bax…………………………………………………………………………...120
Yalvarıram……………………………………………………………...121
Qırmızı……………………………………………………………………….122
Bizdədi……………………………………………………………………….123
Mərd………………………………………………………………………….123
Gəl…………………………………………………………………………….124
Qəzəl………………………………………………………………………….126

## AŞIQ RƏVAYƏTLƏRİ

Aşıq Alı ilə Aşıq Ələsgərin deyişməsi……………………………………….129
Aşıq Alının Türkiyə səfəri……………………………………………...146
Hajı Hüseynin Aşıx Alıya at bağışlaması……………………………………183



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

| | |
|---|---|
| Buraxılışa məsul: | *Umud Rəhimoğlu* |
| Texniki redaktor: | *Mübariz Piri* |
| Kompyuter səhifələyicisi: | *Allahverdi Kərimov* |
| Kompyuter operatoru: | *Lalə Cəfərova* |
| Korrektor: | *Tofiq Qaraqaya* |



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yığılmağa verilmişdir 09.08.2006. Çapa imzalanmışdır 28.12.2006.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 12. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 277.

Kitab "PROMAT" mətbəəsində çap olunmuşdur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional